RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 39 (8918) BAZAR, 20 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV islahatlarının uğur simvolu

## Birinci vitse-prezident Mehriban xanım Əliyeva – inam, etimad və sədaqət ünvanı

İnklüzivlik və islahatçılıq müasir Azərbaycan cəmiyyətinin fərqləndirici xüsusiyyəti kimi diqqəti cəlb edir. Son bir neçə il ərzində Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi, siyasi, idarəçilik islahatları ölkənin həyatında yeni meyil və təşəbbüslərin əsasını qoymaqla yanaşı, Azərbaycanın beynəlxalq imicinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına təkan vermişdir.

Ölkəmizin dünyanın ən islahatçı 10 dövləti sırasında yer tutması özlüyündə böyük beynəlxalq nailiyyət olub, onun müşahidə etdiyimiz inkişafının və müasirləşməsinin etibarlı əsası rolunu oynamaqdadır.

2016-cı ildə keçirilən referendum və Azərbaycanın Konstitusiyasında edilən dəyişikliklər ölkəmizdə siyasi və idarəçilik islahatlarının növbəti mərhələsini əks etdirir. Vitse-prezident institutunun təsis edilməsi dövlət idarəçiliyi sahəsində həm islahatçılıq konsepsiyasının ardıcıl surətdə həyata keçirilməsinin məntiqi nəticəsi, həm də yeni hədəflərə doğru inamlı addımların başlanğıcı sayılmaq qədər tarixi əlamətdarlıq yükü daşıyır. Lakin diqqəti çəkən və düşünülən islahatların gələcək uğurlu taleyinə zəmanət verən cəhət təsis edilən Birinci vitse-prezident vəzifəsinə ölkənin ictimai və siyasi həyatında yaxından iştirak edən, insanların dərin məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın təyin olunmasıdır.

Həmin tarixi hadisədən 5 il keçir. Zaman nəinki sözügedən təyinatın doğruluğunu tam təsdiq etdi, həm də bu seçimin Prezident İlham Əliyevin islahatlarının uğur simvoluna çevrildiyini nümayiş etdirdi.

*Ardı 3-cü səh.*

# Azərbaycan naminə şərəfli missiya

## Mehriban xanım Əliyeva böyük dayaq, mərhəmət və xeyirxahlıq örnəyidir

*Azərbaycan tarixində zamanın, hadisələrin məhvərini dəyişməyə qadir, sərkərdə ruhlu, siyasətdə, elmdə, mədəniyyətdə, incəsənətdə və digər bütün sahələrdə ciddi nəticələrə imza atan güclü qadınlar çox olub. Onlar cəmiyyətimizin inkişafında fəal iştirak edib, ona öz töhfələrini veriblər.*

Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan qadınlar təkcə ana deyil, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmurudurlar. Humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdən biridir.

*Ardı 4-cü səh.*

# Xalqa və dövlətə layiqli xidmət nümunəsi

**Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsinin beşinci ili tamam olur.**

**Respublikamızın Birinci vitse-prezidenti kimi şərəfli missiyanı həyata keçirmək Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinin parlaq dövrünü əhatə edir. Çoxşaxəli fəaliyyət istiqamətləri və işgüzarlığı Mehriban Əliyevanın fəaliyyətinə nəzər salmaq üçün olduqca böyük əsaslar verir.**

### Liderlik fenomeni

**Azərbaycanın görkəmli yazıçısı Mircəlal Paşayevin ailə şəcərəsindən olan Mehriban Əliyeva peşəcə həkim, ətrafında baş vermiş hadisələrə laqeyd qalmayan ziyalı, ictimai-siyasi hadisələrə adekvat münasibəti olan dövlət adamıdır.**

*Ardı 5-ci səh.*



# İlham Əliyev məmurlara ciddi xəbərdarlıq etdi

## Prezident kadr islahatları aparanda, yenilik və dəyişikliklər edəndə ilk növbədə, xalqın maraqlarını nəzərə alır

Dövlət idarəçiliyi sistemini daim təkmilləşdirən Prezident İlham Əliyev postböhran dövründə də bu istiqamətdə islahatlarını davam etdirir.

Bütün islahatlar zamanı düşünülmüş, ölçülüb-biçilmiş addımlar atan Prezident İlham Əliyev ilk növbədə, xalqın və dövlətin maraqlarını, milli mənafeyini nəzərə alır. Cəmiyyətin islahatlara münasibətinə çox yüksək önəm verir və vətəndaşların proseslərlə bağlı nə düşünməsinə, hansı sahələrdə nədən razı və ya narazı olmasına xüsusi diqqət yetirir. Ona görə də ölkə ictimaiyyəti islahatçı Prezidentin bütün yenilik və dəyişikliklərini müsbət dəyərləndirir.

### Məmur daim vətəndaşın yanında olmalıdır

Fevralın 18-də Bakı şəhəri Nizami və Nərimanov rayonlarının, həmçinin Kürdəmir rayonunun icra hakimiyyətlərinin yeni təyin olunan başçılarını qəbul edərkən dövlət başçısı bir daha bütün məmurlara səsləndi: "Daim insanlarla təmasda olmalısınız, onların problemlərini onlardan eşitməlisiniz, laqeyd olmamalısınız. Yəni, bütün məmurlar qarşısında mənim tərəfimdən qoyulan vəzifələr bundan ibarətdir".

**İlham Əliyev onlara bir daha ciddi xəbərdarlıq etdi və qarşılarına mühüm tələblər, vəzifələr qoydu:**

- ilk növbədə, rayonlarda vəziyyət düzgün təhlil edilməlidir;
- mövcud olan nöqsanlar, çatışmazlıqlar araşdırılmalıdır;
- insanları narahat edən problemlər öz həllini tapmalıdır;
- icra başçısı həmişə insanlarla bir yerdə olmalıdır;
- insanlar icra hamimiyyəti başçısının qayğısını hiss etməlidirlər;
- insanları qıcıqlandıra biləcək addımlar atılmamalıdır;
- xalq icra başçılarının gördüyü işlərdən razı qalmalıdır;
- kim əyri yolla getsə, qanun qarşısında cavab verməli olacaqdır.

Bunun təkcə icra hakimiyyəti başçılarına deyil, bütün məmurlara aid olduğunu diqqətə çatdıran Prezident bəyan etdi ki, heç kim qanundan yuxarı ola bilməz. Qanun qarşısında hamı bərabərdir: "Dövlət məmurunun üzərinə düşən vəzifə və məsuliyyət onları dediyim prinsiplərə riayət etmələrinə sövq etməlidir. Əks təqdirdə onlar cəzalandırılacaq və artıq gördüyümüz işlər bunu təsdiqləyir. Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir. Ona görə bu məsuliyyəti dərk edərkən siz öz addımlarınızı da bu istiqamətdə atmalısınız".

### İdarəetmədə səmərəlilik olmalıdır

Ümumiyyətlə, son dövrlərdə dövlət idarəetmə sistemində həyata keçirilən struktur islahatları çərçivəsində müasir düşüncəli, milli maraqları əsas tutan kadrlara yüksək etimadın göstərilməsi, onların rəhbər vəzifələrə irəli çəkilməsi həm xalq, həm də beynəlxalq təşkilatlar tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilir.

İlham Əliyev hər zaman qeyd edir ki, kadr siyasətində şəxsi tanışlıq, rəğbət, dostluq əlaqələri yox, peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas götürülməlidir. Peşəkar, Vətənə bağlı olan, bilikli və Azərbaycanın maraqlarını layiqincə müdafiə edə bilən kadrlar önə çəkilməlidir.

Azərbaycanda dövlət idarəçiliyində müasir, kreativ düşüncəli kadrların irəli çəkilməsi ənənəsi hər zaman mövcud olub. Məhz İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsidir ki, artıq ölkədə bütün sahələrdə peşəkar kadr potensialı formalaşıb. Hazırda dövlət idarəetməsinin müxtəlif sferalarında bu potensialdan səmərəli istifadə etmək imkanları yaranıb.

Yeni dövlət idarəçiliyi tələblərinə cavab verən islahatlarla bağlı qətiyyətli mövqe ortaya qoyan Prezidentin kadr islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşmanı təmin etməkdir.

Son görüşdə Prezident bir daha bu məsələlərə toxundu və öz məsləhətlərini verdi, eyni zamanda əvvəlcədən xəbərdarlığını da etdi. İlham Əliyev bütün dövlət məmurlarını vəzifəyə təyin edərkən səsləndirdiyi tövsiyələri bir daha nəzərə çatdırdı.

Prezident növbəti dəfə yeni təyin etdiyi rayon icra hakimiyyəti başçılarını qəbul edərək onlara doğru istiqamət verdi və yeni kadrların fonunda digər məmurlara sərt xəbərdarlığını da etdi. Məsələ belə qoyuldu ki, əgər Prezidentin tapşırıqları layiqincə yerinə yetirilərsə, həm dövlət, həm də ölkə vətəndaşları onların fəaliyyətindən razı qalacaq. Yox, əgər bu etimad doğrulmasa, ilk növbədə cəmiyyətdə məyusluq yaradacaq. Ona görə də yeni təyin edilmiş icra başçıları rayonlarda vəziyyəti təhlil etməli, insanları narahat edən məsələləri ciddi araşdırmalı və onların həlli yolları ilə bağlı təkliflər hazırlamalıdırlar.

Göründüyü kimi, Prezidentin kadr islahatları davam edir. Bu, ölkə rəhbərinin mütərəqqi islahatlarının tərkib hissəsidir. Azərbaycanda kadr islahatlarına ehtiyacın olduğunu deyən İlham Əliyev bu prosesləri dəyərləndirərkən vurğuladı ki, islahatlar təkmilləşmə, yeni dövrə uyğunlaşma və tərəqqi deməkdir. Həqiqətən də dünya miqyasında yüksək uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz islahatlar və onların səmərəliliyi hesabına əldə edilib.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev bu gün kadr və struktur islahatları ilə daha çevik, operativ idarəçilik mexanizmi formalaşdırır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İqtisadi Şurada Azərbaycanda antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı geniş müzakirələr aparılıb



Xəbər verildiyi kimi, fevralın 17-18-də Baş nazir Əli Əsədovun sədrliyi ilə keçən Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclasında ölkədə antiinflyasiya tədbirlərinin gücləndirilməsi məsələsi əsas diqqət mərkəzində olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda dünya ərzaq bazarlarında məhsulların qiymətlərində kəskin bahalaşmanın ölkədə işgüzar fəallığa, əhalinin rifahına və alıcılıq qabiliyyətinə mənfi təsirinin qarşısının alınması məqsədilə təxirəsalınmaz antiinflyasiya tədbirlərinin gücləndirilməsi geniş müzakirə olunub.

Bu baxımdan Azərbaycanda inflyasiyanın iqtisadi fəallıq üçün məqbul səviyyədə saxlanılması, inflyasiyanın makroiqtisadi və maliyyə sabitliyi üçün xələl gətirməyən həddə qorunması, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla əhalinin sosial rifahına inflyasiyanın təsirlərinin minimallaşdırılması, daxili bazarda süni qiymət artımı üzərində monitorinqin gücləndirilməsi, sahibkarlar üçün güzəştli kredit və faiz subsidiyası mexanizmi məsələləri barədə müzakirələr aparılıb.

İclasda inflyasiyanın qarşısının alınması üçün makroiqtisadi siyasət və dövlət tənzimlənməsi tədbirləri, yüksək idxal inflyasiyasının məhdudlaşırılması üçün tədbirlər müzakirə olunub.

Minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsinin gücləndirilməsi, əhalinin istehlak etdiyi və emal sənayesində istifadə olunan əsas kənd təsərrüfatı məhsullarının istehsalının artırılması perspektivləri və proqnozları, o cümlədən bu kontekstdə çağırışlar müzakirə olunub.

Həmçinin qiymət artımı şəraitində əhalinin real gəlirlərinin və alıcılıq qabiliyyətinin qorunmasına yönəlmiş tədbirlər və Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə əməkhaqları, sosial ödənişlər və sosial dəstək tədbirlərinin artırılması xüsusi vurğulanıb. Bu sosial islahat paketinin 3,4 milyon insanı əhatə etdiyi və bu məqsədlər üçün əlavə 2,1 milyard manat dövlət vəsaitinin ayrıldığı bildirilib. İclasda sosial dəstək tədbirlərinin davam etdirilməsi, zərurət olduğu təqdirdə özünüməşğulluq və haqqıödənilən ictimai işlər proqramının əhatə dairəsinin daha da genişləndirilməsi və digər aktual məsələlər barədə geniş müzakirələr aparılıb və müvafiq tapşırıqlar verilib.

# Kürdəmir Rayon İcra Hakimiyyətinin yeni başçısı kollektivə təqdim olunub

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elxan Oqtay oğlu İbrahimov fevralın 19-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edib və dövlət başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

Elxan İbrahimov ona göstərilən etimada görə minnətdarlıq edib.

# YAP Mərkəzi Qərargahında müşavirə keçirilib

Fevralın 19-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında müşavirə keçirilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin, sözügedən şöbənin məsul əməkdaşlarının, habelə YAP Təftiş Komissiyasının, Veteranlar Şurasının, Gənclər Birliyinin, mətbu orqanlarının, Mərkəzi Aparatının rəhbər şəxslərinin və yerli təşkilat sədrlərinin iştirakı ilə keçirilmiş tədbirdə partiyada aparılmış islahatlardan sonra qarşıda duran strateji vəzifələr geniş müzakirə olunub.



Ölkə ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bütün sahələrdə olduğu kimi, ictimai-siyasi sahədə də aparılan islahatların şahididir. Yeni siyasi konfiqurasiyanın formalaşdırılmasını hədəfləyən bu islahatlar ölkədə həmrəylik mühitinin bərqərar olunması və siyasi münasibətlərin subyektləri arasında sağlam dialoqun formalaşdırılmasına xidmət edir. Qeyd olunan müşavirə ölkədə aparılan islahatların effektivliyinin təmin olunmasında YAP-ın üzərinə düşən vəzifələrin təhlilinə həsr olunub.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirədə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz sosial-iqtisadi sahədə böyük nailiyyətlər qazanmış, beynəlxalq müstəvidə nüfuzunu əhəmiyyətli dərəcədə artırmış, Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir. Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmiz yeni bir tarixi mərhələyə qədəm qoymuşdur. Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük strateq, Müzəffər Ali Baş Komandan və parlaq diplomat kimi bütün keyfiyyətlərini bariz şəkildə nümayiş etdirmişdir. Şanlı Qələbəmizin qazanılmasında ölkəmizdə milli birliyin, vətəndaş həmrəyliyinin təmin olunması əsas amillərdən biridir. Bu səbəbdəndir ki, müharibə dövründə Azərbaycan xalqı, cəmiyyəti, o cümlədən siyasi partiyaların mütləq əksəriyyəti Prezidentin ətrafında sıx birləşərək şanlı Qələbəmizin qazanılmasına nail olmuşdur. Bütövlükdə, Azərbaycanda yeni siyasi konfiqurasiya yaradılıb ki, bu amil ictimai-siyasi mühitdə sağlam münasibətlərin formalaşması ilə özünü ifadə edir.

YAP Sədrinin müavini ötən ilin mart ayında keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu qeyd edərək diqqətə çatdırıb ki, qurultayda partiyamızın Sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi YAP üzvləri qarşısında yeni vəzifələr müəyyənləşdirir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, partiyamızın və dövlətimizin daha da güclənməsinə xidmət edən mötəbər hadisədir.

Hazırda Azərbaycanın inkişafının yeni mərhələsinin başlandığını, qarşıda böyük vəzifələrin dayandığını deyən Tahir Budaqov söyləyib ki, Yeni Azərbaycan Partiyası bu vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi həyatında və siyasi münasibətlərinin demokratikləşməsi proseslərində aparıcı rolunu qorumalı və daha fəal mövqe tutmalıdır. Bu baxımdan, partiyamızın yeni Nizamnaməsi və Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev tədbir iştirakçılarını salamlayaraq öz giriş nitqini sahənin əsas strateji prioritetlərini müəyyən edən Prezident İlham Əliyevin sözləri ilə başlayıb: "Dövlət təşəbbüslərinin davamlılığı, çoxpartiyalı sistemin formalaşması, islahatçı kursa sadiqlik, ölkədə siyasi fəaliyyət üçün münbit şəraitin dəstəklənməsi, demokratik ənənələrin inkişafı və s. bu kimi strateji prioritetlərin icrası prosesində siyasi partiya və vətəndaş cəmiyyəti institutları fəal mövqe tutmalıdır".



Prezident İlham Əliyevin sözlərini şərh edərək Prezident Administrasiyasının rəsmisi bildirib ki, Azərbaycan Prezidentinin bu fikirləri, əslində, siyasi partiyalara və vətəndaş cəmiyyəti institutlarına bir çağırışdır. Bu cür yanaşma, eyni zamanda, konstruktiv əməkdaşlığa dəvətdir. Siyasi proseslərin subyektləri arasında daha təkmil və daha universal münasibətlər məhz sağlam və konstruktiv əməkdaşlığın nəticəsində formalaşa bilər. Bu mənada, partiyanın yerli təşkilatlarının səmərəli fəaliyyəti sayəsində siyasi dialoqla bağlı olan bütün təşəbbüslər bölgələrdə öz inkişafını tapmalıdır.

Daha sonra hər bir ölkənin strateji resursu hesab olunan siyasi sabitliyin qorunması zərurətindən söhbət açan Ədalət Vəliyev dayanıqlı inkişafın təmin olunması prosesində ölkədə yaranmış həmrəylik mühitinin inkişafına xidmət edən Prezident İlham Əliyevin önəmli təşəbbüsləri və əldə olunmuş nəticələr haqqında məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Ötən il martın 5-də keçirilmiş YAP-ın VII qurultayını xatırladan Prezident Administrasiyanın şöbə müdiri bildirib ki, sözügedən qurultay partiyanın inkişaf tarixinin mahiyyət etibarilə yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilməlidir. Belə ki, Prezident İlham Əliyevin islahatlar kursuna uyğun olaraq Yeni Azərbaycan Partiyasının fəaliyyətinin müasir çağırışlara uyğunlaşdırılmasının vacibliyini vurğulayan Ədalət Vəliyev bildirmişdir ki, peşəkarlıq, çeviklik, sadəlik, vətənpərvərlik və milli dəyərlərə sadiqlik hər bir partiya üzvünü səciyyələndirən əsas keyfiyyətlər olmalıdır.

Xüsusi olaraq vurğulanıb ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədrinin birinci müavini kimi fəaliyyəti də ölkəmizin və partiyamızın daha da güclənməsinə xidmət edəcəkdir. Ümumiyyətlə, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycanda savadlı, peşəkar və sağlam yeni nəslin formalaşmasına xidmət edən önəmli təşəbbüslərlə daim çıxış edir. Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin həssas təbəqələrinin problemlərinin həll edilməsi, zəngin mədəniyyətimizin, multikulturalizm ənənələrimizin təbliğ olunması, müxtəlif istiqamətlərdə yeni layihələrin reallaşdırılması ilə bağlı önəmli addımlar atır. Prezident İlham Əliyevin ən yaxın silahdaşı olan Mehriban xanım Əliyeva bütün varlığı və əzmkar fəaliyyəti ilə dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir.

YAP-ın ideoloji fəaliyyəti və bu fəaliyyətin strateji istiqamətlərindən söz açan Ədalət Vəliyev qeyd edib ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələndirilməsi və milli həmrəyliyin qorunması istiqamətində aparılan təbliğat işlərinin mərkəzində 44 günlük Vətən müharibəsində əldə olunmuş şanlı Zəfər durmalıdır. "İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan Ermənistanı məğlub etdi və işğala son qoydu. Əldə olunmuş Qələbənin nəticəsində Azərbaycan xalqı milli tarixinin ən möhtəşəm səhifəsini yaşayır" fikrini səsləndirən Administrasiyanın rəsmisi xüsusi olaraq vurğulayıb ki, Azərbaycan xalqının tarixinə yazılmış bu böyük Qələbə ilə bağlı qərəzli və məkrli informasiya manipulyasiyalarının qarşısı alınmalı, habelə xalqa qarşı olan bu cür xain hərəkətlər öz layiqli cavablarını almalıdır.

Eyni zamanda, vurğulanıb ki, partiyanın yerli təşkilatları tərəfindən qazi və şəhid ailələrinə xüsusi diqqət ayrılmalı və dövlətin mövcud istiqamətdə görülən işlərdə partiya üzvləri yaxından iştirak etməlidirlər. Qazi və şəhid ailələrinə göstərilən qayğı kontekstində Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "YAŞAT" Fondu və Qarabağ Dirçəliş Fondunun fəaliyyəti xüsusi olaraq qeyd edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Xalqın birinci xidmətçisi mənəm" sözlərini xatırladan Administrasiyanın şöbə müdiri bildirib ki, YAP-ın yerli təşkilatları cəmiyyətə açıq olmalı, onların rəhbərləri isə bölgələrdə öz ictimai-siyasi fəallığı ilə vətəndaşların rəğbətini qazanmalıdırlar. Bu mənada, təyin olunmuş yerli təşkilatların sədrləri müasir siyasi proseslərin bütün xüsusiyyətlərini nəzərə alaraq, öz açıq və demokratik yanaşmaları ilə yanaşı, mütləq olaraq fəaliyyətlərində ictimaiyyətlə əlaqələr məsələlərinə də xüsusi diqqət ayırmalıdırlar.

Müşavirədə qarşıda dayanan vəzifələrlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Birinci vitse-prezident Mehriban xanım Əliyeva - inam, etimad və sədaqət ünvanı

# İLHAM ƏLİYEV islahatlarının uğur simvolu



*Əvvəli 1-ci səh.*

## Heydər Əliyevin ideyalarına dərin inam

Məmnunluq hissi ilə qeyd edilməlidir ki, Mehriban xanım Əliyevanın müasir Azərbaycan iqtidarının ən parlaq nümayəndəsi olması tək Azərbaycanda deyil, hətta onun hüdudlarından kənarda da etiraf edilən həqiqətlərdəndir. Cəmiyyətimiz üçün yeni olan bir sıra təşəbbüs və layihələrin birbaşa onun adı ilə bağlı olması, onun rəhbərliyi altında həyata keçirilməsi və ölkəmizə mühüm dividendlər gətirməsi insanlarımız tərəfindən dərk edilir və yüksək qiymətləndirilir.

Heydər Əliyev ideyalarına sədaqət, onun dövlətçilik konsepsiyasına xas olan ideyalara bağlılıq hazırkı iqtidarın kadr potensialının başlıca xüsusiyyəti, onun səmərəli fəaliyyətinin əsas təminatı sayıla bilər. Ölkəmizdə ötən əsrin 90-cı illərinin ikinci yarısından etibarən ardıcıl olaraq qazanılan nailiyyətlər və qələbələr Heydər Əliyevin və İlham Əliyevin müdrik rəhbərliyi altında Ulu Öndərin ideyalarını dərindən mənimsəyən vətənpərvər siyasətçi və dövlət məmurlarının fədakar əməyinin nəticələridir. Dövlətə ləyaqətlə xidməti Heydər Əliyev ideyalarına sədaqət anlayışından ayrılıqda təsəvvür etməyən və edə bilməyən ictimai və siyasi xadimlərin ön sırasında Mehriban Əliyevanın xüsusi diqqəti cəlb etdiyi ayrıca qeyd olunmalıdır.

Mehriban xanımın Azərbaycan dövlətinə sədaqətlə xidmət göstərməsi Heydər Əliyev ideyalarına dərindən bağlılığını ifadə etdiyi kimi, onun Ulu Öndərin ideyalarına sədaqəti də eyni dərəcədə öz ifadəsini dövlətə yüksək ləyaqətlə xidmətində tapır. Hər iki halda mahiyyətcə eyni missiya həyata keçirilmiş olur: dövlətə xidmət Heydər Əliyevin ideyalarına sədaqəti ifadə edir və Ümummilli Liderin ideyalarına sədaqət dövlətə fədakarcasına xidmət anlamında qəbul edilir.

Deməli, Mehriban Əliyeva dönməz Əliyevçi olduğu qədər də qatı dövlətçidir və bu cəhətlər onun şəxsiyyətinin başlıca xüsusiyyətini göstərir.

Mehriban xanımın Heydər Əliyev ideyalarına dərindən bağlılığı onun bu ideyaların doğruluğuna, həyati gücünə, ölkənin, xalqın və dövlətin maraqlarından qaynaqlandığına inamından irəli gəlir, bu görkəmli siyasətçi, ictimai və dövlət xadiminin siyasi dünyagörüşünün nüvəsini təşkil edir. Azərbaycanın Birinci vitse-prezidentinin və Heydər Əliyev Fondunun prezidentinin həm ölkə daxilində, həm də beynəlxalq miqyasda möhtəşəm uğurlarının səbəblərini araşdırmağa çalışsaq, bu uğurların əhəmiyyətli dərəcədə məhz Ulu Öndərin siyasi irsinə dərin inamdan qaynaqlandığını söyləmək lazım gələr.

## Prezidentin ən yaxın sirdaşı və silahdaşı

Dövlətin iqtisadi qüdrətinin möhkəmləndirilməsinə, sosial həyatın inkişafına, mənəvi dəyərlərin qorunmasına ünvanlanmış çoxşaxəli fəaliyyət ölkəmizdə həyata keçirilən tarixi missiyanın ayrı-ayrı istiqamətləridir. Prezident İlham Əliyevin rəhbərliyi sayəsində həyatımızın transformasiyasının əsasını təşkil edən inkişaf və yüksəliş strategiyasının demək olar ki, hər sahəsində Mehriban Əliyevanın iştirakının pozitiv təsiri hiss olunmaqdadır. Bu iştirakçılığın Azərbaycanın yeni inkişaf səviyyəsinə yüksəlməsi naminə Prezidentin nümayiş etdirdiyi fədakarlıqların uğurla nəticələnməsinə mühüm dəstək olduğu hamılıqla etiraf olunmaqdadır.

Mehriban Əliyevanın birinci xanım kimi geniş fəaliyyəti ölkədə yeni siyasi və elita mədəniyyətinin formalaşmasında müstəsna rol oynadığı kimi, onun Birinci vitse-prezident kimi fəaliyyəti dövlət idarəçiliyi sisteminin yeni fəlsəfəsinin və praktikasının meydana gəlməsinə eyni dərəcədə həlledici təsir göstərməkdədir. Mehriban xanımın dövlət səlahiyyətlərinin icrası zamanı daim Prezidentin yanında olması, onu müşayiət etməsi cəmiyyətdə siyasi etimad və inamın əhəmiyyətli dərəcədə yüksəlməsinin mühüm şərtləri sırasındadır.

Bunu eyni zamanda iqtidarın, siyasi elitanın, bütünlükdə cəmiyyətin vəhdətinin və yekdilliyinin mühüm ifadəsi saymaq mümkündür. Ən başlıcası isə budur ki, müşahidə etdiyimiz yüksək həmrəylik və vəhdət idarəçiliyin daha da kamilləşməsinə, milli yüksəlişin və inkişafın təmin edilməsinə, bütünlükdə Azərbaycanın güc və qüdrətinin daha da artmasına xidmət göstərir.

Azərbaycan cəmiyyəti Mehriban Əliyevanın şəxsində Prezidentin ən yaxın, ən inanılmış siyasi sirdaşını və silahdaşını görür. Birinci vitse-prezidentin ictimai və siyasi xadim kimi böyük təcrübəsi, fəal ictimai mövqeyi, Azərbaycanın mədəni dəyərlərinə və tarixi irsinə dərindən bağlılığı, beynəlxalq əlaqələri və digər keyfiyyətləri onun daşıdığı vəzifənin statusunu daha əhəmiyyətli və əhatəli edir.

Birlik, həmrəylik bütün dövrlərdə və şəraitlərdə gücün, qüdrətin, yenilməzliyin simvolu və təcəssümü olmuşdur. Bu mənada haqqında söhbət etdiyimiz həmrəylik və vəhdətin Prezident İlham Əliyevin və onun rəhbərlik etdiyi iqtidarın əlavə güc mənbəyi olduğu etiraf edilə bilər və edilməlidir. Eləcə də Mehriban Əliyevanın cəmiyyətin və iqtidarın daxili vəhdətinin, milli həmrəyliyin möhkəmlənməsinə əhəmiyyətli töhfə verdiyi, onun bu xidmətinin hər bir Azərbaycan vətəndaşı tərəfindən qiymətləndirilərək təqdir edildiyi xüsusi vurğulanmalıdır.

## Humanizim və xeyirxahlığın böyük ünvanı

Mehriban Əliyevanı ictimai-siyasi xadim kimi səciyyələndirməli olsaq, ona xas olan çoxsaylı keyfiyyətlər arasında humanizm və xeyirxahlığı ayrıca qeyd etməliyik. Artıq neçə illərdir ki, cəmiyyətimiz onu humanizm və xeyirxahlığın böyük ünvanı olaraq tanıyır, qiymətləndirir və hörmət bəsləyir.

Bu və ya digər səbəblərlə əlaqədar köməyə ehtiyacı olan insanların Birinci vitse-prezidentə və Heydər Əliyev Fondunun prezidentinə müraciət etməsi bir növ adi hala çevrilib. Ən başlıcası isə, müraciət edənlərin demək olar ki, hamısına zəruri yardım göstərilir, onlar diqqət və qayğıdan kənarda qalmırlar. Minlərlə insan Mehriban Əliyevanın birbaşa müdaxiləsi və yardımı sayəsində şəfa tapıb, həyata qaytarılıb. Bundan da az olmayan sayda vətəndaşın təhsillə, digər problemlərlə əlaqədar müraciətləri həll edilib.

Beləliklə, Birinci vitse-prezidentin yüksək xeyirxahlığı on minlərlə insanımızı əhatə edən böyük humanizm hərəkatına çevrilib. Mehriban Əliyevanın nümunəsində humanizm və xeyirxahlığın insan xarakterinin və mahiyyətinin aparıcı keyfiyyəti olması özünün yüksək təsdiqini tapmaqla bərabər, insanlığın və insanpərvərliyin ali ifadəsi qismində özünü büruzə verir. İnsana əl uzatmaq, onun dərdinə şərik çıxmaq, düçar olduğu çətinliklərdən xilas olmaqda kömək göstərmək ali dəyərlərə sahib olan insanın özünütəsdiqinin yüksək məqamıdır.

Mehriban Əliyeva sonsuz xeyirxahlığı və humanizmi ilə xalqımıza xas olan, onu fərqləndirən mənəvi dəyərləri əks etdirir, onların müasir cəmiyyətin ən ümdə keyfiyyət müəyyənliyi səviyyəsinə yüksəlməsinə güclü təkan verir. Bu cəhət Birinci vitse-prezidentin və Heydər Əliyev Fondunun ölkəmizin hüdudlarını aşan xeyirxahlıq və humanizm fəaliyyəti nümunəsində daha qabarıq nəzərə çarpır.

Rəhbərlik etdiyi fondun xətti ilə zəlzələdən və xəstəliklərdən əzab çəkən ölkələrə yardımların göstərilməsi xalqımızın əxlaqi keyfiyyətlərinin və insani dəyərlərinin birbaşa təzahürü olmaqla, ölkəmizin təqdimatının ən gözəl nümunəsi rolunu oynayır.

Bütün dünyanı lərzəyə salan, milli səhiyyə sistemlərini sınağa çəkən COVID-19 pandemiyası dövründə Birinci vitse-prezident Mehriban Əliyevanın humanizm və qayğıkeşlik xüsusiyyətləri daha qabarıq şəkildə üzə çıxdı. Ölkəmizdə koronavirusa qarşı mübarizənin uğurlu təşkilində, ən qısa vaxtda əhalinin kütləvi sağlamlığının qorunması üçün bütün zəruri tədbirlərin görülməsində Mehriban xanımın xidmətləri ayrıca qeyd edilməlidir.

Prezident İlham Əliyevin birbaşa rəhbərliyi, Mehriban xanımın bilavasitə şəxsi iştirakı sayəsində Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizənin dünyada demək olar ki, ən yaxşı nümunələrindən biri təmin edildi, neçə-neçə insan amansız ölümün caynağından xilas ola bildi. Birinci vitse-prezidentin şəxsi fədakarlığı, humanizmi və qayğıkeşliyi sayəsində xalqımız dövlətimizin sosial siyasətinin əsl insani simasının bir daha şahidi oldu.

## Milli dəyərlərin etibarlı hamisi

Qloballaşmanın genişlənməsinin qaçılmaz olduğu müasir şəraitdə milli dəyərlərin qorunması cəmiyyətin ahəngdar inkişafının mühüm amili missiyasını yerinə yetirir. Texnoloji transformasiya, iqtisadi və ticarət əlaqələrinin genişlənməsi ilə yanaşı, humanitar əlaqələrin də dərinləşməsi getdikcə daha artıq dərəcədə milli dəyərləri sınağa çəkməyə başlayır və bu baxımdan milli dövlətlərin özlərinə məxsus mənəvi sərvətlərə sahib çıxması mühüm əhəmiyyət kəsb edir.

Mehriban Əliyevanın Azərbaycanın da yaxından qoşulduğu beynəlxalq inteqrasiya və qloballaşma şəraitində milli dəyərlərimizin sözün həqiqi mənasında fəal hamisi missiyasını öz üzərinə götürdüyünü söyləsək, yəqin ki, səhv etmərik. Onu da qeyd etmək yerinə düşər ki, onun təqdimatında milli dəyərlərin qorunması təkcə ölkədaxili fəaliyyət mahiyyəti daşımır, eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə təbliğatının vacib aspekti kimi təzahür edir. Nümunə kimi qeyd oluna bilər ki, onun yorulmaz, fədakar fəaliyyəti nəticəsində Azərbaycan muğamı və aşıq sənəti UNESCO-nun Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısında yer almışdır.

Mehriban xanımın təşəbbüsü ilə 2012-ci ildə İtaliyanın Roma şəhərində “Villa Borghese” parkında nəinki Azərbaycan və Şərq ədəbiyyatının, bütövlükdə dünya ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur.

2016-cı ildə Mehriban xanımın növbəti təşəbbüsü ilə Belçika Krallığının Vaterloo şəhərinin mərkəzi parkında Azərbaycanın görkəmli şairi Natəvanın postamentində “Şərqin müasir maarifçi və şair qadını Xurşidbanu Natəvan. Qarabağ şahzadəsi. Azərbaycan” sözləri yazılmış abidəsi, bir il sonra isə Fransanın Evian şəhərində heykəli ucaldılmışdır.

2016-cı ildə Fransada keçirilən “Nizami Gəncəvi və Məhsəti Gəncəvi: 12-ci əsrlə 21-ci əsri birləşdirən əbədi körpü” layihəsi çərçivəsində Konyak şəhərində dünya şöhrətli rübailər ustası Məhsəti Gəncəvinin heykəlinin qoyulması da Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində mümkün olmuşdur.

Onun mədəni dəyərlərin qorunması və təbliğatı sahəsində layihələri sırasında Azərbaycan muğamının inkişafına və tanıdılmasına xidmət edən Beynəlxalq Muğam Mərkəzinin, Müasir İncəsənət Muzeyinin, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyinin, açıq səma altında Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin, Qala qəsəbəsində Etno-Ekoloji Mərkəzin və Qala Əntiq Əşyalar Muzeyinin, habelə Zirə Mədəniyyət Mərkəzinin istifadəyə verilməsi xüsusilə qeyd edilməlidir.

Muğamın təbliği sahəsində həyata keçirilən möhtəşəm layihələr, mənəvi sərvətlərin toplanması və qorunması ilə bağlı işlər, işğaldan azad edilmiş Şuşada “Xarıbülbül” festivalının keçirilməsi və onlarca digər tədbirlər mənəvi dəyərlərimizin canlandırılmasında sözün həqiqi mənasında yeni tarixi mərhələ olmuşdur.

Göründüyü kimi, Birinci vitse-prezidentin çoxşaxəli fəaliyyətində milli dəyərlərin qorunması xüsusi məna və əhəmiyyət kəsb edir, dövlət siyasətinin milli yükünün artırılmasına böyük töhvə verilir. Bu isə hər şeydən əvvəl, Mehriban xanımın milli köklərə dərindən bağlılığından və aydın vətəndaş mövqeyindən qaynaqlanır.

## Qarabağa qayıdış: möhtəşəm qələbədən başlayan yeni yol

30 illik işğala son qoyulması, Qarabağın azad edilməsi Azərbaycanın tarixinə Prezident İlham Əliyevin yürütdüyü siyasətin təntənəsi, xalqımızın qəhrəmanlıq salnaməsi kimi daxil olmuşdur. Tarixi zəfər eyni zamanda xalqın və dövlətin həyatında yeni mərhələnin başlanğıcı sayılır. Qarşıda təkcə postmüharibə dövrünün reallıqlarına əsaslanan əzəmətli hədəflər deyil, həm də 30 il əvvəl Azərbaycan torpaqlarının əhəmiyyətli hissəsinin işğalına səbəb olmuş halların təkrarlanmasının qarşısının alınması zərurətindən irəli gələn vəzifələr dayanır. Cəmiyyətin yeni transformasiya qarşısında dayandığı nəinki dərk edilməli, həm də onun ən uğurlu şəkildə həyata keçirilməsi təmin edilməlidir. Möhtəşəm zəfərin beynəlxalq miqyasda Azərbaycanın gücü və qüdrəti, xalqımızın qırılmaz iradəsi ilə əlaqədar yaratdığı təəssürat postmüharibə dövrünün əzəmətli quruculuq işlərində və bütünlükdə yeniləşmə siyasətinin nəticələrində daha da möhkəmləndirilməli, ölkəmizin dünyaya yeni təqdimatının ifadəsinə çevrilməlidir.

Müharibənin başa çatmasından sonra Prezident İlham Əliyevin və Mehriban xanımın işğaldan azad edilmiş ərazilərə çoxsaylı səfərləri, erməni vandalları tərəfindən yerləyeksan edilmiş şəhər və kəndlərin yenidən qurulması ilə əlaqədar elan edilən planlar, Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı statusunun rəsmi şəkildə təsbit edilməsi, ölkəmizin və regionun gələcəyinə işıq salan prezident bəyanatları dövlətin və cəmiyyətin yaxın illəri əhatə edən gündəliyi haqqında təsəvvürləri artıq formalaşdırmışdır. Görünən budur ki, qarşıda duran əzəmətli vəzifələrin uğurla və bütünlüklə həyata keçirilməsi daha böyük fədakarlıq, daha böyük qətiyyət və daha böyük zəhmətdən keçir. Bir neçə ildən sonra nəinki xalqımız, eləcə də bütün dünya yeni reallıqların, Qarabağın tamam yeni mənzərəsinin şahidi olacaq.

Əvvəldə qeyd edildiyi kimi, Mehriban Əliyevanın Birinci vitse-prezident təyin edilməsindən 5 il ötür. Arxada böyük əmək və fədakarlıq, qarşıya çıxan problemlərə yeni yanaşmalar, qazanılan çoxsaylı əzəmətli uğurlarla müşayiət olunan zəngin irs var.

Vitse-prezidentlik təsisatının Azərbaycanın dövlət idarəçiliyində yeni forma olması nəzərə alınsa, qazanılan uğurlar, əldə olunan nailiyyətlər, yaradılan idarəçilik təcrübəsinin əzəməti daha aydın görünür. Bu sıraya cəmiyyətdə humanizm və xeyirxahlıq kimi dəyərlərin təbliğ edilməsi, mənəvi sərvətlərin qorunması, mədəniyyətin inkişafına qayğı, səhiyyə və sosial xidmətlər kimi sahələrin yenidən qurulmasına dəstək verilməsi, Azərbaycanın dünyaya təqdimatının ən gözəl nümunələrinin göstərilməsi və sair çoxsaylı böyük ictimai məna kəsb edən layihə və təşəbbüslər aid edilə bilər və aid edilməlidir.

Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsində fəaliyyətinin ən dəqiq qiyməti öz ifadəsini, heç şübhəsiz, insanların ona olan böyük hörmət və etimadında tapır. On minlərlə insan ona inanır, ehtiram göstərir, onun qayğıkeşliyinə etibar edir və pənah aparır. Etiraf edilməlidir ki, Birinci vitse-prezidentin ölkə başçısının əzəmətli tarixi nailiyyətlər və qələbələrlə müşayiət olunan siyasətinin həyata keçirilməsində xüsusi xidməti aydın görünməkdədir.

*Qarşıdakı illərdə ölkəmizin yüksəlişi naminə Prezident İlham Əliyevin həyata keçirdiyi tarixi missiyaya Mehriban Əliyevanın daha möhtəşəm və əzəmətli töhfələr verəcəyinə cəmiyyətimizdə dərin inam mövcuddur. Bu inam insanlarımızın gələcəyə baxışlarının ayrılmaz tərkib hissəsi sayıla bilər və düşünürəm ki, sayılmalıdır.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyasının Sədrinin müavini***



# Azərbaycan naminə şərəfli missiya

## Mehriban xanım Əliyeva böyük dayaq, mərhəmət və xeyirxahlıq örnəyidir

*Əvvəli 1-ci səh.*

### *Mütərəqqi islahatlar və ən doğru seçim*

Bu gün ölkəmizdə Birinci vitse-prezident Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası daha aydın görünür. Təsadüfi deyil ki, Mehriban Əliyevanın siyasi-ictimai fəaliyyəti təkcə ölkəmizdə deyil, həm də dünyada Azərbaycan qadınının obrazının formalaşmasında müstəsna rola malikdir.

Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib.

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il sərəncamına əsasən Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunmasından 5 il ötür. Bu kiçik dövrə ekskurs edib nəzər yetirsək, əlbəttə ki, ölkəmiz, xalqımız adına çox böyük işlərin görüldüyünə şahidlik etmiş olarıq.

2016-cı il ölkəmizin tarixinə dərin islahatlar ili kimi düşdü. Bu islahatların müəllifi isə dünyada gedən siyasi prosesləri düzgün dəyərləndirərək milli maraqlarımız naminə tam müstəqil siyasət yürüdən, Azərbaycanı Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan dövlətə çevirən Prezident İlham Əliyevdir. Məhz ən islahatçı Prezidentin təşəbbüsü ilə keçirilən ümumxalq referendumunda seçicilərin etimadı xalqın dövlət başçısına inamının əyani göstəricisi idi. Xalq İlham Əliyevin elan etdiyi islahatlar konsepsiyasına birmənalı dəstəyini nümayiş etdirdi.

Həmin ildə islahatların tərkib hissəsi kimi ölkəmizdə keçirilən ümumxalq referendumu ilə Konstitusiyaya dəyişikliklər edildi və Azərbaycanda yeni vitse-prezidentlik institutu yaradıldı. Eyni zamanda daha çevik idarəetmə mexanizmlərinin hüquqi bazası formalaşdırıldı. Yeni siyasi və iqtisadi islahatlar kursunun tərkib hissəsi olan dəyişikliklərin əsas mahiyyətini inzibati-hüquqi, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə keyfiyyət üstünlüyünü artırmaq, idarəçilik sistemini müasir çağırışlara cavab verən yönümdə təkmilləşdirmək təşkil edirdi.

Vitse-prezidentlik vəzifəsinin təsis edilməsinin məqsədi dövlət strukturlarının fəaliyyətində səmərəliliyin və çevikliyin yüksəldilməsini, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına nail olunmasını, məmur məsuliyyətinin gücləndirilməsini təmin etmək idi. Bu baxımdan cənab Prezident tərəfindən vitse-prezidentlik institutunun yaradılması təklifinin ciddi əsasları var idi.

Bu vəzifəyə Mehriban xanım Əliyevanın təyin edilməsi heç də təsadüfi deyildi. Çünki Mehriban Əliyeva həm Milli Məclisin deputatı kimi, həm də Heydər Əliyev Fondunun rəhbəri olaraq ölkə daxilində və beynəlxalq arenada mühüm layihələr həyata keçirirdi. Milli Məclisin deputatı olduğu zamanlar mütəmadi olaraq seçicilərlə görüşlər keçirir, onların qayğıları ilə maraqlanır, rəy və təkliflərini öyrənib, sosial problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görürdü. Seçicilərin dərin hörmət və rəğbətini qazanan Mehriban xanım Əliyeva parlamentdə dövlətimiz və xalqımızın maraqlarından çıxış edərək bir sıra vacib qanunların qəbul olunmasında yaxından iştirak edirdi. Bununla bərabər, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində həyata keçirdiyi layihələr bu istiqamətlərin inkişafına əvəzsiz töhfə verirdi. Həmçinin Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər beynəlxalq aləmdə böyük əks-səda doğurur, bu layihələr Azərbaycanın dünyadakı mövqeyini daha da möhkəmləndirir, ölkəmizin qədim mədəni-tarixi köklərə malik olduğunu sübuta yetirirdi.

### Yüksək səviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri

Vətəninə sonsuz sevgisi, milli-mənəvi dəyərlərə dərin hörməti, ölkənin ictimai-siyasi həyatındakı xidmətləri, xalqa olan tükənməz sevgisi onun ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdəndir. Bacarıqlı siyasi fəaliyyəti, yüksəksəviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri, humanist yanaşma tərzi sayəsində Mehriban xanım Əliyeva bu vəzifənin öhdəsindən ləyaqətlə gəlir.

Beş ildir ki, Birinci vitse-prezident vəzifəsində öz fəaliyyətini dövlətə, xalqa xidmət prinsipləri əsasında quran Mehriban xanım Əliyevanın bu dövrdə irəli sürdüyü və icrasına birbaşa rəhbərlik etdiyi layihələrin hər biri sosialyönümlüdür.

Prezident İlham Əliyevlə birgə Mehriban xanımın ölkənin inkişaf strategiyasının hazırlanmasında, həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində böyük əməyi var. Onun siyasi fəaliyyətinin kökündə humanizm dayanır. Mehriban xanım ölkənin sosial problemlərinin həllinə daha çox diqqət ayırır. O, hər zaman həssas əhali qruplarına qayğı ilə yanaşır, onların sosial ehtiyaclarının ödənilməsi üçün müxtəlif təşəbbüslər irəli sürür, bayramlarda, dövlətimiz üçün əlamətdar günlərdə onlara sovqatlar, hədiyyələr göndərilir.

İnsan yalnız həyatdakı əməlləri, xeyirxahlığı, gördüyü savab işlərlə əbədiyaşar olur, yaddaşlarda qalır, hafizələrdə iz buraxır, adı tarixə qızıl hərflərlə yazılır. Vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı, humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunəyə çevrilir.

Mehriban xanım da öz fəaliyyəti ilə Azərbaycan qadınının müsbət obrazını yaradıb. O, istər ölkə həyatında, istərsə də beynəlxalq səviyyədə gördüyü nəcib və humanist işlərlə Azərbaycanı bütün dünyada uğurla təmsil edir. Bu xeyirxah əməlləri ilə Azərbaycan qadını adını ucalara qaldırır. Onun beynəlxalq səviyyədə əldə etdiyi uğurlar həm də Azərbaycan qadınının uğurudur. Fəxarətlə deyə bilərik ki, bu gün Azərbaycan qadını UNESCO və ICESCO-nun xoşməramlı səfiridir. Bu gün Azərbaycan qadınının təşəbbüsü ilə müsəlman ölkələrində xeyriyyə aksiyaları keçirilir, müsəlman uşaqların təhsili və sağlamlığı ilə bağlı davamlı layihələr reallaşdırılır, xarici ölkələrdə məktəblər tikilir. Görülən bu işlər xeyirxah və tərəqqipərvər missiyanın bütün dünya insanlarına faydalı olmaq məqsədi daşıdığını göstərir və dünya insanının savadlanmasına xidmət edir. Bir sözlə, Mehriban xanımın timsalında Azərbaycan qadınının xeyirxahlıq, mərhəmət, insanpərvərlik nümunəsinə şahidlik edirik.

### Milyonların ümidi, pənah yeri

Bu gün bütövlükdə dünyanın, insanlığın bəlkə ən çox ehtiyac duyduğu məsələ xeyirxahlıq və mərhəmətdir. Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərməkdədir.

Bütün imkan və bacarığını insanların yüksək rifahı naminə humanitar proqramların reallaşmasına, Azərbaycanın dünyada sivil ölkə kimi tanınmasına yönəldən Mehriban Əliyeva həm də daim köməyə ehtiyacı olan insanların yanındadır.

İnsanlara bağlılığı onun daxilindən, mənəvi dünyasından, xoş münasibətindən irəli gəlir. Hər zaman elm, təhsil, səhiyyə sahələrində misilsiz xidmətlərinə, həmçinin xeyriyyəçilik xüsusiyyətlərinə görə Mehriban xanım Əliyeva xalqımızın qəlbində, yaddaşlarda, qayğıkeş, xoşməramlı məğrur Azərbaycan qadınının obrazını yaradıb. Çünki onun xidmətlərinin sevinci yüzlərlə insanın ömür səhifəsinə yazılıb, neçə-neçə ailəyə səadət bəxş edib, kimsəsizlərə həyat eşqi verib, onların qəlbində işıqlı sabaha inamı artırıb.

Mehriban xanım Əliyeva bu gün həm də valideyn himayəsindən məhrum olan uşaqların mənəvi anası, böyük dayağıdır. Harada yardıma möhtac biri varsa, o, Mehriban xanımın pənahındadır. Birinci xanım xeyirxah qəlbinin səsi ilə bütün qüvvəsini, zamanını təmənnasız olaraq insanların rifahı, xoşbəxt yaşamı uğrunda sərf edir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Prezidentindən sonra insanların ən çox müraciət etdiyi şəxs məhz Mehriban Əliyevadır. Bu, bir daha insanların Birinci vitse-prezidentə olan tükənməz sevgisinin, etibarının, inamının göstəricisidir.

Əlbəttə ki, bu xeyirxahlıqdan, nəcib əməllərdən, sosial layihələrdən danışarkən Mehriban Əliyevanın 2004-cü ildən bəri rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməmək mümkün deyil. Artıq 18 ildir ki, əsasında mərhəmət, şəfqət, xeyirxahlıq kimi ali dəyərlər dayanan Heydər Əliyev Fondu öz prinsiplərinə sadiq qalaraq, təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirir.

Ümumiyyətlə, Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Ulu Öndər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılıb. Xalqın milli-mənəvi dəyərlərini, tarixi kimliyini, milli özünəməxsusluğunu qoruyub saxlayan, həmçinin gələcək nəsillərə də ötürməyi bacaran Ulu Öndər Heydər Əliyev daim elmin, təhsilin, milli-mənəvi dəyərlərin böyük hamisi və qoruyucusu olmuşdur. Heydər Əliyev Fondu məqsədyönlü fəaliyyəti ilə hər zaman bu amala sadiqliyini nümayiş etdirir.

Əldə olunan çoxşaxəli uğurlarımızda fondun prezidenti Mehriban xanım Əliyevanın rolu danılmazdır. Ümummilli Liderin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan saf ideallarının ictimai şüurda möhkəmlənməsinə çalışan, xalqımızın gələcəyi naminə bir sıra əhəmiyyətli layihələri inamla həyata keçirən Heydər Əliyev Fondu milyonların ümid, pənah yerinə çevrilmiş, qarşıya qoyduğu vəzifələri lazımınca yerinə yetirmək iqtidarında olduğunu sübut etmişdir. Məhz fondun misilsiz xidmətləri nəticəsində Azərbaycan həqiqətləri bu gün dünya ölkələrində yayımlanır, ölkəmizin siyasi, ictimai, mədəni mənzərəsi yüksək səviyyədə təbliğ edilir.

Heydər Əliyev Fondu Azərbaycanın digər ölkələrlə dialoqunun genişləndirilməsinə də töhfəsini verir. Bu münasibət fondun beynəlxalq əməkdaşlığına gözəl imkanlar yaradır. Mədəni irsin qorunması üçün Heydər Əliyev Fondu bir sıra memarlıq abidələrini, o cümlədən Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Versal sarayını bərpa edib. Mehriban xanım Əliyeva müsahibələrinin birində belə deyir: “Fondumuz Parisdə on dördüncü əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan Orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək etmişdir. Mədəni və humanitar əlaqələrin qurulması ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Mədəni əməkdaşlıq bir-birimizi necə tanıdığımızı üzə çıxarır, bir-birimizin tarixini, mədəniyyətini, ənənələrini necə bildiyimizi göstərir”.

Azərbaycanın birinci xanımının genişmiqyaslı proqram və layihələri sırasında təhsil sistemini təkmilləşdirmək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək məqsədi də dayanır. Fondun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı təhsil sahəsində saysız nailiyyətlərə səbəb olub. Bu layihə çərçivəsində yüzlərlə məktəb, onlarca uşaq bağçası və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilib, təmir olunub, yüksək standartlarla təchiz edilib. Belə müasir məktəblər yeni üfüqlər açır, şagirdlər üçün yeni imkanlar yaradır. Onun “Təhsilə dəstək” layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir, hətta xarici dövlətlərdə belə elmə və təhsilə diqqət göstərir. Belə ki, fondun təşəbbüsü ilə Yəhudi Təhsil Mərkəzi, Fransız Məktəbi yaradılıb. Pakistanın Müzəffərabad şəhərində qızlar üçün yeni məktəb tikdirib. Hollandiyada, Gürcüstanda, Misirdə, Rusiyada və Rumıniyada məktəblər tikilib və ya təmir edilib.

Göründüyü kimi, Azərbaycanın birinci xanımının həyata keçirdiyi layihələr ölkə hüdudları ilə məhdudlaşmayıb, ümumbəşəri mahiyyəti ilə diqqəti cəlb edir. Birinci vitse-prezidentin xüsusən də Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları bəşəri ideallar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq miqyasda təqdir edilir.

Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Gənclərin sağlam şəraitdə böyüməsi, pis vərdişlərdən uzaq olması, ümumiyyətlə, ölkədə bədən tərbiyəsinin hərtərəfli inkişafı prioritet təşkil edir. Əminliklə deyə bilərik ki, dövlətimizin bütün dünyada tanıdılmasında, təbliğində Prezident İlham Əliyevin uğurla tətbiq etdiyi idman siyasətinin xüsusi yeri olub. Milli Olimpiya Komitəsinin və onun İcraiyyə Komitəsinin üzvü, həmçinin Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım Əliyeva da bu sahədə böyük işlər görüb, idman hərəkatının davamlılığına əvəzsiz töhfələr verib. Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, gimnastika üzrə dünya kuboku yarışlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi məhz onun adı və yüksək təşkilatçılıq keyfiyyətləri ilə bağlıdır. Təbii ki, bu cür beynəlxalq yarışlar ölkəmizə məxsus mədəniyyətin təbliğinə, idman ölkəsi kimi beynəlxalq miqyasda tanınmasına, beləliklə, ölkəmizə böyük turist axınına səbəb olub

Hamıya məlumdur ki, Azərbaycan COVID-19 virusu ilə mübarizədə nümunəvi ölkə olaraq bütün dünya dövlətləri tərəfindən təqdir olundu. Bu barədə hətta beynəlxalq təşkilatların iclaslarında da söz açıldı. Bu sahədə dövlət siyasəti ilə yanaşı, Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban xanımın xidmətləri danılmazdır. Qlobal pandemiya dövründə fond minlərlə ailəyə yardım etdi, kimsəsizə əl tutdu.

### Şəhid ailələri, müharibə əlilləri, məcburi köçkünlərin böyük dayağı

Birinci vitse-prezidentin fəaliyyətində ən mühüm məqamlardan, istiqamətlərdən birini, bəlkə də birincisini şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlərlə bağlı məsələlər təşkil edib.

Hər il, demək olar, bir neçə dəfə şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları, qəhrəmanlarımızın, igidlərimizin ailələri ilə görüşür, onların problemlərini dinləyir və yerindəcə həllinə nail olmağa çalışır.

Bu gün torpaqları azadlıqda olan keçmiş qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycan dövləti tərəfindən görülən bütün işlərdə Mehriban xanım Əliyevanın əməyi və diqqəti həmişə minnətdarlıqla qarşılanıb.

Hər il doğum gününü məcburi köçkünlərlə keçirən və həmin tədbirdə “Qarabağ şikəstəsini Qarabağda dinləmək” arzusunu ifadə edən Mehriban xanımın və xalqımızın arzusu çin oldu. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin əsl sərkərdəliyi ilə Azərbaycan Ordusu Qarabağı düşmən tapdağından azad etdi və mədəniyyətimizin paytaxtı Şuşa şəhərində ifa edilən Qarabağ şikəstəsi bütün Azərbaycana yayıldı.

Vətən müharibəsi zamanı Mehriban xanım Əliyeva güclü qadın kimi şəhid ailələrini ailəsi bildi. Qarabağ müharibəsində əlil olan oğullara qardaş dedi, hələ də övladlarının yoxluğuna inanmayan, gözü yolda qalan anaları bağrına basdı, onlara ana dedi, qarşılarında baş əydi. Onun böyüklüyü, əxlaqı, görüb-götürdükləri, ailə dəyərləri böyük ehtiram və məhəbbətlə qarşılanır.

Bu gün işğaldan azad olunan torpaqlarımızda erməni vandalları tərəfindən darmadağın edilmiş mədəni-dini abidələrimizin bərpası prosesi davam etdirilir. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Heydər Əliyev Fondu azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlayıb. Fondun təşəbbüsü ilə bu torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi və Zəngilan şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir. Eyni zamanda Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir.

Şuşada fond tərəfindən bəzi obyektlərdə aparılan bərpa işləri cəmi bir neçə aya başa çatdırılıb. 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vaqifin muzey-məqbərə kompleksinin yenidənqurma işlərindən sonra açılışı olub.

Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşada həyata keçirilən layihələrdən biri də görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışıdır. Üzeyir bəy Hacıbəylinin Şuşadakı heykəli 1985-ci ildə 100 illik yubileyi münasibətilə ucaldılmışdı. Heykəltaraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilib. Fondun dəstəyi ilə Üzeyir bəy Hacıbəylinin bürüncdən hazırlanan heykəli Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb və ötən il avqustun 29-da açılışı olub. Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb.

Üzeyir bəy Hacıbəylinin Şuşadakı ev-muzeyi də Heydər Əliyev Fondu tərəfindən bərpa olunur. Şuşa şəhərindəki Xalçaçılıq Qalereyası, mühüm tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksindəki təmir və bərpa işləri də Heydər Əliyev Fondu tərəfindən həyata keçrilib.

2021-ci il ərzində Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə bir sıra mədəniyyət tədbirləri də reallaşıb. “Xarıbülbül” festivalı, Vaqif Poeziya Günləri respublikamızın həyatında böyük mədəniyyət hadisəsinə çevrilməklə yanaşı, xalqımızın Vətən müharibəsindəki Zəfərini, Şuşanın qədim Azərbaycan şəhəri olduğunu dünyaya bəyan etdilər. Həmçinin Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Şuşada “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir”, “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” və “Yaddaş. Fotoqrafik tarix” sərgiləri də təşkil olunub. Bunlarla yanaşı, “Xarıbülbül” musiqi festivalı çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Ağdamda “Xarıbülbül” beynəlxalq incəsənət festivalı da keçirilib. İlk dəfə keçirilən festivalda 13 ölkəni təmsil edən 32 rəssam Vətən müharibəsində qazanılan tarixi Zəfərə həsr olunan nadir əsərlər ərsəyə gətiriblər. Layihənin əsas məqsədi müxtəlif ölkələri təmsil edən sənətkarlar vasitəsilə işğal altında olan ərazilərdəki dağıntının miqyasını, tarixi abidələrimizə, milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə, təbiətimizə qarşı qəsbkarlığı beynəlxalq auditoriyaya çatdırmaq olub.

Fevralın 13-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri çərçivəsində bu məsələyə toxunan dövlət başçısı dedi ki, bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir.

### Ən sadiq silahdaş

Xeyirxahlığına, yüksək bacarığına, diqqət və qayğısına görə hamının hörmətini, məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır. Onun fəaliyyət dairəsi çoxşaxəli olub, həyatımızın bütün sahələrinə dərindən nüfuz edib.

Bütün bu keyfiyyətlərin məcmusunu xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, Mehriban Əliyevanın müstəqil Azərbaycan dövlətinin yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezident İlham Əliyevin ən yaxın silahdaşı olmasıdır. Bu gün Azərbaycan qadını Mehriban Əliyeva ilə, onun nüfuzu ilə haqlı olaraq fəxr edir, ondan nümunə götürür.

Mehriban xanım Əliyevanın danılmaz xidməti, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban xanım Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafında çox böyük çəkiyə malikdir.

Bu gün Mehriban Əliyeva özünə xas olan yüksək işgüzar və mənəvi keyfiyyətləri, dərin təşkilatçılıq və idarəçilik qabiliyyəti ilə ona həvalə edilən vəzifəni layiqincə daşıyır, ölkədə həyata keçirilən siyasi kursun uğur qazanmasına mühüm töhfələr verir.

Təkcə Birinci vitse-prezidentin ötənilki fəaliyyətinə nəzər yetirsək, görərik ki, Mehriban xanım Əliyeva ölkəmizin yüksəlişinə və beynəlxalq nüfuzunun daha da artmasına necə böyük töhfələr verib.

Ötən il fevralın 11-də Birinci vitse-prezident ICESCO tərəfindən elan olunan “Qadınlar ili” çərçivəsində keçirilən “Qadınlar və qızlar elmdə” videokonfrans formatında tədbirdə çıxış edib. ICESCO-nu 2021-ci ilin “Qadınlar ili” elan etməsi ilə bağlı təşəbbüsünə görə təbrik edən Mehriban Əliyeva bildirib ki, bu, yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil, həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir.

Avqustun 26-da Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanın, Şüvəlan qəsəbəsində 12 saylı xüsusi internat məktəbinin yeni inşa edilən yataqxana korpusunun, Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçasının açılışlarında iştirak edib.

Sentyabrın 24-də Birinci vitse-prezident Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən 88 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub. Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev Fondunun fəaliyyətində prioritet sahələr sırasında elm və təhsilin inkişafı üzrə proqram və layihələr xüsusi yer tutur. Fondun 2014-cü ildən reallaşdırdığı “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramı bu sahədə mövcud problemlərin həllinə yönəlib. Heydər Əliyev Fondu qeyd olunan proqramı həyata keçirməklə bu istiqamətdə əhəmiyyətli töhfəsini verir. Proqram çərçivəsində təmirə ehtiyacı olan bağçaların yenidən qurulması və yeni bağçaların inşası həyata keçirilməkdədir.

Autizm spektr pozuntulu uşaqlar üçün Bərpa Mərkəzi 2013-cü ildən fəaliyyət göstərir. Lakin indiyədək mərkəzin özünün daimi yerləşdiyi binası olmayıb. Ötən ilin sonunda Bakının Nizami rayonunda Heydər Əliyev Fondu tərəfindən yeni inşa edilən Autizm Mərkəzinin istifadəyə verilməsi autizm spektr pozuntulu uşaqlar üçün əsl hədiyyə oldu. Mərkəzin ötən ilin son günündə keçirilən açılışında Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Göründüyü kimi, Birinci vitse-prezident Mehriban Əliyevanın ötən il həyata keçirdiyi fəaliyyəti həm çoxşaxəli, həm də məhsuldar olub. Bu fəaliyyətin təhlili göstərir ki, görülən bütün işlər, atılan addımlar yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

Əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın ötən 5 ildə göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir.

*Ötən beş ilin yekunları göstərir ki, Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi bundan sonra da fəaliyyəti ilə Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasına layiqli töhfələr verəcək.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Xalqa və dövlətə layiqli xidmət nümunəsi

*Əvvəli 1-ci səh.*

Rusiyanın "LIVEJOURNAL" nəşri Mehriban Əliyevanı Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirib: "Mehriban Əliyeva elə bir siyasətçidir ki, dünyanın hər yerində onun haqqında danışırlar və danışmaq istəyirlər. Heç şübhəsiz, Mehriban Əliyeva hazırda karyerasının zirvəsindədir. Lakin onun xarakterini, özünə inamını və son dərəcədə dözümlü olmasını nəzərə alaraq cəsarətlə deyə bilərik ki, kamilliyin son həddi yoxdur. Mehriban xanımın Azərbaycanda, Rusiyada və dünyanın digər ölkələrində inanılmaz dərəcədə populyarlığı əsl fenomendir".

Birinci xanımın bəşər mədəniyyətinə verdiyi töhfələr beynəlxalq səviyyədə ən yüksək dairələrdə etiraf edilir. Latviyanın sabiq prezidenti Valdis Zatlers Mehriban Əliyevanın fəaliyyətini və liderlik xüsusiyyətlərini belə qiymətləndirir: "Bakı müxtəlif humanitar, mədəniyyətlərarası və dinlərarası sammitlərin keçirildiyi məkana çevrilib. Birinci vitse-prezident Mehriban Əliyeva bu proseslərdə fəal və vacib rol oynayır. Mən Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumu yaxşı xatırlayıram. Bu forum 2008-ci ilin iyununda keçirilmişdi. Azərbaycanın Birinci vitse-prezidenti mədəniyyətlərarası dialoqun inkişafına böyük töhfə verir, eləcə də təkcə Azərbaycanda deyil, həm də bütün dünyada qadınları ruhlandırmaqla qadın liderliyinin parlaq nümunəsi kimi çıxış edir. Qlobal layihələrə, eləcə də təhsil, elm və mədəniyyətin inkişafına töhfələrinə görə Birinci vitse-prezident Mehriban Əliyeva Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qızıl medalı ilə təltif edilib". V.Zatlers əlavə edir ki, Mehriban Əliyeva nümunəsi qadınları ictimai həyatda fəal iştiraka təşviq edir və bu, mükəmməl nümunədir: "Azərbaycan dövləti qadın hüquqları sahəsindəki tarixi ilə qürur duya bilər. Birinci vitse-prezident Mehriban Əliyeva öz nümunəsi ilə Azərbaycanın ictimai və siyasi həyatında qadınların artan rolunu nümayiş etdirən görkəmli şəxsiyyətdir".

## Mehriban ƏLİYEVA: "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam"

Mehriban xanım Əliyevanın çoxsahəli fəaliyyəti əsası Heydər Əliyev tərəfindən qoyulan və hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən davam etdirilən dövlətçilik ənənələrinin, xalqa sədaqətlə xidmət etmək missiyasının böyüklüyündən xəbər verir. 2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi isə onun zəngin fəaliyyətinin və təşkilatçılıq bacarığının məntiqi nəticəsi kimi dəyərləndirilir.

Ümummilli Lider Heydər Əliyevin ölməz ideyalarına bütün varlığı ilə bağlı olan, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli daxili və xarici siyasətə layiqli töhfələrini verən Mehriban Əliyevanın Ulu Öndərin memarı və qurucusu olduğu Azərbaycan dövlətinin ali idarəetmə sistemində yüksək vəzifəni daşımasına çoxdan siyasi və mənəvi haqqı çatırdı. Xalqımızın milli mədəniyyətinin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında Mehriban Əliyevanın müstəsna xidmətləri onu cəmiyyətə mötəbər ictimai-siyasi xadim kimi tanıtmışdı.

Eyni zamanda Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmasının səbəbi böyük idarəçilik təcrübəsi və xalqının sevgisini qazanması ilə yanaşı, həm də ölkə Prezidenti İlham Əliyevin ən yaxın silahdaşı, yardımçısı, mənəvi dəstəkçisi olması ilə bağlıdır. Mehriban Əliyeva 2017-ci il fevralın 21-də Birinci vitse-prezident kimi ilk çıxışında demişdi: "Gündəlik fəaliyyətimizdə insanseverlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar. Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

Bu gün biz Mehriban Əliyevanın söylədiyi fikirlərinin real həyatda uğurla həyata keçirdiyinin şahidiyik. Azərbaycanın inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya, yeni öhdəliklər götürən Mehriban Əliyeva ötən müddət ərzində bu yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlət başçısı İlham Əliyevin və xalqımızın etimadını layiqincə doğrultmaqdadır. Bütün bunlar xalqa sədaqətlə xidmət etməyin bariz nümunəsidir.

Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin, şəhid ailələrinin, qazilərin problemlərinin həlli xüsusi yer tutur. O, Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı.

## Milli və dini dəyərlərə ehtiram nümunəsi

Azərbaycanın Vətən müharibəsindəki Zəfərindən sonra azad olunmuş torpaqlarımızın yenidən qurulması və Qarabağın ədəbi-mədəni ənənələrinin bərpası istiqamətində Mehriban Əliyevanın təşəbbüsləri onun vətən sevgisinin növbəti təcəssümü oldu.

Məhz Mehriban Əliyevanın təşəbbüsü ilə "Xarıbülbül" festivalının Şuşada təşkil edilməsi Azərbaycan multikultural dəyərləri ilə örnək bir ölkə olduğunu bütün dünyaya göstərdi. Bundan iki ay öncə isə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərində olarkən Molla Pənah Vaqifin dağıdılmış muzey-məqbərə kompleksində oldular. Artıq Heydər Əliyev Fondu bu kompleksə ikinci həyat verib. Heydər Əliyev Fondunun dəstəyi ilə dahi Azərbaycan şairi Molla Pənah Vaqifin yenidən qurulan büstünün açılışı olub. Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində Vaqif Poeziya Günləri yenidən təşkil olunub. Poeziya günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda: Qarabağın sənət inciləri" sərgiləri də reallaşdırılıb.

Bu yerdə Birinci vitse-prezidentin Vətən müharibəsinin ilk günlərində xalqa müraciətində ifadə etdiyi və hər birimizin ürəyini riqqətə gətirən sözlərini yada salmaq istəyirəm: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" Bu müqəddəs dua və arzu 44 gün ərzində öz təsdiqini tapdı. Doğma Qarabağımız Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsi, Müzəffər Ordumuzun qəhrəmanlığı, xalqımızın birliyi və həmrəyliyi sayəsində azadlığına qovuşdu. Bu gün isə azad torpaqlarımızda geniş quruculuq işləri aparılır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu işlərdə yaxından iştirak edir.

Heydər Əliyev Fondunun səyləri ilə 30 ildən artıq düşmən əsarətində qalan Qarabağın məşhur Topxana meşəsi də tezliklə öz əvvəlki görkəminə qayıdır. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində ağacəkmə aksiyası keçirilib. Xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkiblər. Bu aksiya ilə Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlərə start verib.

Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri ilkin layihəyə uyğun olaraq bərpa olunur. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır.

Mehriban Əliyeva işğaldan azad olunan torpaqlarımızdakı müxtəlif dinlərə məxsus abidələrə də eyni münasibətin sərgilənəcəyini bildirib: "Biz dağıdılmış şəhərləri və kəndləri bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik".

Vətən savaşından sonra ən mühüm hadisələrdən biri də Ali Baş Komandanın işğaldan azad olunmuş bölgələrə səfərləri oldu. Mehriban Əliyevanın Ali Baş Komandan İlham Əliyevlə birlikdə işğaldan azad olunmuş torpaqlara səfərlər etməsi Azərbaycanın qələbəsini dünyaya bəyan edən tarixi məqamlardır. Bu səfərlərlə Birinci vitse-prezident Azərbaycan qadınlarının qəhrəmanlıq və vətənpərvərlik, millətsevərlik, ana yurda, torpağa bağlılığını öz şəxsində dünyaya nümayiş etdirdi. Düşməndən azad olunmuş ərazilərimizdən çəkilmiş ilk görüntülərin xalqımıza çatdırılması və dağıdılmış məscidlərin ziyarət olunması Mehriban xanımın milli dəyərlərimizə yüksək həssas münasibətinin nümunəsi idi.

Vətən müharibəsindəki Zəfərdən sonra Ağdam məscidinin ziyarət olunması, Prezident İlham Əliyevin Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlaması xalqımıza xas yüksək amalların təntənəsi idi. Milyonlarla insanın ürəyində riqqətə və hörmətə səbəb olmuş bu səfəri ilə Mehriban Əliyeva xalqımızın ən ülvi arzularını Tanrı qarşısında dua etdi.




Ağdamla yanaşı, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan səfərlərindən sonra Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfərləri olduqca əhəmiyyətli idi. Dövlət başçısının 2021-ci ilin yanvarında Şuşaya etdiyi səfər isə Qarabağın əsl sahibinin kim olduğuna dair bütün dünyaya ünvanlanmış növbəti mesaj kimi qiymətləndirilməlidir. Mehriban Əliyeva deyir: "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir".

Bütün bunlar onu deməyə əsas verir ki, Mehriban Əliyevanın xalqımızın xoşbəxt, firavan yaşamasına, ölkəmizin davamlı inkişafına, dövlətçiliyimizin, milli dəyərlərimizin qorunması və möhkəmləndirilməsinə həsr olunmuş ömür kitabı gələcəyimizə işıq saçır, yolumuzu nurlu sabahlara aparır. Bütün bu fəaliyyətlərin, xoşməramlı, nəcib keyfiyyətlərin məcmusunu xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, Birinci vitse-prezidentin müstəqil Azərbaycan dövlətinin yaradıcısı Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezident İlham Əliyevin ən yaxın silahdaşı olmasıdır.

## Uşaqlara qayğı və şəfqət

Əvvəldə qeyd etdiyim kimi, Mehriban Əliyevanın fəaliyyətində sosial məsələlər prioritetdir və bunların sırasında uşaqlara qayğı xüsusi yer tutur. Məsələn, Mehriban Əliyevanın təşəbbüsü ilə hazırlanan və Heydər Əliyev Fondunun reallaşdırdığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində ölkə ərazisində 40-dan çox uşaq müəssisəsi əsaslı şəkildə yenidən qurulub, müasir avadanlıqla təchiz olunub, əlavə yardımçı binalar inşa edilib və kommunal şərait yaxşılaşdırılıb. Həmçinin bu proqram çərçivəsində uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün yaşayış binaları inşa olunub.

"Mənim arzum odur ki, Azərbaycanda hər bir uşaq xoşbəxt olsun. Ona görə də biz uşaqlarımızı, balalarımızı məhəbbətlə, hörmətlə, mərhəmətlə, diqqətlə böyütməliyik" - deyən Mehriban Əliyeva ölkənin gələcəyi olan hər bir uşağa öz övladı kimi yanaşır. Azərbaycanın Birinci vitse-prezidentinin təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində uşaq evlərinin, internat məktəblərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənliklərin təşkili unudulmaz və xoş ənənəyə çevrilib. Hər dəfə balacalar onların ən böyük himayədarı Mehriban Əliyevanın ətrafına toplaşırlar. Azərbaycanın Birinci vitse-prezidenti uşaqları bağrına basır, onların sevinc və fərəhini bölüşür, səmimi söhbətlər edir.

Heydər Əliyev Fondunun əksər layihələri, istər təhsil sahəsində, istər səhiyyə sahəsində məhz uşaqlara yönəlib. Mehriban Əliyeva bu layihələrə xüsusi can yandırır, ürəklə yanaşır. Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov qeyd edir ki, Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətində uşaqlara qayğı daim əsas yer tutub, onun başlıca qayəsini və məzmununu təşkil edib. Mehriban Əliyevanın uşaqlara sevgisi hüdudsuzdur. Uşaq evlərində yaşayan bütün uşaqlar bu sevgini və qayğını hiss edirlər.

Heydər Əliyev Fondu yarandığı gündən nəcib, xeyirxah və humanist insani dəyərlərə əsaslanaraq uşaqlara xüsusi diqqət və qayğını başlıca fəaliyyət istiqamətlərindən biri kimi seçib. Fondun bu istiqamətdə dövlətin fəaliyyətinə hərtərəfli dəstəyə əsaslanan dəyərli layihələri digər qurumlar üçün nümunə sayıla bilər. Fondun bu sahədə fəaliyyətinin əsas motivini insanlara sevgi və təmənnasız olaraq xeyirxah əməllər təşkil edir. Azərbaycanın Birinci vitse-prezidenti çıxışlarında bu fikri dəfələrlə vurğulayıb: "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin, onların problemlərinə biganə qalmayaq".

Beləliklə, cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilməklə, ümumxalq mənafeləri baxımından bir sıra strateji layihələri qısa müddətdə uğurla gerçəkləşdirən Heydər Əliyev Fondu 18 illik çoxşaxəli fəaliyyətində uşaqlara qayğı və diqqətə xüsusi önəm verir.

## Humanizm prinsiplərinə sadiqlik

Xeyirxahlığı və nəcibliyi ilə xalqımızın böyük ehtiram və məhəbbətini qazanmış Mehriban Əliyeva cəmiyyətimizdə humanizm ideallarının yorulmaz müdafiəçisi və təşəbbüskarı kimi şöhrət qazanıb. 2007-ci ildə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş, 2009-cu ildə Novruz bayramı münasibətilə, 2013-cü ildə Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi və 2016-cı ildə 28 May - Respublika Günü münasibətilə həyata keçirilmiş amnistiyalar Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılıb. Bu amnistiya aktlarının hazırlanması və parlamentdə qəbul edilməsi cəmiyyətimizin dərin rəğbəti ilə qarşılanıb.

Bu dörd amnistiya aktı 40 min 412 nəfərə şamil olunub. Fondun bu amnistiya təşəbbüsləri ölkəmizdə cinayət-hüquq siyasətinin liberallaşdırılması, cinayətkarlığın profilaktikası baxımından, o cümlədən məhkumların sayının azaldılmasına gətirib çıxaran vacib bir amilə çevrilib. Bu təşəbbüs ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasına da öz töhfəsini verib. Mehriban Əliyeva tərəfindən irəli sürülən bu təşəbbüslər Azərbaycan vətəndaşının hüquqlarının qorunması istiqamətində həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi və humanizm prinsiplərinin qorunub saxlanması kimi xarakterizə edilir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə elan olunan amnistiyalar minlərlə insanı azadlığa qovuşdurub, onların qayıtmasını həsrət və intizarla gözləyən ana-bacıların, övladların, ahıl valideynlərin hədsiz sevincinə səbəb olub, neçə-neçə ailələrə səadət, sevinc bəxş edib. Mehriban Əliyeva bildirir: "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, demək olar, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir. Bir dəfə səhv etmiş insanların bağışlanmaq hüququ var. Bu gün biz yenidən cəmiyyətdə öz yerlərini tutmaları, layiqli həyat yaşamaları üçün onlara şans verməliyik".

Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda həyata keçirdiyi humanizm siyasətinin vacib istiqamətlərindən biri cinayət törətmiş, lakin cinayətini etiraf etmiş və peşman olmuş şəxslərə qarşı humanizm, onların əfv edilməsi, bağışlanması olub. Məhz bu siyasətin davamı nəticəsində 1995-2021-ci illər ərzində əvvəlcə Heydər Əliyev, sonra isə İlham Əliyev tərəfindən 67 əfv fərmanı və sərəncamı qəbul edilib. Bu dövr ərzində parlamentdə 11 amnistiya qərarı qəbul olunub. Həmin amnistiya qərarlarından 4-ü Mehriban Əliyevanın təşəbbusu ilə qəbul edilib.

Hələ 2009-cu ildə Novruz bayramı münasibətilə Milli Məclisə amnistiya aktının qəbul olunması təklifini təqdim edən Mehriban Əliyeva sənədin qəbulu zamanı çox dəyərli fikirlər səsləndirmişdi: "Bu bir həqiqətdir ki, Allahın insana verdiyi ömür hər bir şeydən uca və dəyərlidir. Hər bir insan ləyaqətlə, azad yaşamağa layiqdir. Eyni zamanda hər bir insan öz ömrünün, taleyinin hökmdarıdır. Səhv etmiş, yolunu azmış insanlara həyatda yeni şans verməklə, onları bağışlayıb cəmiyyətə qaytarmaqla biz onlara yenidən həyatın, azadlığın dəyərini dərk etməyə, öz səhvlərini anlayıb doğru yola qayıtmağa kömək edirik. Mərhəmətlilik, genişqəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı hər zaman ən ali və insani keyfiyyətlər kimi qiymətləndirilib".

Bütövlükdə, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu özünün 18 illik fəaliyyəti dövründə insanpərvərlik və humanizm ideyalarını rəhbər tutaraq qayğı və yardıma ehtiyacı olan insanlara daim kömək edib. Mehriban xanımın təşəbbüsləri ilə amnistiya aktlarının qəbul olunması dövlətimizin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir. Əfv olunan vətəndaşlar isə dövlətin onlara olan inam və etibarını daim hiss edirlər və bu, onları layiqli vətəndaş olmağa həvəsləndirir. Eyni zamanda onlar əfv olunduqlarına, amnistiya edildiklərinə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildirirlər.

Vətən müharibəsində qazanılmış tarixi Zəfərin birinci ildönümü ilə bağlı bu Qələbənin memarı olan İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edilən və parlament tərəfindən qəbul olunan tariximizin ən böyük amnistiya aktının icrası da deyilənləri bir daha təsdiqləyir. Məhz şanlı Qələbənin birinci ildönümünü qeyd etdiyimiz zamanda belə bir təqdirəlayiq addımın atılması Ulu Öndər Heydər Əliyevdən başlayaraq ölkəmizdə həyata keçirilən humanizm siyasətinin uğurla davam etdirilməsinin göstəricisidir.

## Pandemiya dövründə uğurlu fəaliyyət

Dünyanı bürümüş koronavirus pandemiyası hələ davam edir. Fəxr hissi ilə deməliyik ki, respublikamızda həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan pandemiyanın ilk və olduqca təhlükəli mərhələsindən ən az itkilərlə çıxan dövlətlər sırasında yer aldı. Məqsədyönlü karantin tədbirləri sayəsində koronavirusun yayılmasının qarşısı alındı, pandemiyaya qarşı effektiv müqavimət strategiyası hazırlanıb həyata keçirildi.

Pandemiya ilə mübarizə dövründə də ölkəmizin birinci xanımı öz missiyasına, amalına sadiqliyini bir daha nümayiş etdirdi. Mehriban Əliyeva iki dəfə xalqa müraciət edərək hər kəsi "gözəgörünməz düşmən"lə mübarizədə birlik, həmrəylik nümayiş etdirməyə çağırdı. Bu müraciətlərin birində Birinci vitse-prezident deyib: "Bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırıram. Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir. Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir. Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik".

Mehriban Əliyeva öz müraciətlərində xalqımızın ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət kimi gözəl xüsusiyyətləri sayəsində bu ciddi çağırışın öhdəsindən gələ biləcəyinə əminliyini vurğulayırdı. Bu müraciətlərdə olunan çağırışlar pandemiya dövründə hər bir vətəndaşımızın ürəyindən keçən çağırışlar idi.

Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu karantin müddətində "Biz birlikdə güclüyük" şüarı ilə xeyriyyə aksiyaları keçirdi. Fond tərəfindən aztəminatlı ailələrin sosial ehtiyaclarının qarşılanması, onların ərzaq və tibbi ləvazimatlarla təminatı üçün mühüm işlər görüldü. Bu aksiyalar çərçivəsində 200 mindən çox ailəyə ərzaq məhsullarından ibarət sovqatların paylanılması bir daha Mehriban Əliyevanın nəcib missiyaların daşıyıcısı olduğunu nümayiş etdirdi.

Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Fond daim himayəsində saxladığı sosial müəssisələrə də dəstək göstərdi. Mehriban Əliyevanın tapşırığına əsasən, fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzə, eləcə də Bakıdakı və regionlardakı psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar edildi.

Pandemiyanın ən ağır dövründə fond müvafiq koronavirusun aşkar edilməsi üçün laboratoriyaların fəaliyyətinin qısa müddətdə təşkilinə, eyni zamanda ölkəmizin yüksəkkeyfiyyətli testlərlə təmin olunmasına da yaxından dəstək göstərdi. Xüsusi rejimli xəstəxanalar üçün bir sıra tibbi avadanlıq və ləvazimat - həm qoruyucu vasitələr, tibbi geyimlər, həm də xəstələrin müalicəsi üçün müxtəlif dərman preparatları xaricdən alınaraq Azərbaycana gətirildi.

Həmçinin pandemiya ilə mübarizədə iştirak edən tibbi personal üçün təlim kursları təşkil edildi. Həmin personala dəstək məqsədilə Çin, İtaliya və Rusiyadan yüksəkixtisaslı həkimlər dəvət edildi, onların azərbaycanlı tibb heyəti ilə birgə çalışmaları üçün şərait yaradıldı.

Mehriban Əliyevanın təşəbbüsü ilə COVID-19 səbəbindən talassemiya, hemofiliya və leykoz xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün qanvermə aksiyası təşkil olundu. Virusa ağır dərəcədə yoluxmuş bir çox şəxslərə Mehriban Əliyevanın tapşırığına əsasən, dəstək göstərildi və onlar zəruri müalicə alaraq sağaldılar.

Mehriban Əliyeva pandemiya dövründə insanların ümid yerinə, pənahına çevrildi.

Bütün bunlar Azərbaycanın Birinci vitse-prezidentinin nəcibliyinin ali nümunələridir.

## Mədəniyyətimizin hamisi

Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunub saxlanmasıdır. Ölkəmizdə hər zaman mədəniyyətin inkişafına dövlət qayğısı davamlı olub. Digər sahələrdə olduğu kimi, Ulu Öndər Heydər Əliyevin banisi olduğu uğurlu mədəniyyət siyasəti də özünün müsbət bəhrələrini verib. Ulu Öndərin ölməz ideyaları və onların Prezident İlham Əliyev tərəfindən həyata keçirilməsi ölkəmizin mədəni həyatında baş verən köklü dəyişikliklərin, böyük yüksəlişin əsasını təşkil edib.

Azərbaycan mədəniyyəti hazırda yeni islahatlar dövrünü yaşayır. Bu sırada Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən proqram və layihələr Azərbaycan mədəniyyətinin qorunmasına və dünyada təbliğ olunmasına layiqli töhfələr verir. Mehriban Əliyevanın təşəbbüsləri ilə fond tərəfindən Azərbaycanın zəngin və tolerant tarixi irsinin, tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün ölkədə sistemli fəaliyyət təmin olunub. Bu baxımdan çox haqlı olaraq Heydər Əliyev Fondunun mədəniyyət sahəsində fəaliyyəti ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və Mehriban Əliyeva həm də Azərbaycan mədəniyyətinin hamisi kimi qəbul olunur.

*Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti haqlı olaraq hər bir azərbaycanlının qürur mənbəyidir. Çünki bu fəaliyyət Azərbaycanın yüksəlişinə, mədəniyyətimizin qorunmasına və təbliğinə, dövlətimizin sosial siyasətinin daha böyük uğurlar qazanmasına layiqli töhfələr verir.*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Daim xalqın yanında

*Son illər respublikamızda həyata keçirilən islahatlarla, mühüm nailiyyətlərlə yanaşı, həm də yeniliklərlə əlamətdardır. Bu sırada hələ bir neçə il əvvəl Konstitusiyaya edilən dəyişikliklər, dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi və vitse-prezidentlik institutunun yaradılması ölkəmizin tarixində mühüm siyasi yenilik oldu.*

Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə Mehriban Əliyevanın respublikamızın Birinci vitse-prezidenti təyin edilməsi isə ölkə vətəndaşlarının dərin rəğbəti ilə qarşılandı.

Bu da səbəbsiz deyildi. Çünki insanlar ölkəmizin birinci xanımından buna qədər daşıdığı bütün siyasi və ictimai statuslarda xalqa, dövlətə yüksək xidmət məramının şahidi olmuşdular. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, parlamentin dostluq qrupunun sədri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, Gimnastika Federasiyasının prezidenti kimi vəzifələrdə Mehriban Əliyeva Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial, iqtisadi, mədəni, humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına böyük töhfələr vermişdi. Bu çoxşaxəli fəaliyyət bütün məziyyətləri ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycanın gələcəyinə yönəlmiş ideallarının reallaşmasına xidmət edirdi. Ona görə Azərbaycan ictimaiyyəti Prezident İlham Əliyev bu sərəncamı imzaladığı zaman əmin idi ki, Mehriban Əliyeva ona həvalə olunan bu vəzifənin də öhdəsindən layiqincə, şərəflə gələcək, idarəçiliyin və xalqa xidmətin ən gözəl yeni nümunələrini yaradacaq. Ötən 5 ilin reallıqları bunu təsdiq edir.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi dövlətimizə və xalqımıza layiqincə xidmət edəcəyi, Azərbaycanın daha da çiçəklənməsinə öz töhfələrini verəcəyi, xüsusən yenə də sosial qayğıya ehtiyacı olan insanların yanında olacağı fəaliyyətə başladığı ilk günlərdən aydın idi. Təsadüfi deyil ki, Mehriban Əliyevanın Birinci vitse-prezident kimi ilk diqqət yetirdiyi məsələ yataqxanalarda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi, əlilliyi olan şəxslərin sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiya məsələləri oldu, bu istiqamətlərdə qısa müddətdə mühüm tədbirlər həyata keçirdi.

Mehriban Əliyeva bu gün də sosial qayğıya, köməyə ehtiyacı olanların yanındadır. Təsadüfi deyil ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu şəfqət, mərhəmət ünvanı kimi tanınır. Fondun xətti ilə xəstəxanaların inşası və yenidən qurulması, bir sıra xəstəliklərdən əziyyət çəkənlərin müalicəsinə dəstək göstərilməsi dövlətimizin sosial siyasətinə mühüm töhfələrdir.

Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın bu istiqamətdə fəal vətəndaşlıq missiyasını pandemiya dövründə bir daha yaxından gördü. Bütün dünyanı sınağa çəkən pandemiyaya qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi zamanı Azərbaycan ictimaiyyəti Birinci vitse-prezident Mehriban Əliyevanın əsl vətəndaşlıq missiyasının şahidi oldu. Məhz Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu pandemiyanın ilk günlərindən ölkədə sosial aksiyaların həyata keçirilməsinə başladı. Koronavirus infeksiyasına qarşı mübarizə ilə bağlı xalqımıza müraciəti, eləcə də rəsmi sosial şəbəkə hesabı vasitəsilə səhifəsində etdiyi paylaşımlar Mehriban Əliyevanın vətəndaşlarımızın sağlamlığı ilə bağlı həssasiyyətinin təcəssümü idi. Həmçinin Mehriban Əliyevanın koronavirusun yayılmasının qarşısının alınması, yoluxanların müalicə edilməsi ilə əlaqədar həkimlərimizin səylərini və fədakarlıqlarını yüksək qiymətləndirməsi tibb işçilərini gözəgörünməz düşmənlə mübarizəyə daha da səfərbər etdi.

Mehriban Əliyeva Birinci vitse-prezident təyin olunduqdan sonra yüksək vətənpərvərlik nümayiş etdirərək 2016-cı ilin Aprel döyüşlərinin qazilərinin protezlərlə təmin olunması üçün mühüm layihə həyata keçirdi. Ölkə icitmaiyyəti Mehriban Əliyevanın malik olduğu yüksək vətənpərvərliyə Vətən müharibəsi zamanı bir daha şahidlik etdi. Müharibə günlərində və ondan sonra Mehriban Əliyeva şəhid analarının yanında oldu, qazilərimizin şəfqət alması üçün əlindən gələni əsirgəmədi. Müharibədən sonrakı günlərdə də ağır yaralanmış neçə-neçə igid oğlumuz məhz Mehriban Əliyevanın dəstəyi ilə Türkiyədə müalicə olunaraq normal həyata qayıtdı.

Ötən 5 ilin reallıqları göstərir ki, Birinci vitse-prezident Mehriban Əliyeva tarixin, zamanın, dövlətimizin onun üzərinə qoyduğu bu məsul vəzifəni çox böyük ləyaqətlə, mühüm nailiyyətlərlə həyata keçirir. Mehriban Əliyevanın fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayaraq dövlətimizin və xalqımızın yüksəlişinə xidmət edir. Bu şərəfli yolda Mehriban xanım Əliyevaya yeni nailiyyətlər arzu edirik.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***



# Uğurlu 5 il

Fevral ayının 21-də Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasının 5 ili tamam olur. Əlbəttə, 5 il uzun zaman kəsiyi sayıla bilməz. Lakin bu dövrün reallıqları, şahidi olduğumuz hadisələr təsdiq edir ki, 2017-ci ilin fevralından ötən müddəti Mehriban Əliyevanın uğurlu hesabat dövrü kimi nəzərdən keçirmək üçün böyük əsaslar var.

Öncə onu qeyd etmək istərdim ki, Birinci vitse-prezidentlik dövlət idarəçiliyinin ali postlarından biridir. Ona görə bu vəzifədə təmsil olunacaq şəxsin də ali keyfiyyətlərə, xüsusi bacarıq və qabiliyyətə, o cümlədən yüksək milli-mənəvi dəyərlərə malik olması vacib tələblərdəndir. Ən əsası, bu vəzifəni daşıyan şəxsin vətəndaşların etimad göstərdiyi insan olması da mühüm meyardır. Bu baxımdan hələ Prezident İlham Əliyevin sərəncamı ilə Birinci vitse-prezident təyin olunana qədər Mehriban Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyət göstərirdi ki, qeyd edilən bütün yüksək və mənəvi keyfiyyətlərin hər biri Mehriban Əliyevanın şəxsiyyətində, xarakterində əksini tapıb.

Mehriban xanım Əliyeva ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xətti ilə genişmiqyaslı, sistemli, ardıcıl layihələrlə milli mədəniyyətimizi bütün dünyada təbliğ edib. 2004-cü ilin may ayından fəaliyyətə başlayan və hazırda regionun ən böyük və nüfuzlu ictimai təşkilatlarından birinə, insanların pənah ünvanına çevrilmiş Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban Əliyeva həm dövlətimiz və həm də dünya mədəniyyəti və incəsənəti üçün tarixi əhəmiyyət daşıyan proqramlar, layihələr gerçəkləşdirib. Bu proqram və layihələrin nəticələrindən Azərbaycanla yanaşı, dost dövlətlər, milyonlarla insan faydalanıb və indi də bu işlər davam edir.

Mehriban xanım Əliyeva həmçinin böyük xeyriyyəçi kimi də tanınıb. Heydər Əliyev Fondunun pənah ünvanı kimi tanınması da məhz buna görədir. İnsanlara yaxşılığı, ehtiyacı olanlara qayğı göstərməsi, əl tutması Mehriban Əliyevanın fəaliyyətinin kredosudur. Ümumiyyətlə, yalnız fərdi şəkildə edilən köməklər deyil, 2004-cü ildən bəri respublikamızda uşaq evlərinin, internat məktəblərinin, xəstəxanaların tikintisi, talassemiyalı və diabetli xəstəliklərdən əziyyət çəkənlər üçün müxtəlif layihələrin həyata keçirilməsi də Prezident İlham Əliyevin sosial siyasətinə verilən böyük dəstəklə yanaşı, Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyətinin bir istiqamətidir.

2005-ci, 2010-cu və 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilən Mehriban xanım Əliyeva həm də millət vəkilliyinin ən gözəl nümunələrini yaradıb. Təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə seçicilərinin dərin sevgisini qazanan Mehriban Əliyeva həmçinin Milli Məclisin müzakirəsinə təqdim etdiyi qanun layihələri ilə Azərbaycan qanunvericiliyinin təkmilləşməsində fəal iştirak edib. Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri də onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq 2007-ci ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 84 illiyi, 2009-cu ildə Novruz bayramı, 2013-cü ildə Heydər Əliyevin 90 illik yubileyi və 2016-cı ildə Respublika Günü münasibətilə amnistiya aktlarının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. Milli Məclisdə təsdiq olunan bu nəcib təşəbbüslərin hər biri xalqımız tərəfindən geniş ictimai dəstək alaraq, böyük mənəvi-əxlaqi və siyasi məzmun daşıyıb.

Bütün bunlar göstərirdi ki, Mehriban xanım Əliyeva öz siyasi və ictimai fəaliyyəti ilə Birinci vitse-prezident vəzifəsinə ən layiqli namizəddir. Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının 2017-ci il 21 fevral tarixdə keçirilən iclasında bu barədə dediyi kimi: “Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır. Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb”.

Ölkə vətəndaşlarının böyük sevinc və rəğbətlə qarşıladıqları bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı olmaqla ölkədə yeni bir tarixi reallığın başlanğıcını qoydu. Bu reallığın xarakterini və Azərbaycanın gələcəyi üçün yaratdığı möhtəşəm perspektivləri isə təbii ki, əvvəldə qeyd etdiyim kimi, Birinci vitse-prezident Mehriban Əliyevanın mənəvi keyfiyyətləri, xalqa və dövlətə olan sevgisi, indiyə qədər daşıdığı bütün vəzifələrdə cəmiyyətimizə və ümumən bəşəriyyətə qazandırdığı nailiyyətlər təyin edir. Bütün bunların nəticəsi olaraq artıq 5 ildir ki, Mehriban Əliyeva eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti kimi öz potensialını daha geniş şəkildə səfərbər edərək, dövlətimizə xidmət etməyin yeni bir örnəyini ortaya qoyur. Özünə xas olan yüksək işgüzarlığı və mənəvi keyfiyyətləri, dərin təşkilatçılıq və idarəçilik qabiliyyəti ilə Mehriban xanım Əliyeva bu müddətdə ona etimad göstərilən bu ali postu layiqincə daşıyıb, həvalə olunan vəzifələri əzmlə yerinə yetirib və yetirməkdədir.

Mehriban Əliyeva Birinci vitse-prezident kimi fəaliyyətini ilk gündən sosial sahəyə yönəldib. Ötən müddətdə Mehriban Əliyevanın təşəbbüsləri ilə müharibə əlillərinin sosial qayğılarının həlli, keçmiş məcburi köçkünlərin yeni evlərlə təmin olunması ilə bağlı həyata keçirilən layihələr cəmiyyətimizin dərin rəğbəti ilə qarşılanıb. Ölkəmizin evsahibliyi etdiyi beynəlxalq tədbirlərin layiqincə keçirilməsi, orta məktəblərin, uşaq bağçalarının, mədəniyyət ocaqlarının təmiri və yenidənqurulması, koronvirusla əlaqədar əhalinin aztəminatlı hissəsinə davamlı şəkildə dəstək göstərilməsi, Heydər Əliyev Fondu tərəfindən yeni inşa edilən Autizm Mərkəzinin istifadəyə verilməsi və digər tədbirlər Mehriban Əliyevanın dövlətimizin və xalqımızın mənafelərinə xidmət edən fəaliyyətindən xəbər verir.

44 günlük Vətən müharibəsi günlərində Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın timsalında vətəni sevməyin, vətənpərvərliyin nümunəsini gördü. Vətən müharibəsi günlərində Mehriban Əliyeva yaralı hərbçilərimizin müalicəsini şəxsi nəzarətinə götürdü, Heydər Əliyev Fondunun xətti ilə onların bir qismi Türkiyəyə müalicəyə göndərildi. Hazırda məhz Mehriban Əliyevanın təşəbbüsləri ilə, Heydər Əliyev Fondunun xətti ilə Qarabağın və Şərqi Zəngəzurun tarixi abidələrinin bərpası ilə bağlı layihələr həyata keçirilməkdədir. Xüsusən Şuşada həyata keçirilən bərpa işlərində, Heydər Əliyev Fondunun fəaliyyəti misilsizdir və bütün bunlar, ilk növbədə, Mehriban Əliyevanın vətənpərvərliyinin təcəssümüdür.

Praqmatiklik, kreativlik, yüksək erudisiya, humanizm kimi ali keyfiyyətlərə malik olan, milli köklərimizə, bəşəri ideyalara daim sadiq qalan respublikanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Vətənimizin və xalqımızın taleyində bundan sonra da müstəsna rol oynayacaq. Mehriban Əliyeva öz fəaliyyəti ilə Prezident İlham Əliyevin siyasi kursuna daim yeni töhfələr verəcək, ona göstərilən etimadı ən yüksək səviyyədə doğruldacaq.

***Novruzəli ASLANOV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

# Vətən və xalq sevgisinin təcəssümü

*Xalqımızın ən gözəl müqəddəs dəyərlərinin daşıyıcıları olan Azərbaycan qadınları tarixən ictimai fəaliyyət baxımından fəallıq nümayiş etdirmiş, dövlətimizin və xalqımızın siyasi, iqtisadi və mədəni həyatına böyük töhfələr vermişlər. Bu gün də Azərbaycan qadını özünün yüksək intellekti, işgüzarlığı ilə fərqlənir, cəmiyyətimizin yüksəlişinə xidmət edən proseslərdə yaxından iştirak edir.*

Bu baxımdan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti Azərbaycan qadınlarının işgüzarlığının və vətənpərvərliyinin ən gözəl nümunəsi və təqdimatıdır. Mehriban Əliyeva indiyədək təmsil olunduğu bütün platformalarda Azərbaycan qadınının timsalında xalqa xidmət missiyasının ən möhtəşəm nümunələrini yaradıb. Mehriban Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun həyata keçirdiyi tədbirlər bütün dünyada mədəniyyətimizi uğurla təbliğ edib. Heydər Əliyev Fondu artıq 18 ildir ki, ümid və pənah ünvanı kimi tanınır, Azərbaycan həqiqətlərini əzmlə dünyaya çatdırır, milli mədəniyyətimizin qorunmasına töhfələr verir, uşaq evlərinin, internat məktəblərinin, uşaq bağçalarının yenidən qurulmasında yaxından iştirak edir.

2005-2017-ci illərdə Milli Məclisin deputatı olan Mehriban Əliyevanın parlamentarizm ənənələrinin inkişafında layiqli xidmətləri var. Məhz Mehriban Əliyevanın rəhbəri olduğu parlamentlərarası dostluq qrupları Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında böyük rol oynayıb.

Mehriban Əliyeva həm də Azərbaycan idmançılarının dostudur. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban Əliyevanın səmərəli fəaliyyəti Azərbaycan idmanının inkişafına layiqli töhfələr verir. Olimpiya oyunlarında medal qazanmış idmançılara Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi də idmanın inkişafına diqqət və qayğısının, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə verilən töhfənin bariz nümunəsidir.

Bütün bunlarla yanaşı, Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ona həvalə etdiyi bütün vəzifələri də uğurla yerinə yetirərək Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət edib. “Eurovision” mahnı müsabiqəsində olduğu kimi, I Avropa Oyunlarında və IV İslam Həmrəyliyi Oyunlarında da Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoyub.

Bütün Avropa və dünya Azərbaycanın timsalında beynəlxalq idman yarışına ideal evsahibliyinin nümunəsini gördü. Mükəmməl və çoxnövlü idman infrastrukturu ilk Avropa Oyunlarında olduğu kimi, 4-cü İslam Həmrəyliyi Oyunlarında da Azərbaycana yüksək səviyyədə evsahibliyi etmək imkanı verdi. Bütün müsəlman aləminin təmsil olunduğu bu beynəlxalq idman yarışına Azərbaycanın evsahibliyi etməsi ölkəmizə göstərilən böyük etimadın təcəssümü idi.

Həmin etimadı doğrultmaq üçün mən də birinci xanım Mehriban Əliyevanın müdrik rəhbərliyi və mənəvi dəstəyi altında uzun müddət idman sahəsində uğurla xidmət etmiş, Avropa və İslam oyunları kimi bir sıra mötəbər beynəlxalq idman tədbirlərinin layiqincə reallaşmasında əlimdən gələn köməyi əsirgəməmişəm. “Bakı-2017” İslam Həmrəyliyi Oyunlarının Təşkilat komitəsinin katibi, İslam Həmrəyliyi İdman Federasiyasının icraiyyə komitəsinin, eləcə də koordinasiya şurasının üzvü, əməliyyat komitəsində MOK-lararası əlaqələr idarəsinin rəhbəri kimi bu oyunlar zamanı ölkəmizin gücü ilə qürur hissi keçirmişəm.

2017-ci ilin fevral ayından isə Mehriban Əliyevanın fəaliyyətində tamamilə yeni missiya başlayıb. Həmin il fevralın 21-də Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi bütün xalqımızı sevindirən, cəmiyyətin bütün təbəqələrinin təqdir etdiyi qərar oldu.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətə başlamasından 5 il ötür. Ötən 5 ilin reallıqları göstərir ki, Mehriban Əliyeva özünün yeni missiyasını da layiqincə yerinə yetirir, Birinci vitse-prezident kimi fəaliyyəti ilə Prezident İlham Əliyevin siyasi kursunun uğurla reallaşmasında fəal iştirak edir. Mehriban Əliyeva ilk gündən mühüm sosial məsələləri nəzarətə götürüb. 2016-cı ilin Aprel döyüşlərində bədən xəsarətləri almış qəhrəman hərbçilərimizin protezlərlə təmin olunması, Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi Mehriban Əliyevanın Birinci vitse-prezident kimi uğurlu fəaliyyətinin təcəssümü idi.

Koronavirus pandemiyasının ən gərgin günlərində xalqımız Mehriban Əliyevanın bu problemə həssas münasibətinin şahidi oldu. Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən xeyriyyəçilik minlərlə ailəyə, ahıl insanlara böyük maddi və mənəvi dəstək verdi.

44 günlük Vətən müharibəsində isə Mehriban Əliyevanın döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa nəzarətinə götürməsi xalqımızın dərin rəğbəti ilə qaşılandı. Vətən müharibəsindən sonra Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurdakı tarixi və milli abidələrimizin bərpası ilə bağlı həyata keçirdiyi layihələr isə bir daha Mehriban Əliyevanın vətən sevgisinin ifadəsidir.

Vətən müharibəsindən sonra dövlətimiz öz inkişaf tarixinin yeni mərhələsinə qədəm qoyub. Bu mərhələdə də Mehriban Əliyeva Prezident İlham Əliyevin inkişaf siyasətinə layiqli töhfələr verir.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***





# Xalqa xidmət örnəyi

Şəxsiyyətlərin həyat və fəaliyyəti konkret günlərə tarixilik qazandırır. 21 fevral da milli dövlətçilik tariximizdə xüsusi əlamətdarlıq qazanmış günlərdəndir.

Bu günün böyük əhəmiyyəti Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti ilə bağlıdır. O, 2017-ci ilin 21 fevralında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin edildi. Bununla milli dövlətçilik tariximizdə yeni bir səhifə açıldı. Çünki Mehriban xanım Əliyevanın təyinatına qədər Azərbaycanın idarəçilik sistemində vitse-prezidentlik institutu olmamışdı.




Mehriban xanım Əliyeva xalqımızın qürur duyduğu şəxsiyyətdir, millətin tərəqqisi üçün yeniləşən ideyalar sahibidir. Azərbaycanın Birinci vitse-prezidentinin inkişafa doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılıq məzmunu təqdim edir. Cəmiyyətin firavanlığına bu proseslərin əsas məqsədi kimi yanaşır, insanı müasir həyatımızın ən qiymətli dəyəri kimi qəbul edir. Bu baxımdan Mehriban xanımın fəaliyyətində məsuliyyət yükü ağır və şərəflidir. Çünki onun həyata keçirdiyi ali məqsədlərdir, yüksək amallardır. Bunlar o dəyərlərdir ki, tarixin heç bir dönəmində başqalaşmır, məzmununa xələl gətirmir. Dünyanı yaşadan, gələcəyə ümidi, inamı sarsılmaz edən belələrinin haqq yolunda apardığı qətiyyətli fəaliyyət hər addımda ümumxalq sevgisi ilə əhatə olunur.

Bu gün Mehriban Əliyeva təkcə Azərbaycanda deyil, ümumiyyətlə, bütün dünyada layiq olduğu şöhrətə, ucalığa yüksəlib. XXI əsrin məşhur, görkəmli siyasi, dövlət xadimləri sırasında onun adı, pozulmaz dəst-xəti var.

## Cəmiyyətin sosial sifarişindən irəli gələn qərar

Dövlət rəhbərimizin belə bir mühüm qərarı Mehriban xanımın hələ 1995-ci ildə yaratdığı "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun ölkəmiz naminə gördüyü işlərlə başlanan zəngin ictimai fəaliyyətinin, vətənə böyük nailiyyətlər qazandırmış yüksək təşkilatçılıq bacarığının məntiqi nəticəsi idi. Mehriban xanım Əliyevaya dövlət idarəçiliyində, müəyyən edilmiş inkişaf siyasətinin icrasında daha böyük səlahiyyətlərin verilməsi Azərbaycan ictimaiyyətinin sosial sifarişi kimi formalaşmışdı. O, ölkə vətəndaşlarının belə bir etimadını öz işi, fəaliyyəti, Azərbaycana, insanlarımıza faydaları ilə qazanmışdı. Mehriban xanım Əliyeva hələ ötən əsrin 90-cı illərinin ortalarından Azərbaycan mədəniyyətinin qorunması və təbliği yönümündə tarixi xidmətlər göstərmiş, xalqımızın mənəvi zənginliyini dünyaya tanıtmış, milli mədəniyyətimizin inkişafına xidmət etməklə yanaşı, eyni zamanda müstəqil ölkəmizin mədəniyyət diplomatiyasına layiqli töhfələr vermiş vətənpərvər şəxsiyyətdir.

Mehriban xanım Əliyeva Ulu Öndər Heydər Əliyevin dövlətçilik məktəbində, ailə ocağında ustad dərsləri əxz etmiş ictimai-siyasi xadimdir. Bir faktı da qeyd edək ki, mənəvi-insani dəyərlərə xitab, xalqın arzu və amallarının real həyata çevrilməsi Azərbaycan Prezidenti İlham Əliyevin işıqlı qayəsidir. Qarşıya qoyduğu, reallaşdırdığı ali məqsədlər yüksək ideallardır. Və Azərbaycan Prezidenti bu məqsədlərə doğru aparan haqq yolunda ona görə bu qədər uğurludur ki, ən çətin məqamın hər addımında ümumxalq dəstəyindən güc alır. Bu qətiyyətli, möhtəşəm fəaliyyətin daha bir məntiqli səbəbi də ölkənin Birinci xanımı Mehriban Əliyeva kimi dönməz silahdaşının, məsləkdaşının, etibarlı yol yoldaşının olmasındadır. 2003-cü ildən bəri Mehriban xanım Azərbaycan dövlətçiliyində tamamilə yeni olan bir ənənənin - birinci xanım institutunun da yaradıcısıdır. O, qısa müddətdə bütün dünyada ölkənin birinci xanımı olmağın ən gözəl nümunəsini meydana qoydu, şərəflə daşıdığı bu adla Azərbaycan qadınının qürur doğuran obrazını müasir dünyamıza təqdim etdi.

Mehriban xanım Əliyeva 2004-cü ildə yaradılan Heydər Əliyev Fondunun fəaliyyəti, həyata keçirdiyi layihələrlə hər bir Azərbaycan vətəndaşının, eləcə də ölkə sərhədlərindən kənarda bu qurumun gördüyü işlərdən xəbərdar olan hər bir insanın qəlbində xeyirxahlığın, şəfqətin, mərhəmətin mənəvi abidəsini ucaltdı. Qısa müddətdə regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilən qurumun təşəbbüsü ilə bir çox önəmli layihə, proqram həyata keçirildi və bütün bunlar yenə də davam etdirilməkdədir. Bu layihələr ölkəmizin hərtərəfli tərəqqisinə xidmət göstərir. Bir sözlə, müstəqil Azərbaycan dövlətinin ötən əsrin 90-cı illərinin ortalarından bəri qazandığı nailiyyətlərdə Mehriban xanım Əliyevanın imzası, böyük xidmətləri var.

## Yeni həyat qazanan xoş ənənələr

Mehriban Əliyevanın adı uzun illərdir ki, xeyirxahlığın, insanlara sevginin, şəfqətin, köməyə ehtiyacı olanlara əl uzatmağın, el üçün yaxşı bir iş görmək hissinin, dəyərlərə sahib çıxmaq əzminin simvolu kimi çəkilir. Birinci xanım bunu hər hansı inzibati imkanların gücü ilə qazanmayıb. Onu belə bir ali mərtəbəyə ucaldan insanlara tükənməz sevgisidir. Özünün də qeyd etdiyi kimi, dərk edilmiş məsuliyyətidir. Sadə insanları hiss və həyəcanları, problemləri, qayğıları ilə bir yerdə görə bilməsidir.

Mehriban xanım adamların düşüncələrini, istəklərini duya və buna uyğun davrana bildiyi qədər müasir dünyamızın çağırışlarını, cəmiyyətin inkişaf yönünü, can atdığı istiqamətləri də həssaslıqla hiss edir. Zamanın gələcəyə doğru düzgün istiqamətlənməsi, inkişaf axarından kənarda qalmaması üçün böyük fədakarlıqlar göstərir. Müasir dövrün mühüm vəzifələr kimi aktuallaşdırdığı məsələlərin həlli üçün böyük işlər aparır. Yaratdığı nümunələrlə milyonlarla adama sabahın yollarını göstərir.

Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması bilavasitə ölkənin Birinci vitse-prezidentinin göstərdiyi şəxsi nümunəsi nəticəsində mümkün olub. Bunu hamı bilir və görür! Heydər Əliyev Fondu insanların ümid qapısı, pənah ünvanı kimi tanınıb. Qurumun dəstəyi sayəsində minlərlə insan tibbi müalicə, maliyyə dəstəyi ilə təmin edilib. Mehriban xanımın təşəbbüsü ilə inşa olunmuş səhiyyə müəssisələri minlərlə insana həyat verib. Onun bütün ölkə boyu tikdirdiyi məktəblər düşüncələrdə maarif nurunu daha da gücləndirib. Mehriban xanım Əliyeva kimsəsizlərin himayədarı olub, ata-anasız körpələrə analıq edib, əzizlərindən naxələflik görmüş valideynlər onun timsalında ən qayğıkeş övladın varlığına seviniblər. O, yurdunun insanlarına ən doğma adamları kimi sahib çıxıb. Mədəniyyətimizlə, incəsənətimizlə bağlı layihələr Azərbaycanın mənəvi, tarixi, mədəni irsinin qorunmasında misilsiz rol oynayıb. Ən qiymətli milli sərvətlərimizdən olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olub. Fondun xətti ilə Azərbaycanı dünyada tanıdan müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilib. Birinci xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu dünyanın müxtəlif ölkələrində də humanitar proqramlar reallaşdırıb. Ehtiyacı olan icmalar üçün məktəblər tikilib, təhsil proqramları həyata keçirilib. Bəşər mədəniyyətində müstəsna dəyər kəsb edən beynəlxalq əhəmiyyətli abidələr fondun dəstəyi ilə bərpa olunub. Beləliklə, bu cür çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, Azərbaycanı müasir, dinamik inkişaf edən dövlət kimi yenidən kəşf etməyə başlayıb. Öz tarixi köklərinə bağlı olan, fərqli mədəniyyətlərə hörmət göstərən, qədimlərdən gələn tolerantlılıq, birgəyaşayış ənənələrinə sadiq sülhpərvər bir xalq kimi bütün dünyada Azərbaycana böyük rəğbət formalaşıb.



Mehriban xanım Əliyeva bu gün multikulturalizm dəyərlərinin əsas təbliğatçılarındandır. Ölkəmizin bu yönümdə böyük uğurla davam etdirdiyi və BMT-nin ali rəhbərliyi kimi nüfuzlu instansiyalar tərəfindən də rəğbətlə qiymətləndirilən "Bakı prosesi"nin fədakar təşkilatçılarındandır. O, eyni vaxtda həm UNESCO-nun, həm də ICESCO-nun xoşməramlı səfiri titulunu şərəflə daşıyan nadir şəxsiyyətlərdəndir. Bu, beynəlxalq ictimaiyyətin Mehriban xanımın timsalında ümumən Azərbaycan qadınına verdiyi yüksək dəyərin ifadəsidir.

Birinci vitse-prezident illərdir ki, qeyri-maddi mədəni irsin təbliği və qorunması missiyasını şərəflə yerinə yetirir. Eyni zamanda tariximizi, ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq istiqamətində davamlı fəaliyyət göstərir. Vətən müharibəsi ərəfəsində, qanlı döyüşlərin gedişində və tarixi Zəfərimizdən sonra informasiya savaşında da Ermənistan üzərində qazandığımız qələbədə bu fəaliyyətin böyük rolu oldu.

## Azərbaycan naminə

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi partiyanın fəaliyyətinə də mühüm töhfələr verir. Cəmiyyətimizdə yeni siyasi mədəniyyətin formalaşmasında, qadınların ictimai-siyasi fəallığında, ölkəmizin aparıcı qüvvəsi və Cənubi Qafqazın ən böyük siyasi partiyası kimi YAP sıralarının daha da genişlənməsində onun əhəmiyyətli rolu var.

Mehriban xanım 2017-ci ilin 21 fevralına qədər Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi milli parlamentarizm tariximizdə bir sıra parlaq nailiyyətlərə imza atmışdı. 2005-ci ildən deputat statusu daşımışdı. Birinci xanım bu müddətdə millət vəkili olmağın əsl örnəyini yaratdı. Daim seçicilərinin yanında oldu. Onların sosial qayğıları ilə yaşadı. Təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində mühüm işlər gördü. Eyni zamanda Milli Məclisin beynəlxalq əlaqələrinin genişlənməsində mühüm rol oynadı. Mehriban xanım Əliyevanın irəli sürdüyü amnistiya təşəbbüsləri cəmiyyətimiz üçün böyük təhlükə doğurmayan minlərlə vətəndaşın məhbəsdən azadlığa qovuşması, doğmalarının arasına qayıtması, normal insan kimi yaşamaq şansı qazanması da hər zaman cəmiyyətdə rəğbətlə xatırlanır.

Mehriban xanımın Azərbaycan Gimnastika Federasiyasının rəhbəri kimi uzun illərdən bəri gördüyü işlər, 2012-ci ildə ölkəmizdə keçirilmiş Avroviziya Beynəlxalq Mahnı Müsabiqəsinin, 2015-ci ildə Azərbaycanın evsahibliyi etdiyi I Avropa Oyunlarının, 2017-ci ildə ölkəmizdə təşkil olunmuş IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat komitəsinin rəhbəri olaraq yaratdığı mükəmməl nümunələr qeyri-adi, qürurverici, əlamətdar hadisələr kimi daim yaddaşımızdadır və hər birimizdə böyük fərəh doğurur.

Ümumiyyətlə, bu böyük insanın bütün fəaliyyəti Azərbaycanın hərtərəfli inkişafına yönəlib. Mehriban xanım milli mədəniyyətimizin, təhsilimizin, səhiyyəmizin, idmanımızın inkişafı, gənc nəslin sağlam tərbiyəsi üçün yorulmadan çalışır, cəmiyyətin gələcəyinin qayğısına qalır.

## Vətənə layiqincə xidmət

Mehriban xanım beş ildir ki, Azərbaycanın Birinci vitse-prezidenti kimi məsuliyyətli bir vəzifəni yerinə yetirir. Ölkəmiz möhkəm daxili sabitlik, həmrəylik şəraitində özünün inamlı gələcəyini qurur. Bu, tərəqqinin ardıcıllığını təmin edən Prezident İlham Əliyevin məharətlə həyata keçirdiyi siyasi xətdir. Ölkəmiz artıq 2030-cu ilə qədər öz milli inkişaf prioritetlərini elan edib. Bütün bu strateji hədəflərə çatmaq müasir üsullarla çalışan çevik, effektiv idarəetmə sistemi tələb edir.

Ötən beş il ərzində Mehriban xanım Birinci vitse-prezidentlik institutunu dövlətimiz və xalqımız üçün faydalı bir təsisat kimi tam formalaşdırıb. Bu fəaliyyətə nəzər salmaq üçün ən ədalətli meyar onun həmin illər ərzində ortaya qoyduğu nəticələrdir. Bu nəticələrin ən mühümlərindən biri Mehriban xanımın Azərbaycanda vitse-prezidentlik institutunun ənənələrini formalaşdırmasıdır. Eyni zamanda bu təcrübəli dövlət xadimi vitse-prezidentlik təsisatının mükəmməl meyarlarını yaratdı. Təsisatı özünün səmərəli fəaliyyəti ilə dövlət idarəçiliyi sisteminin son dərəcə işlək, effektiv, həm ölkəmiz, həm də vətəndaşlarımız üçün faydalı bir hissəsinə çevirə bildi. Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi öz vəzifəsinin icrasına məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından, 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin müalicəsindən, onların yüksək texnologiyalı protezlərlə təmin edilməsindən başlaması bu şəxsiyyətin əsl vətəndaşlıq missiyasından, xüsusən sosial məsələlərə olan həssas münasibətindən xəbər verirdi.

Ölkəmizin Birinci vitse-prezidenti çətin sınaq günlərində cəmiyyətimizdə milli həmrəyliyin əldə olunmasında müstəsna xidmətlər göstərdi. Müzəffər ordumuzun hər şanlı qələbəsindən sonra Mehriban xanımın müxtəlif sosial şəbəkələr üzərindən xalqımıza ünvanladığı təbrik sözləri, sevinc, qürur və ümid dolu kəlmələri insanlar arasında qələbə əzmini daha da gücləndirirdi. Onları vahid amala, milli hədəflərə doğru səfərbər edirdi.

Hələ hərbi əməliyyatların ilk günlərindən "hamımız əsgərik" deyən Mehriban xanım öz "İnstaqram" səhifəsində paylaşım edərək yazırdı: " Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik. Bizim hər birimiz böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik".

Mehriban xanım dövlətimizi Azərbaycan insanına doğmalaşdıran bir şəxsiyyətdir. O, vətəndaşların sevgi ünvanı, inam və güvən mənbəyidir. Buna böyük Zəfərimizlə nəticələnən 44 günlük Vətən savaşında hər birimiz şahid olduq. 30 illik işğaldan sonra torpaqlarımızın addım-addım düşməndən təmizləndiyi o qürur dolu günlərdə Birinci vitse-prezident öz qəhrəman övladlarının igidliyi ilə öyünən, nisgilli yurdlarımızın azadlığına sevinib fərəhlənən, amma eyni zamanda həm də döyüş meydanındakı övladlarımızın taleyinə görə həssas ana qəlbi ilə həyəcan keçirən, onların bu haqq savaşını sağ-salamat başa çatdırıb Zəfərlə geri dönməsini arzulayan, şəhid məzarları önündə, yaralanmış oğullarımızın mətinliyi, iradəsi qarşısında göz yaşlarını boğa bilməyən Azərbaycan analarının ümumi obrazı idi.

Birinci vitse-prezident hər zaman hər kəsə vətəndaş olmağın meyarlarını anladır. İnsanlara vətəndaş məsuliyyəti aşılayır. Ona olan ümumxalq sevgisi bu vətəndaşlıq dərslərinin, dövlətçilik tərbiyəsinin təsir gücünü təmin edir. İnsanlarımız öz davranışlarında onun tövsiyələrini nəzərə alırlar. Çünki ona inanırlar. Bilirlər ki, əgər bunu Mehriban xanım deyirsə, deməli, insanların faydasınadır. Bunu koronavirus pandemiyasına qarşı karantin tədbirlərinin həyata keçirildiyi vaxt birinci xanımın cəmiyyətimizə ardıcıl müraciətlərində, vətəndaşların həmin müraciətləri sevgi və anlayışla, əsl dost tövsiyələri kimi qarşılamalarında da gördük.

Pandemiyanın ən şiddətli, ağır zamanında Mehriban xanım insanlara müraciətlərində o qədər sadə və səmimi idi ki, sözlərini ayrı-ayrı fərdlərə ünvanlayarkən uzun müddət evdən çıxmamağın, doğmalardan ayrı qalmağın çətinliklərini də unutmurdu. Amma bu məhdudiyyəti də məhz əzizlərimizin, özümüzün taleyimizi düşünərək qəbul etməli olduğumuzu böyük səmimiyyət hissi ilə anladırdı. Birinci xanımın müraciətlərində, çağırışlarında insanın qəlbini ovunduran bir məqam da vardı. Bu, gələcəyə böyük bir ümidlə, xalqımıza, ölkəmizə dua və sevgilərlə tamamlanan hər bir müraciətin "Sizin MEHRİBAN" imzası ilə bitməsidir.

Mehriban xanım Vətən müharibəsi zamanı şəhid olmuş hərbçilərimizin ailələrinə, müharibə zamanı sağlamlığını itirmiş qazilərimizə də daim həssaslıqla yanaşır. Problemlərini şəxsən diqqətində saxlayır. Onların hər hansı sıxıntı ilə üzləşmələrinə yol vermir. Bununla cəmiyyətimizdə şəhidlərimizə, qazilərimizə münasibətin, bu adlara verilən dəyərin nümunəsini yaradır.

## Tarixi yaddaşın bərpası

Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra Qarabağın, Şərqi Zəngəzurun dirçəlişi başlanıb. Erməni vandallarının illərlə dağıdıb xaraba qoyduqları yurdlarımızı Azərbaycan dövləti yenidən tikib-qurur. Mehriban xanım Əliyeva da öz faydalı təşəbbüsləri ilə bu prosesin fəal iştirakçılarındandır. Vandalların bu torpaqlarda ciddi-cəhdlə silməyə cəhd göstərdikləri tarixi yaddaşı Heydər Əliyev Fondu bərpa edir. Yerləyeksan olunmuş qədim abidələrimizi, müqəddəs məkanlarımızı həyata qaytarır. Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev fondu görkəmli Azərbaycan şairi Vaqifin Şuşadakı məqbərəsinin, ermənilərin dağıdıb talan etdikləri digər mədəniyyət məbədlərimizin əvvəlki görkəminə qaytarılması üçün böyük layihələr həyata keçirir, vandalizmin viran qoyub məhv etdiklərini mədəniyyətin gücü ilə yenidən dirçəldir. Tarixin, insanlığın itirilmiş ümidlərini özünə qaytarır.

30 ildən də çox davam edən həsrətdən sonra bu məqbərənin qarşısında Vafiq Poeziya Günləri keçirildi. Şuşada yenidən ana dilimizdə doğma misralar eşidildi. Mehriban xanımın təşkilatçılığı ilə 32 ildən sonra Şuşada - Cıdır düzündə "Xarıbülbül" festivalı öz möhtəşəmliyi, təlqin etdiyi ideyalarla böyük bir el bayramına çevrildi. Azərbaycan musiqinin dili ilə bütün dünyaya bu torpaqlarda əbədi sakinliyimizi, milli vəhdətimizin sarsılmazlığını nümayiş etdirdi. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fondun Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusunu, "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunu hazırlaması da Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin təşviqi və qorunması işinə layiqli töhfələrdir.

Mehriban xanım Əliyeva hər zaman iş başında, xalqın arasındadır. Fədakar əməyinin nəticələrini görmək, ölkəsinin vətəndaşlarına hansısa faydalar vermək bu görkəmli dövlət adamı üçün ən böyük xoşbəxtlikdir. Çox vaxt deyirlər ki, şəxsiyyətin yaşı yoxdur. Mehriban xanımın qərar tutduğu şəxsiyyət ucalığı, yaşadığı mənalı ömür isə milyonlarla insana etdiyi yaxşılıqların yaşındadır, bəşəriyyətə verdiyi xeyirli əməllər qədərdir. Mehriban xanım Əliyeva hər bir dünya azərbaycanlısı üçün doğma bir insandır. Bu doğmalığı Birinci vitse-prezident xoş əməllərinin işığı, hər kəsə isti münasibəti, saflığı, səmimiyyəti ilə qazanıb.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

















# Prezidentlə çiyin-çiyinə xalqın arasında

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri... Mehriban xanım Əliyevanın daşıdığı bu və digər yüksək ad və titullarının hər birinin arxasında böyük məsuliyyət, zəhmət, səriştə tələb edən vəzifələrin yerinə yetirilməsi dayanır.

Onların hər birini layiqincə həyata keçirmək üçün səbir, düşüncə, bilik və təcrübə vacibdir, əməli işlər görmək lazımdır. Azərbaycan xalqı xoşbəxtdir ki, onun bütün bunların öhdəsindən gələn Mehriban Əliyeva kimi nüfuz və hörmət, el sevgisi qazanmış dövlət xadimi, layiqli övladı, qayğıkeşi, xeyirxahı var.

Belə bir həmdəminin, himayədarının olması Azərbaycan analarının və körpələrinin də xoşbəxtliyidir. Azərbaycanın böyük bir xoşbəxtliyi də ondadır ki, Prezident İlham Əliyevin belə ömür-gün yoldaşı, dostu və silahdaşı var. Bunu özümüz də əyani görür, dərindən dərk edirik və çox xoşdur ki, digər xalqların nümayəndələri, başqa ölkələrin vətəndaşları da qeyd edirlər.

Azərbaycan xalqının leksikonunda qədim zamanlardan "el anası" ifadəsi var. Ehtiyacı olanın çətinliyini duymağı bacaran, dərdlinin dərdini bölən, yetimi sinəsinə çəkən, qısası, bir kəndin, bir obanın camaatına qayğı göstərməyə qadir olan genişürəkli xanımlara el anası deyiblər! Azərbaycanın birinci xanımının bu yönümdəki xeyirxahlıq missiyası bir ailənin, kəndin, yaxud şəhərin çərçivəsindən çıxaraq daha geniş miqyas alıb. Mehriban xanım Əliyeva həmişə xalqın yanındadır, xalqla birlikdədir. Həm sevincli, həm kədərli gündə.... O, hamıya kömək etməyə, yaxşı işlərdə dəstək verməyə, yardım göstərməyə qadir və həmişə hazır olan böyük İnsandır, qayğıkeş Anadır!

Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşan "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri sözügedən xəstəliklərdən əziyyət çəkən insanların, xüsusilə uşaqların pulsuz müayinə olunmasına və müalicə almasına, nəticədə şəfa tapmasına imkan yaradıb. Bu və digər xəstəliklərin aradan qaldırılmasına kömək edən neçə-neçə yeni tibb müəssisəsi, o cümlədən Talassemiya Mərkəzi istifadəyə verilib.

Bu yaxınlarda isə Mehriban xanımın təşəbbüsü ilə Bakının Nizami rayonunda Heydər Əliyev Fondu tərəfindən yeni inşa edilən Autizm Mərkəzi istifadəyə verildi. Autizm spektr pozuntulu uşaqlar üçün bərpa mərkəzi 2013-cü ildən fəaliyyət göstərsə də, indiyədək özünün daimi yerləşdiyi binası yox idi. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində istifadəyə verilən mərkəzin binası autizm xəstəliyindən əziyyət çəkən uşaqlar üçün əsl hədiyyə oldu. Bu uşaqların intensiv terapiya alması və asudə vaxtlarının səmərəli təşkili üçün mərkəzdə hər cür şərait yaradılıb.

Bakıda və ölkənin digər regionlarında mütəmadi keçirilən qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqların əməliyyat olunması, aztəminatlı ailələrin üzvlərinin müayinələri, lazım gəldikdə insanların xarici ölkələrə müalicəyə göndərilməsi... Bütün bunlar Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xeyirxah əməlləri nəticəsində baş tutur.

Hələ "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və digər layihələri demirik...

Bir zamanlar uşaq evindəki balaca oğlan və qızların o qədər də yaxşı qidalanmaması, ailələrdə böyüyən atalı-analı yaşıdlarından geyim-kecimdə də geridə qalması hamıya məlum olan həqiqət idi. İndi bu uşaqların heç nəyə ehtiyacı yoxdur! Necə deyərlər, kefləri kök, damaqları çağdır. Bunun hamısı Mehriban Əliyevanın zəhməti, səyi nəticəsində olub. Ancaq uşağı çörəklə, ləziz nemətlərlə doydurmaq, əyin-başını düzəltmək hələ işin yarısıdır. Onun isti nəfəsə, qayğıya ehtiyacı daha çox olur. Hamımız Mehriban xanımın yetim, yaxud xəstə uşağı necə məhəbbətlə qucağına götürdüyünü, necə istəklə bağrına basdığını çox görmüşük! Bu, internatlarda və uşaq evlərində işləyən qadınlara bir nümunə, bizim hamımıza, bütün cəmiyyətə bir mesajdır!

Əvvəllər uşaq evində böyüyən oğlan və qızların məktəbi bitirəndən, yəni yetkinlik yaşına çatandan sonra haraya üz tutacağı, harada yaşayacağı da cəmiyyəti narahat edən problem idi. Mehriban xanım bir ana kimi bu uşaqların da qayğısına qalaraq onlar üçün ev tikdirdi.

Şanlı Qələbəmizədək yaşadığımız son illər ərzində Mehriban xanım Əliyeva qaçqın və məcburi köçkünlərin problemlərinin həlli üçün də ardıcıl işlər aparıb. Təsadüfi deyil ki, Birinci vitse-prezident vəzifəsinə təyin olunandan sonra ilk müşavirəsi də onlara həsr edilmişdi. "Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Bu məqsədlə əlavə vəsait ayrılmalıdır, binaların inşası üçün ərazi müəyyənləşdirilməlidir və tezliklə binaların inşası başlamalıdır. Bununla yanaşı, Bakı və Sumqayıt şəhərlərində tikilmiş yeni binalarda köçkün ailələrini yerləşdirmək üçün mənzillər alınmalıdır". Həmin tədbirdə Mehriban Əliyeva belə dedi. Dedi və həmişə olduğu kimi vədinə əməl etdi. Birinci xanım da dövlətimizin başçısı kimi vədinə, verdiyi sözə həmişə sadiqdir.

Nəhayət, xalqımıza Qələbə və qürur gətirən, bunları bizə bəxş edərək uca şəhidlik mərtəbəsinə yüksələn oğullarımızın ailələri də daim Mehriban xanımı öz yanlarında görürlər. Azərbaycanın birinci xanımı öz ciyərparasını itirmiş anaların, körpəsi atasız qalmış gəlinlərin dərdinə şərik çıxır, kədərini bölür və bütün bunlarla bahəm onlara təsəlli verir, Vətən yolunda qəhrəmanlıq göstərmiş əzizləri üçün qürur keçirməli olduqlarını deyir. Amma bunları deyərkən özünü də qəhər boğur, kövrəldiyini bəzən gizlədə bilmir. Bu da ana qəlbinə xas olan əlamətdir... Qəhrəman qazilərimizə isə "qardaşlarım" deyərək onların hünərlərindən qürur duyur.

Bütün bunlarla yanaşı, Mehriban Əliyeva Prezident İlham Əliyevlə birlikdə işğaldan azad olunmuş torpaqlarımızı qarış-qarış gəzir, düşmənin viran qoyduğu tarixi, mədəni abidələrimizin bərpası üçün çalışır. Qarabağdakı və Şərqi Zəngəzurdakı yurd yerlərimizi cənnətə çevirən Prezidentimizlə və xalqımızla birlikdədir, çiyin-çiyinədir!

***Flora SADIQLI,***
***"Azərbaycan"***





















# BÖYÜK HİMAYƏDAR

**Heydər Əliyev Fondu işğaldan azad edilmiş bölgələrimizdə aparılan bərpa-quruculuq işlərinə yüksək töhfə verir**







Otuz ilə yaxın davam edən həsrətə, nisgilə qırx dörd gün müddətində son qoyuldu. 2020-ci ildə Azərbaycanın Müzəffər Ordusu uzun illər Ermənistan silahlı qüvvələrinin işğalında qalmış ərazilərimizi azad etdi.

Vətən müharibəsi Azərbaycanın zəfəri ilə başa çatdı. Düşmən işğalından qurtulmuş yerlərdə gördüyümüz mənzərələr isə yalnız bizi deyil, bütün dünyanı dəhşətə gətirdi. Çünki erməni vandalizminin həddi-hesabı yoxdur. Vandallar otuz ilə yaxın işğal altında saxladıqları Azərbaycan ərazilərində daşı daş üstündə qoymamışdılar. Tarixi-mədəni, dini abidələr, yaşayış binaları və digər tikililər erməni işğalçıları tərəfindən yerləyeksan edilmişdi. Ermənistanın Azərbaycan xalqına, Azərbaycan dövlətinə vurduğu mənəvi və maddi zərər ölçüyəgəlməzdir.

## Tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq əvvəlki görkəminə qaytarılır

Azərbaycan Ordusunun böyük qələbəsi ilə bitən Vətən müharibəsindən qısa müddət sonra dövlətimiz tərəfindən bərpa-quruculuq işlərinə başlanıldı. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizə səfərlər etdi. İlk qərarları verdi, layihələr hazırlandı, işlərə başlanıldı.

Birinci vitse-prezident Mehriban Əliyeva Vətən müharibəsində şanlı qələbəmizdən sonra vurğuladı ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağı Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Həmin bölgələrdə həyat yenidən canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurdlarında yaşayacaqlar.

Bərpa-quruculuq işlərində Heydər Əliyev Fondu da öz töhfələrini verməkdədir. Hələ 2020-ci il dekabrın 8-də Birinci vitse-prezident Mehriban Əliyeva demişdi: "Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm".

Mehriban Əliyeva layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulmasının həyata keçiriləcəyini diqqətə çatdırdı.

Bu gün Azərbaycan xalqının zəngin xəzinəsi olan, min illərə söykənən tarixi kökləri gələcək nəsillərə ötürülmək üçün qorunur. Bu sırada məkirli ermənilərin tarix səhifələrindən silməyə çalışdıqları həqiqətlər də olduğu kimi yenidən bərpa edilir. Qarabağ da, Şərqi Zəngəzur da gündən-günə inkişaf etməkdə, öz tarixi görkəminə qovuşmaqdadır.

Erməni təcavüzkarlarının işğalından azad edilən bütün ərazilərimizdə Azərbaycan dövləti böyük quruculuq, tikinti-bərpa işləri aparır. Qarabağda müasir infrastruktur qurulur, yeni yollar salınır, beynəlxalq hava limanları tikilir, "ağıllı kənd", "ağıllı şəhər" layihələri həyata keçirilir.









Onu da diqqətə çatdıraq ki, yalnız işğaldan azad olunan bölgələrimizdə deyil, bütövlükdə Azərbaycandakı bütün xalqlara məxsus abidələrin, inanc yerlərininin bərpa və təmir edilməsi üçün mütəmadi olaraq işlər görülür.

2019-cu ildə Qəbələnin Nic qəsəbəsində yerləşən "Müqəddəs Məryəm Ana" alban kilsəsinin Heydər Əliyev Fondu tərəfindən bərpasına başlanılıb, 2020-ci ilin noyabrında 44 günlük müharibə zamanı işlər başa çatıb.

Ötən il mayın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qəbələyə səfər edərək həmin alban kilsəsində oldular. Prezident İlham Əliyev kilsədə dedi ki, udi xalqı eyni zamanda azad edilmiş torpaqlarda gedib ibadət edir - həm Xudavəngdə, həm Ağoğlanda. Dövlət başçısı bildirdi: "Orada udi xalqına məxsus olan digər məbədlər də var. Onların böyük hissəsi dağılmış, ya da ki, yarıdağılmış vəziyyətdədir. Ona görə onları da bərpa edəcəyik. Siz o kilsələrə də gedəcəksiniz".

## Bərpa-quruculuq işləri sürətlə davam etdirilir

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi azad edilmiş ərazilərdə 400-dən çox abidənin dağıdıldığını müəyyən edib. Həmin ərazilərdəki abidələrin ümumi sayı 3000-ə qədərdir. Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət etdikdən sonra da yandırıblar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan edilib. Dağıdılan, od vurulan 927 kitabxanada 4 milyon 600 min kitab və misilsiz əlyazma nümunələri məhv edilib.

Erməni vandalları dini abidələri - məscidləri, türbələri və digər inanc yerlərini də dağıdıblar. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təsbit olunmuş siyahıya əsasən, Qarabağda təqribən 403 tarixi dini abidə olduğu göstərilir. Onlardan 67-sinin məscid, 144-ünün məbəd, 192-sinin ziyarətgah olduğu açıqlanıb.

Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarları salamat qalıb. Erməni vandalları Ağdam Cümə məscidində heyvan, həmçinin donuz saxlamaqla dini dəyərləri heçə saymış, yalnız azərbaycanlılara deyil, bütün müsəlmanlara qarşı hörmətsizlik etmişdilər.

İnsani dəyərlərdən uzaq olduqları bütün dünyaya bəlli olan erməni vandallarının otuz ilə yaxın talan etdikləri, uçurub dağıtdıqları, xarabazarlığa çevirdikləri bölgələrimiz bu gün öz həqiqi sahiblərinin əlindədir. Azərbaycan dövləti, Azərbaycan xalqı tərəfindən həmin yerlərdə böyük təəssübkeşliklə, canıyananlıqla bərpa-quruculuq işləri reallaşdırılır.









İşğalçılardan xilas edilmiş torpaqlarımız indi sürətlə dirçəldilir, tarixinə, mədəni irsinə, ənənələrinə, dini mirasına qovuşur.

Həmin ərazilərdə gerçəkləşdirilən bərpa və quruculuq prosesində Heydər Əliyev Fondu birbaşa iştirak edir. Bu istiqamətdə artıq Şuşada, Ağdamda nəzərəçarpan və təqdirəlayiq işlər görülüb.

Ötən il martın 16-da Prezident İlham Əliyev Şuşa şəhərinə səfəri zamanı Heydər Əliyev Fondunun şəhərin bərpasına öz sanballı töhfələrini verəcəyini diqqətə çatdırmışdı: "Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Artıq işlərə start verilib. Bunu, həmçinin Molla Pənah Vaqifin büstünün bərpası layihəsini Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə..."

Heydər Əliyev Fondu üzərinə götürdüyü həmin işləri həyata keçirərək avqustun 29-da Şuşaya, şuşalılara, bütövlükdə Azərbaycan xalqına təhvil verdi.

Azərbaycanın istedadlı şairi, görkəmli ictimai-siyasi xadimi Molla Pənah Vaqifin məqbərəsinin layihəsinin reallaşdırılması zamanı abidənin əvvəlki görkəminin bərpası xüsusi nəzərə alınıb.

Heydər Əliyev Fondu tərəfindən Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də həyata keçirilib. Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında büst yenidən hazırlanıb. Büst Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanaraq əvvəlki yerində - Molla Pənah Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb.

## Mədəni ənənələrimiz yaşadılır

Erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilən abidələrimizdən biri də 1985-ci ildə Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə bəstəkarın Şuşada ucaldılan heykəli olmuşdu. Bəstəkarın yeni heykəli Prezident İlham Əliyevin tapşırığına əsasən hazırlanıb. Heykəlin modeli qalmadığından yeni abidə həmin dövrün mətbuatında dərc edilən, eləcə də arxivdə qorunan fotolara istinad edilib.

Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin bürüncdən hazırlanan heykəli də Heydər Əliyev Fondunun dəstəyi ilə Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb.

Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu dini abidələrimizin bərpası istiqamətində də xeyli işlər görüb. İndiyədək Şuşada Yuxarı Gövhər ağa məscidinin, Saatlı və Aşağı Gövhər ağa məscidlərinin təmiri ilə bağlı işlər həyata keçirilib.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən fond Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan məscidlərin, dini, mədəni abidələrin bərpası ilə yanaşı, həm də bu bölgəmizdə tarixi mədəni ənənələrimizi də bərpa etməkdədir.

Heydər Əliyev Fondu tərəfindən 12-13 may 2021-ci ildə Şuşada, Cıdır düzündə təşkil edilmiş "Xarıbülbül" Musiqi Festivalı, Şuşa işğaldan azad edildikdən sonra avqustun 30-da ilk dəfə Şuşada yenidən düzənlənən Vaqif Poeziya Günləri Azərbaycan xalqının tarixi, mədəni irsinin təbliği istiqamətində təqdirəlayiq işlərdir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*





# «Mehriban Əliyevaya minnətdarıq»

## Heydər Əliyev Fondunun dəstəyi ilə Nic qəsəbəsində əsaslı təmir edilən Məryəm Ana kilsəsi udilərin ən müqəddəs ziyarətgahına çevrilib

Soyuq bir qış gününün sabahı yenicə açılırdı. Buludların tutqun siması səmada vargəl edirdi. Uzaqdan gələn kilsə zənginin səsi hər tərəfi bürümüşdü. Sədaların əzəmətli bir yerdən gəldiyi aydın sezilirdi. Yeyin addımlarla irəlilədikcə sanki bu səs doğru ünvana biixtiyar yollanmağın bələdçisi idi...

Ərtafa boylana-boylana zəng gələn tərəfə addımladıqca tək olmadığımı hiss edirəm və getdikcə sayımız çoxalır. Dəyəsən, hamımız bir ünvana üz tutmuşuq və bir qədər sonra bu fikir təsdiqini tapır. Böyük darvazanın kandarında dayanmalı olduq və bir qədər sonra isə qapılar açıldı, mən də qələbəliyə qoşulub içəri daxil oldum.

İlk dəfə ayaq basdığım bu məkan Qəbələnin Nic qəsəbəsindəki Alban-udi xristian icmasının ibadət yeri olan Müqəddəs Məryəm Ana kilsəsidir. Kilsənin həyətinin sağ küncündə ucalan zəng suallarımı qismən cavablamışdı. Bu, ibadətə bir çağırış avazıydı...

Balaca uşaq kimi ətrafımdakıların etdiklərini təkrarlamağa başladım. Qış donuna bürünmüş bağçadan keçərək kilsə binasının qapısına yaxınlaşdım. Növbə ilə hər kəs içəri daxil olurdu. Şam yandırdıqlarını görər-görməz birini də mən götürdüm. Dua edib, arzumu tutdum və şamı işığına qərq etdim...

### Tarixi həqiqətlər, alban-udi məbədlərində baş tutmayan erməni saxtakarlığı

Bu gün Azərbaycanda udi xalqının dörd mindən çox nümayəndəsi yaşayır. Onların əksəriyyəti tarixən Qafqaz Albaniyasının paytaxtı olan Kabalakada (indiki Qəbələ) məskunlaşıblar. Nic qəsəbəsi udilərin öz adət-ənənələri ilə yaşamlarını davam etdirdikləri doğma yurdlarıdır. 14 məhəllədən 2-sində azərbaycanlılar yaşayır.

Ermənilərin Türkmənçay müqaviləsindən sonra torpaqlarımıza köçürülməsi ilə bir çox dəyəri mənimsəməyə başlaması udilərdən də yan keçməyib. Buradakı kilsələr 1836-cı ildən ermənilərin tabeçiliyinə verilib. Lakin erməni keşişlərinin Nicə gəlişi 30-40 il sonra müşahidə edilib. Xalq baş verənlərə etiraz olaraq kilsəyə getməyərək ibadətlərinə evlərində davam edib.

Ermənilərin bütün səyləri boşa çıxdığı kimi, udi xalqını məhv etmək istəkləri də baş tutmayıb. Onların kilsələrdəki simvolları, ikonaları yox etmək üçün üzərlərini müxtəlif vasitələrlə bağlamaları və sair hallar asanlıqla aşkar edilib.

Alban-udi xristian icmasının sədr müavini Rafik Danakari ilə söhbət zamanı məlum olur ki, bir erməni keşişin öz rəhbərliyinə göndərdiyi məktubunda buradakı insanların onunla eyni dildə danışmadığı və bir-birlərini anlamadıqları qeyd olunub. Onlar bu vəziyyətə son qoymaq üçün erməni dilinin tədris olunması yönündə addımlar da atıblar.

Qəsəbədə ümumilikdə 4 kilsə olub. Onların birini dağıdan ermənilər kilsədən qalan materiallardan məktəb tikiblər. Digər 3 kilsə isə hazırda qalmaqdadır. Onlardan Müqəddəs Yelisey adına Cotari kilsəsi 2006-cı ildə əsaslı bərpa olunduqdan sonra əhalinin istifadəsinə verilib. Udi xalqı kilsənin həyətində İordaniyadan gətirilən su ilə vaftiz olunur. Həmçinin burada "Mahmud və Məryəm" filmi də çəkilib. Müqəddəs Məryəm Ana kilsəsi isə 2020-ci ilə qədər tamamilə dağılmış, istifadəyə yararsız vəziyyətdə olmuşdu.









### Heydər Əliyev Fondundan böyük dəstək

Rafik Danakari deyir ki, 2019-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva Nic kəndinə səfəri zamanı ümumi vəziyyətlə tanış olub. Kənd camaatı ehtiyaclarını dilə gətirib məhv olmaq üzrə olan kilsənin bərpası ilə bağlı məsələni diqqətə çatdırıblar. Leyla Əliyeva kilsənin Heydər Əliyev Fondu tərəfindən bərpa ediləcəyini bildirib.

R.Danakarinin sözlərinə görə, əgər ibadət yerinin bərpası 2-3 il də ləngisəydi, kilsədən əsər-əlamət belə qalmayacaqdı: "Həqiqət budur ki, kilsə məhv olmaq üzrə idi. Əgər bir neçə il ləngimə olsaydı, ən qədim alban kilsələrindən biri yox olacaqdı. Buna görə də biz hər zaman Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevaya minnətdarıq. Leyla xanım Əliyeva gəlib kilsənin şəraitini gördükdən sonra Mehriban xanıma və Prezidentə məlumat verib. Bundan sonra bərpa işlərinə çox keçmədən, 2020-ci ilin yanvar ayından başlanılıb. 44 günlük Vətən müharibəsi və qlobal pandemiya ilə mübarizə dövründə restavrasiya işləri bir gün belə səngiməyib. 2020-ci il noyabrın 7-də bütün işlər yekunlaşdırılaraq kilsə tamamilə əla vəziyyətə gətirilib və açılışı olub".

Kilsənin bərpasında mütəxəssislərlə yanaşı, qəsəbənin sakinləri də kömək göstəriblər. Udilərlə yanaşı, ləzgilər, avarlar, hətta qonşu kənddən gələn tatlar da olmaqla, 9 xalqın nümayəndələri bu işdə fəal iştirak ediblər.

Müqəddəs Məryəm Ana kilsəsi XII əsrə aiddir. Kilsənin digər adı olan "Bulun" udi dilində "yuxarı məhəllə" mənasını ifadə edir. Həmin dövrdə ibadət yerləri əsasən yerləşdikləri əraziyə görə tanınırdı.

2021-ci il mayın 15-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Qəbələyə səfərləri çərçivəsində Nic qəsəbəsində olub, yenicə təmirdən çıxmış Müqəddəs Məryəm Ana kilsəsinə baş çəkiblər. Burada Prezident görülən işlərlə tanış olub və bu barədə dövlət başçısına ətraflı məlumat verilib. Qeyd edilib ki, həyətyanı sahə abadlaşdırılıb, sahəsi hasarlanıb, bulaq və üç gölməçə yaradılıb.

Kilsə alban, ortodoks konsepsiyasına uyğun olaraq bərpa edilib. Çünki ermənilər kilsəni özününküləşdirmək istəyiblər. Adətən ermənilərdə Qriqoryan kilsəsində altar hissə daha hündür olur. Albanlarda isə 3 pilləkəndən ibarət olur. Bu, memarlıqda əsas elementdir. Ümumiyyətlə, Müqəddəs Məryəm Ana kilsəsi Azərbaycanda ən böyük kafedral kilsədir.

Rafik Danakarinin sözlərinə görə, Heydər Əliyev Fondu tərəfindən qəsəbədəki 1 saylı orta məktəb də tam təmir edilib. Buradakı məktəblərdə ibtidai siniflərdə latın qrafikası ilə udi dilində dərsliklərdən istifadə edilir. Bu da dilin qorunub saxlanılmasında əsaslı addımlardan biridir.

İşğaldan azad edilən ərazilərimizdə də alban-udi kilsələri çoxluq təşkil edir. Hazırda oradakı məbədlərdə bərpa işləri ilə bağlı monitorinqlər aparılır. Təkcə Kəlbəcərdə 35 kilsə var. Görünür ki, hər kənddə müqəddəs ibadət yerləri mövcud olub. Laçında, Hadrutda da kilsələrə rast gəlmək mümkündür.

Rafik Danakari deyir ki, onların əksəriyyəti erməniləşdirilib: "Biz 2020-ci il dekabrın 4-də Kəlbəcərdə "Xudavəng" monastırına gedəndə orada olduğumuzu görən ermənilər bizi içəri girməyə, ibadət etməyə qoymurdular. Buranın onların məbədi olduğunu israrla deyirdilər. O zaman onlardan soruşduq ki, siz buraya nə vaxt gəlmisiniz? Bizə cavablarında 1993-cü ildə gəldiklərini dedilər. Artıq bu məbədin kimə aid olduğu təsdiqləndi".

### Udilər Vətən müharibəsində ön sırada oldular

Udilərin maraqlı adət-ənənələri var. Onlar təntənəli şəkildə 2 əsas bayramı qeyd edirlər.

İbadət üçün Müqəddəs Məryəm Ana kilsəsinə gələn kənd sakini Nikolay Qiqinari deyir ki, əsas bayramlarından biri Miladdır: "Biz Milad bayramını yanvar ayının 7-də qeyd edirik. Bu zaman hər kəs kilsəyə toplaşır. İbadətlər edib, şamlar yandırırıq. Digər təntənəli mərasimlərdən olan Pasxanı isə bu il aprelin 24-ü keçirəcəyik. Əsasən bu bayramın tarixi hər il 7-10 gün fərqlə dəyişir".

Udilər Pasxa bayramından 40 gün əvvəl oruc tuturlar. Bu müddət ərzində heyvanların ətindən və onlardan əldə edilən məhsullardan istifadə edilmir. Yalnız balığı 40 gün boyunca müəyyən vaxtlarda cəmi bir neçə dəfə yeyirlər. Milad və Pasxa bayramları öncəsi cümə günləri "qara bayram" kimi qeyd olunur. Sakinlər qəsəbənin yuxarı və aşağısında yerləşən qəbiristanlıqlara gedərək vəfat etmiş yaxınlarını, qohumlarını yad edirlər.

Həmsöhbət olduğumuz Yulian Boyaxçari kilsəyə Allaha şükür etmək üçün gəldiyini vurğuladı: "Biz kəndlilər əkinlə məşğul oluruq. Əsas gəlirimiz meyvə-tərəvəzdən olur. Buna görə də ilin müxtəlif vaxtlarında Allaha bol ruzimizin olması üçün dualar edirik. Avqust ayının sonlarında meyvələrin yetişən vaxtı başlayır. Noyabrın ilk həftəsində isə toplanan hər bir məhsula görə təşəkkürümüzü ibadətlərimizlə bildiririk".

Nicdəki kilsələrə yalnız bazar günü deyil, digər günlərdə də gəlib ziyarət edənlər, qurban kəsənlər olur. Bu kilsələr təkcə udi xalqının deyil, bütün Azərbaycan xalqının dəyərləridir. Hər fürsətdə bunu büruzə verən cəmiyyət öz dəstəyini göstərir.

R.Danaqari onu da qeyd etdi ki, Müqəddəs Məryəm Ana kilsəsini yuxusunda görüb ona üz tutanlar da olub: "Bir gün bura Göyçaydan bir nəfər gəlmişdi. Mənə heç vaxt kilsədə olmadığını deyərək, məhz bu məbədi yuxusunda gördüyünü və buranı mütləq ziyarət etməli olduğunu bildirmişdi". Görünür, ilahi qüvvə ilə sevgi din və dildən asılı olmadan hər yerdə bəşəri varlığı tapır.

Əvvəlcə həqiqi hərbi xidmətə çağırılmayan udi gəncləri 2003-cü ildən ordu sıralarında xidmət edirlər. Vətən müharibəsi zamanı 50-yə yaxın kənd sakini işğal olunan torpaqlarımızın azadlığı uğrunda müharibəyə yollanmışdı. Onlar arasında böyük Zəfərlə bitən qələbəmizin bir neçə medallı iştirakçısı da var.

Nic qəsəbəsində gördüklərimiz, eşitdiklərimiz Azərbaycanın həqiqətən də nümunəvi, multikultural, tolerant ölkə olması fikrini bir daha təsdiqlədi. Ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri sərbəst, azad şəkildə kilsələrə, sinaqoqlara, məbədlərə gedərək ibadətlərini edirlər. Bu dini ocaqların təmiri, yenidən qurulması isə həmin xalqın dövlətə olan etimadını, güvənini daha da artırır.

Ümumiyyətlə, tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşası Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Bu siyasətin reallaşdırılmasında Heydər Əliyev Fondu da yaxından iştirak edir.

*Müqəddəs Məryəm Ana kilsəsində şahidi olduğumuz çox maraqlı mənzərə bizdə xoş təəssüratlar yaratdı. Gəlişimiz kimi, ayrılığımız da bu təəssüratlar altında reallaşdı.*

**Aydan XƏLİLOVA,**
**"Azərbaycan"**







# Xeyirxahlığın ünvanı, nəcib təşəbbüslərin sahibi

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva keçmiş məcburi köçkünlərin də daim yanında olub

Bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı sağlam əqidəli, xalqa və dövlətə sədaqətli xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlı olub. Bu gün də belədir. Onlar ona görə cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilirlər ki, öz üzərlərinə düşən sosial, siyasi, eləcə də mədəni məsuliyyəti dəyərləndirir, bunun nəticəsində isə xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar.

İnsanlara mənəvi saflıq, düzgünlük və ədalət, humanizm, şəfqət, yaxşılıq, və kömək etmək kimi fundamental bəşəri dəyərlərin təbliğində istisnasız xidmətlər göstərən Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva haqqında söz düşəndə mütləq şəkildə onun xalqın sevimlisi, əzizi olduğu dilə gətirilir. Məhz bu kimi bəşəriliyinə, xeyirxahlığı, humanizmi əməli fəaliyyətində təbliğ etdiyinə görə Mehriban xanım Əliyeva II dərəcəli Müqəddəs Məleksima Knyaginya Olqa ordeni ilə təltif edilib.

Azərbaycanın Birinci vitse-prezidentnin çoxşaxəli fəaliyyəti nəinki respublikamızda, eləcə də ölkə hüdudlarından kənarda da daim yüksək qiymətləndirilib. Xüsusilə mənəvi və mədəni dəyərlərin qorunmasına verdiyi töhfələr onu bir tolerantlıq rəmzinə çevirib. Fəaliyyətində daim humanizm prinsiplərini əsas götürən Mehriban xanım Əliyevanın sivilizasiyalar və dinlərarası dialoqa töhfələri isə ona beynəlxalq aləmdə böyük nüfuz qazandırıb.

### Xeyirxahlıq missiyası minnətdarlıqla qarşılanır

Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr bunun bariz nümunəsidir. Təsadüfi deyil ki, 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə isə ICESCO-nun xoşməramlı səfiri seçilən Mehriban xanım Əliyeva nəcib əməllərinə görə digər çoxsaylı beynəlxalq mükafat, fəxri ad və təltifə layiq görülüb.

Bu gün də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva özünün humanizm siyasəti ilə fəaliyyətini davam etdirir. Ən əsası isə ölkənin ən həssas təbəqəsi sayılan, illərlə doğma torpaq həsrətini çəkmiş, 44 günlük Vətən müharibəsində qazandığımız Qələbə ilə işğaldan azad edildiyinə görə yurdları dövlətimizin başçısı tərəfindən artıq keçmiş məcburi köçkünlər adlandırılan insanların qayğılarını çəkməkdə, problemlərinin həllinə dəstək olmaqdadır.

2019-cu ilin aprelində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Bakı şəhərində, Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan "Qobu Park" yaşayış kompleksində məskunlaşmış məcburi köçkünlərlə görüşündə də bu xeyirxahlıq missiyası özünü təsdiqlədi.













Xatırladaq ki, 1993-cü ildən işğal altında olan rayonlardan məcburi köçkün düşənlərin məskunlaşdığı 4 saylı yataqxanada 150-dən çox ailə yaşayır. Həmin görüşdə yaddaqalan məqamlar çox oldu. İlk növbədə isə məcburi köçkün ailələri dövlətin onlara göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirdilər, bu dəstəyi hər zaman hiss etdiklərini söylədilər.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva illərdir yataqxana həyatı keçirən məcburi köçkün ailələrə baş çəkərkən bir daha həssaslıq göstərərək onlara bundan sonra da diqqət və qayğı ilə yanaşılacağını, onların mənzillə təmin olunacaqlarını xüsusi qeyd edərək dedi: "Mən bilirəm ki, siz yararsız binalarda çətin vəziyyətdə yaşayırsınız. İnanın mənə, tapşırığımla yeni yol xəritəsi hazırlanır. Prezident İlham Əliyevin diqqətində olan ən vacib məsələ məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasıdır və bu günə qədər çox böyük işlər görülüb, 300 mindən artıq insan evlə təmin olunub və təmin olunacaq. Əgər 2017-2018-ci illərdə 6126 mənzil təhvil verilibsə, bu il təkcə 1 il ərzində 6 min mənzil təhvil veriləcək. İnanın, mənim güc mənbəyim sizsiniz. Mən hər zaman sizin yanınızdayam. Bu, mənim borcumdur".

Birinci vitse-prezident yataqxananın yerləşdiyi ərazidə Zəngilan rayon 20 saylı orta məktəbdə də oldu. 131 şagirdin təhsil aldığı məktəbdə fəaliyyət göstərən müəllimlərlə görüşdükdən sonra ölkəmizin birinci xanımı Qaradağ rayonunda məcburi köçkünlər üçün salınan "Qobu Park" yaşayış kompleksinə də gəldi. Həmişəki kimi, qəsəbə sakinləri ilə görüşüb, müraciətlərini dinlədikdən sonra mövcud problemlərin həlli istiqamətində tapşırıqlarını verdi.

### Mehriban ƏLİYEVA: "...Ən mühüm güc mənbəyi xüsusən məcburi köçkünlərlə ünsiyyətdə olmaqdır"

Xatırladıldı ki, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri 103 yeni qəsəbə, şəhərcik salınmasıdır. Burada da ümumilikdə 1026 məcburi köçkün ailəsi mənzillə təmin olunub: "...Şəhərcik təkcə evlərdən ibarət deyil, onu yaratmaq üçün infrastruktur - məktəblər, bağçalar tikilib, su, qaz, işıq xətləri çəkilib, asfalt yollar salınıb. Amma yenə də hələ ki, ağır vəziyyətdə yaşayan insanlarımız var və onların həyatının yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik. İnşallah, Qarabağ problemi də öz həllini gərək sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında tapsın, soydaşlarımız doğma torpaqlarına qayıtsın. Hələ ki, bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə, işlə təmin etmək Azərbaycan dövlətinin ən əsas vəzifəsidir. İnanın ki, bu sahədə bütün lazımlı işlər, addımlar atılır..."

Azərbaycanın Birinci vitse-prezidenti xüsusi olaraq vurğuladı ki, onun fəaliyyətində ən vacib, ən mühüm güc mənbəyi xüsusən məcburi köçkünlərlə ünsiyyətdə olmaqdır: "...Mən sizin sevginizi, dəstəyinizi hiss edəndə daha inamlı oluram. Mənim üçün böyük şərəfdir ki, insanlar mənə dəstək verir, məni sevir, mənə inanır. Sizi əmin etmək istəyirəm ki, mən sizin etimadınızı doğruldacağam".

Qaçqın və məcburi köçkünlərin gün-güzəranından, onlara göstərilən dövlət qayğısından bəhs edən "Vətən həsrəti... Sönməyən ümidlər" sənədli filminin çəkilişlərində iştirak edənlərin dilinin əzbərinə çevrildi Mehriban xanım Əliyeva. Onlar Prezident İlham Əliyevlə birgə Azərbaycanın birinci xanımının da yurdunu itirmiş insanlara qayğısından ürəklə, yorulmadan danışdılar. Mingəçevirdə dövlətin abad ev-eşiklə təmin etdiyi, Xocalıdan olan məcburi köçkün Nəsibə Allahyarovanın dedikləri də bunu təsdiqləyir: "Qəsəbəmizin açılışında Prezident İlham Əliyev və Mehriban Əliyeva bizdə də oldular. Onların sadəliyi, səmimiliyi bizi çaşdırmışdı. Elə bildim qardaşım, bacım qonaq gəlib bizə... Problemlərimizlə maraqlandılar. Qızımızın nişanlı olduğunu biləndə Mehriban xanım dedi ki, onun bütün cehizini alacağıq..."

### "Ən böyük sərvətimiz Azərbaycan xalqıdır"

Daim humanistliyi ilə seçilən, verdiyi vədi vaxtından əvvəl yerinə yetirən, xalqın sevgisini qazanan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı fəaliyyətində mühüm yerlərdən birini tutan digər bir məsələ də var. Bu, torpaqlarımız uğrunda canından keçən əsgər və zabitlərimizin şərəfini daim uca tutmaq, onların ailələrinin dövlət qayğısı ilə hərtərəfli təmin olunmasıdır. Bu yolda sağlamlığını itirmiş vətən oğulları da diqqətdən kənarda qalmayıb. 44 günlük Vətən müharibəsində sağlamlıqlarını itirmiş gənc əsgər və zabitlərimizin reabilitasiyasında Heydər Əliyev Fondunin xidmətləri misilsizdir. Bu gün də fond diqqət və qayğıya ehtiyacı olanlara köməyini əsirgəmir. Bundan daha öncə, "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi əsasında 100-dən çox zabit və əsgər müasir protezlərlə təmin olunub.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşərkən xalqımızın vətənpərvər övladlarının qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirdiyini, hər zaman onlara dəstək olacağını vurğuladı: "Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var..."

Mehriban xanım Əliyeva onu da bildirdi ki, Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma ən böyük sərvətimiz Azərbaycan xalqıdır: "Doğrudan da, Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib. Analarımız fəxr etməlidirlər ki, sizin kimi igid övladlar böyüdüblər..."

2018-2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olundu. Ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox müharibə əlili yenidən həyata qaytarılaraq əmək fəaliyyətini davam etdirir.

Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməmişdən əvvəl də xeyirxahlıq missiyası ilə bəşəriyyətdə özünə dərin rəğbət qazanmışdı. Həmin insanların sosial mənşəyi, siyasi baxışları və dünyagörüşləri də fərqli olub. Onların arasında yurdları təcavüzkar Ermənistan tərəfindən darmadağın edilmiş bir milyondan artıq qaçqın və məcburi köçkünün olması da təbiidir. Axı bu insanlar daha çox sosial yardıma, mənəvi dəstəyə ehtiyacı olanlar idi...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***







# Dost dayağı

## Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində həssas qrupa aid şəxslər üçün unikal imkanlar yaradılıb

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas prioriteti Azərbaycanda sosial inkişaf, həssas qruplara, xüsusi qayğıya ehtiyacı olan şəxslərə yüksək diqqət və onların problemlərinin həlli ilə bağlı mühüm xidmətləri gerçəkləşdirməkdir.

Bu baxımdan heç də təsadüfi deyil ki, əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədini daşıyan DOST layihəsi də məhz Mehriban Əliyevanın təşəbbüsü ilə gerçəkləşib və bu gün çox uğurla fəaliyyət göstərir. Bu mərkəzlərdə fiziki və hüquqi şəxslərə bir pəncərədən operativ və effektiv şəkildə, vahid standartlar əsasında, vətəndaşlarla nəzakətli davranış, açıq iş mühiti şəraitində xidmətlər göstərilir.

### Geniş inklüziv şərait

Mehriban Əliyevanın təşəbbüsləri əsasında icra olunan layihələrin bir istiqaməti də əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının artırılmasına yönəlib. Bu baxımdan, Birinci vitse-prezidentin təşəbbüsü nəticəsində yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzini qarşıya qoyulan məqsədlərin uğurlu icrası üçün unikal məkan adlandıra bilərik.

Ötən il oktyabr ayının 22-də Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi əlilliyi olan şəxslərin, şəhid ailəsi üzvlərinin, digər sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsində və cəmiyyətə təqdim edilməsində geniş inklüziv imkanlar açır. Tikintisi “PAŞA Holding” tərəfindən maliyyələşdirilən, arxitektura, layihələndirmə və təşkilati dəstək isə “Cobalt Architecture and Design” şirkəti tərəfindən təmin edilən mərkəz sosial tərəfdaşlıq prinsipinə uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə verilib.

Eyni vaxtda 100-dək şəxsə müxtəlif peşə bacarıqlarının öyrədildiyi mərkəzdə xalçaçılıq, tikiş, metal və ağac üzərində oyma, təsviri sənət, keramika, floristika, musiqi, audiosəsyazma və s. studiyalar, inzibati otaqlar, kitabxana fəaliyyət göstərir. Həmçinin mərkəzdə teatr quruluşları, müxtəlif konsert proqramları və s. üçün nəzərdə tutulan 121 yerlik auditoriya da yaradılıb.

### Parlaq Zəfərimiz istedadlı, yaradıcı insanlarımıza əlavə ruh, ilham verib

Biz də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanışlığımıza “Qaytağı” rəqsinin sədaları yayılan rəqs zalından başladıq. Milli rəqs təlimçisi Safura Əhmədova bildirir ki, burada fərqli yaş qruplarından olan benefisiarlara (təlimə gələnlər) təlim verir. Onların arasında uşaq sığınacağından, ailələrdən gələn uşaqlar, eyni zamanda daun sindromlu, autizm spektrli olanlar da var: “Yeni fəaliyyətə başlamağımıza baxmayaraq, öyrənmə baxımından benefisiarlarımızda xeyli irəliləyişlər müşahidə edirik. Onlar hər dəfə çox həvəslə və sevinclə rəqs öyrənməyə gəlirlər”.

Təlimçi, Dövlət Mahnı və Rəqs Ansamblının rəqqası Ruslan Hacıyev isə bildirir ki, sığınacaqdan, yaxud ailələrdən gələn uşaqlarla əlilliyi olan uşaqların, yaxud elə böyüklərin birlikdə fəaliyyəti, birgə rəqs dərsləri almalarının özü belə onları cəmiyyətə uyğunlaşdırır. Bununla bərabər musiqi duyumları yaxşılaşır, eyni zamanda onlarda fiziki baxımdan müsbət dəyişikliklər yaranır, qamətləri düzəlir.

Taxta-metal üzərində oyma emalatxanasına yollanırıq. Otaq başdan-başa qrup iştirakçılarının əl işləri ilə bəzədilib. Ən diqqətçəkən oymalar isə parlaq qələbəmizlə, Qarabağla, Şuşa ilə bağlı olanlardır. Ağac üzərində oyma vasitəsilə nəqş edilən Vaqifin məqbərəsini, xarıbülbülü, Şuşa qalasını, Zəfər gününə həsr edilən “Zəfər çırağı”nı gördükdə isə bir daha qürurla əmin olursan ki, 44 günlük Vətən müharibəsindəki Zəfərimiz istedadlı, yaradıcı insanlarımıza da əlavə ruh, ilham verib.

Mərkəzdə ağac üzərində oyma üzrə təlimçi, birinci qrup əlilliyi olan şəxs Asif Qasımov söyləyir ki, DOST İnklüziv və Yaradıcılıq Mərkəzinin açılması əlilliyi olan şəxslər üçün çox gözəl şansdır: “Evdə qapanıb hansısa bir işlə məşğul olmayan əlillər bu mərkəzə gəlib həm art terapiya ala bilərlər, həm də ki, sevdikləri peşə ilə məşğul ola bilərlər. Buna görə də Prezidentimiz cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya çox təşəkkür edirəm ki, belə bir möhtəşəm mərkəzi açıb bizim istifadəmizə veriblər”.

### “Mehriban xanımın yaratdığı bu mərkəzdə sanki özümü tapdım”

Keramika studiyasında da gərgin iş gedir və dulusçuluğun incəlikləri öyrənilir. Tünd rəngli gil qəribə dəzgahların üzərində müxtəlif formalara salınır, bir-birindən maraqlı və gözəl fiqurlar düzəldilir, qablar hazırlanır. Görmə əngəlli Səbinə də dulusçuluğa meyil salan istedadlı gənclərdəndir. Kənardan Səbinənin necə böyük səbr və həvəslə gildən qoç fiquru hazırlamasını izləyirik. 30 yaşlı xanım özü də deyir ki, bu fəaliyyətlə məşğul olanda sanki ruhu dincəlir.

Dulusçuluqla yanaşı, vokal ixtisası üzrə də məşğul olan Səbinə vurğulayır ki, Mehriban xanımın yaratdığı bu mərkəzdə sanki özünü tapıb: “Çox sevinirəm ki, Mehriban xanım bizim üçün bu cür gözəl bir məkan və fəaliyyətimiz üçün geniş imkanlar yaradıb. Bu bizim üçün böyük motivasiyadır. Ürəyində istək olan, lakin onu həyata keçirmək imkanı olmayan bütün insanlar gəlib burada özünü kəşf edə, sevdiyi peşə ilə məşğul ola bilərlər. Mən də üzümü o cür insanlara tutub deyirəm ki, heç zaman ruhdan düşməyin, siz də bura gəlin və inanın ki, özünüzü burada tapacaqsınız. Bütün bunlara görə Mehriban xanıma çox təşəkkür edirəm”.

Tikiş üzrə təlimçi Marina Məlikova 10-a yaxın benefisiara dərzilik öyrədir. Mütəxəssis həm də onlara modanın incəliklərini, sərgilərdə iştirak etməyin yollarını, tikdiyi paltarları necə nümayiş etdirməyin bütün sirlərini ən kiçik detalına qədər öyrədir.

Dərzilik öyrənən yerimə əngəli olan Cəmilə bizimlə söhbətində söyləyir ki, əvvəldən tikiş üzrə təcrübəsi var idi. Bu mərkəzə ona görə gəlir ki, özünü daha da təkmilləşdirsin və bu sayədə sevdiyi peşədən gəlir də əldə edə bilsin: “Bu mərkəzin açılması mənim kimi insanlar üçün çox böyük imkanlar açıb. Biz evdə qapanıb qalmırıq. Burada yaradılan hər cür şərait sayəsində həm psixoloji olaraq rahatlıq tapır, həm də seçdiyimiz peşə üzrə mükəmməl dərslər alırıq. Bu imkanı bizə yaratdığına görə Mehriban xanıma çox minnətdarıq”.

Divar boyu sıra-sıra rəsmlərin düzüldüyü işıqlı və geniş təsviri incəsənət studiyasına daxil oluruq. Böyük stolun ətrafında müxtəlif yaş qruplarından olan benefisiarlar əyləşərək əllərindəki rəngarəng karandaşlar və sulu boyalarla kağız üzərində həvəslə rəsm çəkirlər. Biri təbiəti təsvir etmək istəyir, biri natürmort çəkməyə can atır, biri isə əlindəki qırmızı karandaşla ağ kağızda sadəcə bir düz xətt cızır...

Təsviri incəsənət studiyasında təlimçi Kəmalə Aslanova deyir ki, burada fiziki qüsurlu, autizm spektrli, daun sindromlu, psixoloji problemləri olan, uşaq sığınacaqlarından gələnlər də var: “Buna görə də ilk məqsədimiz sosiallaşmaq, eyni zamanda onlara rəsm texnikasını öyrətməkdir. Hərəsinin öz qavrama səviyyəsinə uyğun tapşırıqlarımız olur. Lakin onlar tapşırıqları gözləmədiyimizdən də yüksək səviyyədə yerinə yetirirlər”.

Rəsm təlimçisi Aysel Əmirova da benefisiarlarından çox razıdır. O autizm spektrli Şamxalın, daun sindromlu Mehribanın, sığınacaqdan gələn Ləmanın çox gözəl rəsm çəkdiklərini söylədi.


























Mərkəzdə diqqətçəkən studiyalardan biri də floristika studiyasıdır. Floristika üzrə təlimçi Ülkər Mirzəyeva məlumat verdi ki, burada floristika və landşaft istedadlı olduqlarını, dizaynının təlimi, süni, qurudulmuş və canlı güllərdən natürmortların, kompozisiyaların hazırlanması, terrarium, bitki rezervuarlarının dizaynı və sairə üzrə bacarıqlar inkişaf etdirilir. Təlimçi qeyd etdi ki, əgər bu işlə məşğul olan şəxsin öz qabiliyyəti, güclü fantaziyası varsa, bu mərkəzdə işini daha da təkmilləşdirib dünya səviyyəli sərgilərə çıxara bilər: “Mehriban xanımın yaratdığı bu mərkəz heç bir sosiallaşma imkanı olmayan insanlar üçün birbaşa gözəl şansdır ki, inkişaf etsin, ətraf mühitə adaptasiya olsunlar”.

Xalçaçılıq və toxuma studiyasında bu peşə ilə məşğul olmaq üçün bütün imkanlar yaradılıb. Xalçaçılıq üzrə təlimçi Ayturan Əliyeva məlumat verdi ki, burada həftənin 6 günü Azərbaycan xalçaçılıq sənəti tədris edilir və xalçaçılığı öyrənməyə gələnlər böyük həvəslə bu peşəyə yiyələnməyə çalışırlar.

### Cənubi Qafqazda ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı

Buranın Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini birləşdirən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı olduğunu söyləyən mərkəzin direktoru Pərvinə İsmayılova bildirdi ki, mərkəzdə əlilliyi olan şəxslərin, digər sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi və onların cəmiyyətə inteqrasiya olunması üçün geniş imkanlar yaradılıb: “Bu cür mərkəzin açılması Mehriban xanımın həssas əhali qrupundan olan şəxslərə qayğısının əyani təzahürüdür. Hələ bu mərkəz yaranana qədər də daim Mehriban xanımın mərhəmətli əlini üzərimizdə hiss edirdik. Belə ki, Mehriban xanımın dəstəyi ilə hər zaman əlilliyi olan şəxslərin əl işlərindən ibarət sərgiləri təşkil edir, səhnəyə teatr tamaşaları qoyurduq. 2016-cı ildə yaranan Əsa Teatrı 2018-ci ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin patronajlığı ilə fəaliyyət göstərir, yeni tamaşalar ərsəyə gətirir. O cümlədən 2019-cu ildə bu nazirliyin dəstəyi ilə Abdulla Şaiq adına Kukla Teatrı nəzdində iki teatr studiyası yaratmışıq - “Oyun” və “Küllücə”.

Pərvinə İsmayılova vurğulayır ki, bu mərkəz açılana qədər müxtəlif sənət və yaradıcılıq sahələri üzrə ayrı-ayrılıqda fəaliyyət göstərilirdi, amma Mehriban xanımın iti düşüncəsi və daim onları nəzarətdə saxlaması nəticəsində dövlət səviyyəsində bu cür mərkəzləşmiş və müasir inklüziv bir məkan yaradıldı: “Mərkəzin əsas üstünlüyü odur ki, onun daxilində bir neçə xidmət birləşdirilib. Belə ki, geniş profilli yaradıcılıq və reabilitasiya mərkəzi yaradılıb. Bu məkanın digər bir unikallığı isə ondadır ki, mərkəzdən sertifikat alan istedadlı şəxslər nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi vasitəsilə aktivlərlə təmin edilir və özünüməşğulluğa cəlb olunmaları nəzərdə tutulur. Qarşıdakı planlarımızdan biri isə, gələcəkdə mərkəz tərəfindən verilmiş sertifikatların ali məktəblərə qəbul zamanı nəzərə alınması, həmin istedadlı şəxslərə müəyyən imtiyazların (təqaüd kimi və s.) tətbiq edilməsidir. Hətta belə nümunə kimi Avropada da geniş yayılmış Qlazqo Universitetinin tədris planını göstərə bilərik (University of Glasgow)”.

Mərkəzin direktoru onu da bildirdi ki, bura gələnlərin bir hissəsi göstərilən xidmətlərdən yararlanmaq üçün fəaliyyət qabiliyyətinə malik deyildir. Buna görə də sosial cəhətdən həssas qrupa daxil olan şəxslərin bir qismi (kimsəsiz, baxımsız uşaqlar, asperger, daun sindromlu, autizm spektrli şəxslər və s.) reabilitasiya və sosial adaptasiya məqsədilə mərkəzdə art terapiyalara, teatral terapiyalara cəlb olunurlar.

Həmçinin təlimlər zamanı benefisiarlar mərkəzdə yaradılmış multidissiplinar qrup tərəfindən sosial pedaqoji və psixoloji dəstək proqramlarına cəlb olunurlar. Bu qrupda psixiatr, psixoloq, sosial işçi, erqoterapevt və psixopedaqoq (uşaq qrupu üçün), eyni zamanda surdoloq və loqoped-defektoloq fəaliyyət göstərirlər. Məqsədimiz müxtəlif istedad və bacarığa sahib və sosial cəhətdən həssas qrupdan olan şəxslərin bir mərkəzdə birləşərək inklüziv cəmiyyətdə özlərini inkişaf etdirmələrinə, dünyaya öz istedad və potensialını göstərmələrinə və yeni imkanlara doğru atılmalarına dəstək olmaqdır.

Ümumilikdə mərkəzdə həyata keçirilən bütün bu kompleks tədbirlər planının məqsədi cəmiyyətdən ayrılmış bir uşağın, yeniyetmənin, gəncin cəmiyyətə inteqrasiyası və qaytarılmasıdır”.

Direktor məlumat verdi ki, mərkəzin “Şuşa ili” ilə bağlı tədbirlər planı da var. Belə ki, mərkəz bu il “Şuşa ili”nə həsr olunmuş konsert və əl işlərindən ibarət sərgi-satış yarmarkası keçirməyi nəzərdə tutur. Eyni zamanda, önümüzdəki aylarda yeni tamaşalar və musiqili konsert proqramlarının ərsəyə gətirilməsi, festivalların, inklüziv moda nümayişlərinin, eləcə də tanınmış şəxslərlə ustad dərslərinin keçirilməsi planlaşdırılır. Əlavə olaraq bu il mərkəzdə dəstəyimizlə ərsəyə gəlmiş bədii filmin təqdimatı da baş tutacaqdır. Birinci və İkinci Qarabağ müharibəsində zərər çəkmiş qadınların həyatı haqqında çəkilmiş film “Köhnə çamadanlar” adlanır. Real hadisələr əsasında çəkilmiş filmdə kino və teatr sahəsinin tanınmış simaları yer alır.

### Əlillik qüsur deyil

İnsan enerjisi bitib-tükənməz, sonsuzdur və heç bir əngəl tanımır...

O, həyata keçirdiyi hansısa bir işi əli, ayağı, gözü olduğu üçün deyil, yer üzünün ali məxluqu olduğu üçün həyata keçirə bilir... Zahirdə görünən bu əl-ayaq, qulaq, göz, dil isə, sadəcə, bir vasitədir...

Əlləri olmayan birinin mükəmməl rəsm çəkdiyinin, eşitməyən birinin necə incə melodiyalar bəstələdiyinin, gözləri görməyən birinin dünyanı daha rəngli təsvir etdiyinin və daha neçə “möcüzə” adlandırdığımız hadisələrin şahidiyik...

Elə Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə yaradılan Dost İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində qısa zamanda etdiyimiz müşahidələr, tanış olduğumuz istedadlı, yaradıcı insanlar da bir daha təkzibolunmaz şəkildə sübut etdi ki, insan sadəcə fiziki varlıq deyil və buna görə də əlillik onun üçün qüsur sayıla bilməz.

Buna görə də sadəcə könüllərində, ruhlarında olan yaratmaq, qurmaq eşqini üzə çıxarmaları üçün onlara şərait yaradılmalıdır.

Necə ki, bu müstəsna imkanları hər zaman Mehriban Əliyeva onlar üçün yaradır, qurur...

### Mehriban Əliyevanın seçimi

Bəli, əsas diqqətini sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirən Birinci vitse-prezident Mehriban Əliyeva bu problemlər qarşısında aciz qalan insanlara kömək etmək, çarəsizlərə dayaq durmaq, onlara mənəvi dəstək olmaq üçün saysız-hesabsız layihələr, təşəbbüslər gerçəkləşdirir. Və elə Mehriban Əliyevanın bu misilsiz təəssübkeşlik və humanizm prinsiplərini özündə ehtiva edən xeyirxah əməllərinə görə illərdir Azərbaycanda insanlar onu özlərinin mənəvi dostu, ümid, pənah ünvanı hesab edirlər.

Mehriban Əliyeva özü isə ən böyük xoşbəxtliyini insanlara kömək edə bildiyində duyduğu sevinc hissində görür: “Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir”.

*Yasəmən MUSAYEVA,*
*“Azərbaycan”*

# Sülh və əmin-amanlıq carçısı

Müdriklər yüzilliklər boyu tarixi simaların cəmiyyətdəki davranışlarını araşdırmağa və məqbul sayıla bilən davranış qaydalarını sistem kimi təqdim etməyə çalışıblar. Antik fəlsəfəni özünəməxsus tərzdə xəlbirləyən fransız filosofu P.Ado nəinki antik dövrə, hətta bütün zamanlara xas olan yaşam düsturunu - "necə yaşamağı", "necə dialoq aparmağı", "necə öyrənməyi və dünyanı necə dərk etməyi" kəşf edib. Əslində, antik dövrün və günümüzün müdrikləri dahilərin yaşam fəlsəfəsini araşdırmaqla yox, minillik nümunələrin zəminində bugünün yozumlarını təyin etməyə can atıblar.

Bu gün Qafqaz ölkələrindəki müxtəlif ranqlı liderlərin siyasi dialoq, danışıq bacarıqlarına bəşəriyyətin mövcud fəlsəfi bilikləri prizmasından baxmaq vacibdir. Ado tərəflərin dialoqu haqqında yazır ki, həqiqət zəruridir, lakin bu həqiqətə tərəflər birgə səylərlə yaxınlaşmalıdır. Dialoqa atılan addımlar qarşılıqlı və səmimi olmalıdır. Amma gördüyümüz odur ki, Ermənistan-Azərbaycan münaqişəsinin 30 illik tarixində ermənilərin tərəf kimi ədalətli dialoqa can atmasını sübut edən bircə amil belə yoxdur. Biz antik fəlsəfəni bir yana qoyub, müqəddəs kitabımıza müraciət etsək, hərb və sülh danışıqlarının aparılması barədə maraqlı fikirlərlə rastlaşarıq. Tanrı bizə dəfələrlə tövsiyə edir ki, istənilən savaşda barışa və sülhə yer saxlamaq lazımdır. Yəni sən bilməlisən ki, üz-üzə durduğun düşmənlə gec-tez barışmalısan, sülhə köklənməyə məcbursan. Prezident İlham Əliyev səbirlə uzun illər ərzində erməniləri dialoqa, danışıqlara çağırdı, hətta erməni ordusunun darmadağın edildiyi hər gün onlara Azərbaycan torpaqlarından rədd olub getməyə şans verdi. Onlar bunu anlamadılar.

Məqsədimiz bu illər ərzində Azərbaycanın birinci xanımının sərgilədiyi siyasi mövqeyi də göstərməkdir. O, həmişə iki xalqın sülh və əmin-amanlıq şəraitində yaşamalı olduğunu diqqətə çatdırıb, eyni zamanda bütün ifadələrində erməni faşizmi ilə erməni xalqı arasında fərqi dəqiq büruzə verib və Azərbaycan tərəfinin yüksək dəyərləri qiymətləndirdiyini qeyd edib. Amma bunu qarşı tərəf, elə heç olmasa Ermənistanın birinci xanımı anlayıbmı?

Antik yunan filosofu Platon belə hesab edirdi ki, dialektik dialoqda rəqabət mübarizəsi ilə yanaşı, konsensusa - ortaq məxrəcə gəlməyin də sevinci mövcud olmalıdır. Platona görə, dialoqa qoşulan hər iki tərəf həqiqətə can atmalı və onun tapılacağına inanmalıdır. Müqəddəs kitabımızda müxtəlif ayələrdə deyilir ki, ən ağır mübahisəni də gözəl sözlərlə aparın, elə davranın ki, düşmənin barışacağı günü də əvvəlcədən görə biləsiniz. Bu baxımdan Azərbaycanın birinci xanımı qüsursuz davranışlar nümayiş etdirdi. Müharibənin ən ağır günlərində belə əsl ana, Azərbaycan qadını kimi sonadək barış və sülhə qollarını açdı, bircə kəlmə ilə də olsa, kinini və nifrətini ifadə etmədi.

Ermənistan liderinin həyat yoldaşının isə 44 günlük müharibədə özünü qalan yerdən də biabır etməsi yadınızdadırmı? O, bir tərəfdən İrəvanda sülhlə bağlı beynəlxalq forumda iştirak edirdi, digər tərəfdən isə Qarabağa cumub təlimlər keçirirdi. Rus şairi Voznesenskinin qadının yeri haqqında gözəl misraları var: "İkona ilə şam arasındadır sənin yerin, öz yerini bil, mənim əzizim..."

Təəssüf ki, Ermənistanın birinci xanımı bu günədək öz yerini tapa bilməyib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Anna Akopyanın "siyasi debat"a çağırışlarına məhəl qoymadı, diplomatik dildə bunun tərcüməsi o deməkdir ki, get tayını tap. 2019-cu ildə Anna Akopyanın Azərbaycanın birinci xanımını "muğam məclisi"nə "dəvət"i də heç bir əxlaqa sığmayan gülünc jest kimi Ermənistan tarixinə həkk olundu. Anna onda belə yazmışdı: "Mən indi Mehriban Əliyevanı Qarabağa dəvət etmək istəyirəm və o, bizim qonağımız ola bilər. Erməni xalqı və artsaxlılar qonağı necə qarşılamaq və hörmət göstərməyi yaxşı bilirlər. Bu, həqiqətən dəvətdir... Onun Qarabağda sevimli muğamını dinləmək arzusu yerinə yetər". Qonşu dövlətin ərazisini işğal edəsən, 30 il bu torpaqları viran qoyasan və bütün beynəlxalq normalara tüpürərək təhqiramiz bir tonda ölkənin Birinci vitse-prezidentini öz torpağına muğam dinləməyə çağırasan?! Mehriban xanım bir müddət sonra Qarabağda möhtəşəm muğam festivalı təşkil etməklə özünə və təbiətinə xas tərzdə Annaya cavab verdi.

Birinci vitse-prezident, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın həyat fəlsəfəsi Azərbaycan qadınının minillik siması ilə vəhdət təşkil edir və harmonik bir tərzdə uzlaşır. Mehriban xanım həm Prezident İlham Əliyevin ömür-gün yoldaşı, həm də ən yaxın silahdaşı kimi bütün fəaliyyətini ölkəmizin hərtərəfli tərəqqisinə, Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərinin tərənnümünə həsr edib. Bu baxımdan onun regionda kiminləsə müqayisə edilməsi qeyri- mümkündür. Mehriban xanım dünyaya müasir Azərbaycan qadınının qürur doğuran fərqli surətini ləyaqətlə təqdim edir. Onun atdığı bütün addımlar, reallaşdırdığı çoxsaylı layihə bunu təsdiq edir.

Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri kimi qeyri-maddi mədəni irsin qorunması istiqamətində İçərişəhər, o cümlədən Şirvanşahlar sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri və Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilməsinə, muğam və aşıq sənətimizin, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi" və Azərbaycan kəlağayı sənətinin Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınmasına nail olmuşdur.

Mehriban xanım 2017-ci ildə Birinci vitse-prezident vəzifəsinə təyin edildikdən sonra onun fəaliyyəti daha geniş və daha zəngin olmuşdur. O, uzun illərdir ki, ev-eşiklərini itirən məcburi köçkünlərə analıq edir, Heydər Əliyev Fondunun xətti ilə Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrinin və qazilərimizin könüllü qəyyumuna çevrilib.

Ermənistanın birinci xanımı 44 günlük müharibədə səngərlərdə poz verəndə ağır yaralanan qazilərimizin Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə müalicəsi təşkil edilirdi. İndi isə müharibədə sağlamlıqlarını itirmiş əsgər və zabitlər yüksək texnologiyalı protezlərlə təmin olunur. 10 minlərlə erməni müharibədən fərari kimi qaçmışdı. Onların sırasında Qarabağdan təcili qaçıb dünya turnesinə çıxan ermənilərin birinci xanımı da var idi.

Mehriban xanım işğaldan azad edilmiş bütün bölgələrə dövlət başçısı ilə birlikdə dəfələrlə səfərlərə çıxanda ermənilərin sevimli ledisinin haralara qaçıb gizləndiyi məlum deyildi. Böyük qələbədən sonra Prezidentimizlə birlikdə Qarabağa çoxsaylı səfərin, dünyaya səs salan möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının təşkili birinci xanımın xidmətləri sırasında xüsusi yer tutur. "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" Bu, birinci xanımın xeyir-duası idi.

Şuşadan muğam səsi, Üzeyir bəyin yeri-göyü silkələyən uvertürası ucaldı və bu səsin əks-sədası bütün dünyaya yayıldı. Bir neçə ay əvvəl Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı ilə Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtında keçirilmiş "Xarıbülbül" festivalı bütün faşist ideologiyasına verilən ən tutarlı cavabdır. Bu gün Vaqifin məqbərəsi, Bülbülün ev-muzeyi bərpa edilmiş, Üzeyir bəyin heykəli doğma Şuşasına qaytarılmışdır. Hər gün bu tədbirlərin sayı artır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***



# Əsl vətəndaşlıq missiyası

Vətən müharibəsindəki qələbədən sonra müasir tarixinin yeni mərhələsinə qədəm qoyan respublikamız Prezident İlham Əliyevin müdrikliyi ilə növbəti uğurlara imza atır. Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahədə mühüm makroiqtisadi göstəricilərin əldə olunması bu dövrün əsas uğurlu prosesləridir.

## Mehriban Əliyevanın təşəbbüsləri ilə görülən işlər çoxşaxəli və misilsizdir

Belə bir vaxtda hər kəsin mənəvi borclarından biri öz əməlləri və fəaliyyəti ilə respublikamızın bu uğurlarına layiqli töhfələr verməsidir. Bu mənada Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın uzun illərdir ki, müxtəlif istiqamətlərdə həyata keçirdiyi fəaliyyət hər kəs üçün ən gözəl örnəkdir.

İşgüzarlığı və prinsipiallığı ilə seçilən Mehriban Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Ona görə Mehriban Əliyevanı xarakterizə edən məqamlar da olduqca əhatəlidir. Bu fəaliyyətin bir istiqamətini milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği, Azərbaycanın beynəlxalq aləmdə tanıdılması təşkil edir. İndiyədək keçirilən muğam musiqi müsabiqələri, dünya şöhrətli musiqiçilərin yubileylərinə həsr edilmiş beynəlxalq festivalların keçirilməsi, xarici ölkələrdə müxtəlif sərgilərin təşkili məhz Azərbaycanın təbliğinə, dünyada tanıdılmasına xidmət edib. Həmçinin tarixi abidələrin bərpası, təhsil və səhiyyə sahəsində layihələrin həyata keçirilməsi daim Mehriban Əliyevanın fəaliyyətinin prioritet istiqamətlərini təşkil edib. Təhsilin, xüsusən məktəbəqədər təhsilin inkişafında Mehriban Əliyevanın təşəbbüsləri ilə görülən işlər çoxşaxəli və misilsizdir.

Mehriban Əliyeva həm də xeyriyyəçi və qayğıkeş insandır. Hələ 2004-cü ildə Heydər Əliyev Fondu fəaliyyətə başlayarkən ehtiyacı olanlara qayğı göstərilməsini qarşıya əsas vəzifələrdən biri kimi qoyan Mehriban Əliyeva hər zaman valideyn himayəsindən məhrum olmuş və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların, kimsəsiz insanların yanındadır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə aztəminatlı insanlara, xəstəliklərdən, o cümlədən irsi qan xəstəliklərindən, talassemiya və diabetdən əziyyət çəkən vətəndaşlara kömək göstərilməsinə yönəlmiş müxtəlif proqramlar məhz bu məqsədə xidmət edir. Bu xeyriyyəçilik tədbirlərinin nəticəsində yüzlərlə vətəndaşımız sağalaraq normal həyata qayıdıb.

İctimai-siyasi vəzifələrlə yanaşı, Mehriban Əliyeva həm də Yeni Azərbaycan Partiyası sədrinin birinci müavinidir. Öz fəaliyyəti ilə partiyanın möhkəmlənməsi, sıralarının artması üçün çox böyük əmək sərf edir.

Mehriban Əliyeva ona həvalə edilən bütün vəzifələri uğurla yerinə yetirərək Azərbaycanın beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət edib. "Eurovision" mahnı müsabiqəsində, I Avropa Oyunlarında, IV İslam Həmrəyliyi Oyunlarında onun rəhbərliyi ilə Təşkilat komitəsi Azərbaycanı bütün dünyada ideal evsahibliyi edən ölkə kimi tanıdıb.

## Cəmiyyətin məmnuniyyət və minnətdarlıqla qarşıladığı fəaliyyət

Mehriban Əliyeva genişmiqyaslı, müxtəlif sahələri əhatə edən fəaliyyətinin bütün cəhətləri ilə xalqın yanında olan siyasi-ictimai xadimdir. O, insanların güvənc yeridir, dayağıdır. Ona görə də 5 il əvvəl - 2017-ci il fevralın 21-də Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması alqışlarla, dərin minnətdarlıqla qarşılandı.

Bu dövrdə Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti regionda və dünyada Azərbaycanın daha da tanıdılmasında, layiq olduğu yüksək imicin formalaşmasında müstəsna rol oynayır. Onun təşəbbüsü ilə həyata keçirilən tədbirlər ölkəmizin hüdudlarından kənarda da rəğbətlə qarşılanır. Ən əsası, bu tədbirlər dövlət siyasətinin daha böyük uğurlar qazanmasına xidmət edir.

Ötən 5 il Azərbaycanın müasir tarixində mühüm hadisələrlə əlamətdardır. Bu dövrün əsas hadisəsi torpaqlarımızın işğaldan azad edilməsi oldu. Prezident, Ali Baş Komandan İlham Əliyev öz müdrik siyasəti və qətiyyəti ilə 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi. Hələ döyüşlərin davam etdiyi günlərdə Azərbaycan xalqı Mehriban Əliyevanın necə yüksək vətənpərvərlik hisslərinə malik olduğunu gördü. Azərbaycanın Birinci vitse-prezidentinin rəsmi "İnstaqram" səhifəsində etdiyi paylaşımlar, kənd və şəhərlərimiz azad olunduqca ünvanladığı təbriklər cəmiyyətimizdə mövcud qələbə əzmini daha da gücləndirirdi. Azərbaycanın Birinci vitse-prezidentinin "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" sözləri hər kəsi riqqətə gətirdi, torpaqlarımızın azad olunacağı günlərin uzaqda olmadığını göstərdi.

Müharibə günlərində və ondan sonra Mehriban Əliyevanın döyüşlərdə yaralanmış hərbçilərimizin müalicəsini öz nəzarətinə götürməsi cəmiyyətimizin dərin minnətdarlığı ilə qarşılandı. Mehriban Əliyeva Prezident İlham Əliyevlə birlikdə hospitala gedərək yaralılara baş çəkdi, onların müalicəsinin gedişi ilə maraqlandı.

Bu gün isə işğaldan azad olunmuş ərazilərimizdə gedən bərpa və quruculuq işlərində Mehriban Əliyevanın vətəndaşlıq missiyasını görürük. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu hazırda Qarabağ və Şərqi Zəngəzurda tarixi və dini abidələrin bərpa olunmasında yaxından iştirak edir, bütövlükdə azad olunmuş torpaqlarımızın yenidən qurulmasına öz töhfələrini verir.

Birinci vitse-prezident xanım Mehriban Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyət hər bir vətəndaş, bütövlükdə cəmiyyətimiz tərəfindən dərin məmnuniyyət, razılıq və minnətdarlıq hissi ilə qarşılanır. Çünki bu fəaliyyət bir mərama - Azərbaycanın yüksəlişinə xidmət edir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***



# Gələcəyə ümidlə

## Mehriban Əliyevanın təşəbbüsü ilə inşa edilən Autizm Mərkəzində uşaqların reabilitasiyası üçün mükəmməl şərait yaradılıb







Səmanın rəngidir mavi, dənizin, üfüqün də... Azadlığı, səssizliyi, sonsuzluğu ifadə edir bir də bu rəng. Həm də autizmin rəngidir...

Simvol kimi məhz bu rəngin seçilməsi heç də təsadüfi deyil. Autizm spektr pozğunluğu olan insanların sinir sistemləri, göz quruluşları rəngləri digərlərindən fərqli həssaslıqla qəbul edir, qavrayır. Ona görə soyuq, qıcıq rəng yaratmayan rənglər, xüsusən də mavi rəng ən sevdikləridir onların...

Son 4-5 ildir ki, ölkəmizdə, ümumiyyətlə, dünyada autizmli uşaqların sayı artıb. Ötən ilin statistikasına görə, dünyaya gələn hər 44 körpədən biri autizm xəstəsidir.

Autizm spektr pozuntusu olan uşaqların intensiv terapiya alması, həyat bacarıqlarını inkişaf etdirməsi onların reabilitasiyası baxımından olduqca vacibdir. Bakının Nizami rayonunda yerləşən və ölkəmizdə xeyirxahlıq, mərhəmət və insanlara qayğı ünvanı kimi tanınan Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən Autizm Mərkəzinin də məqsədi məhz bundan ibarətdir.

Autizm spektr pozuntulu uşaqlar üçün bərpa mərkəzi 2013-cü ildən fəaliyyət göstərir. Lakin indiyədək mərkəzin özünün daimi yerləşdiyi bina olmayıb. Ötən il dekabrın 31-i - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində istifadəyə verilən mərkəzin binası autizm spektr pozuntulu uşaqlar üçün əsl hədiyyə oldu.

Ən müasir standartlara cavab verən mərkəzin 21 dərs otağı var. Autizmli şəxslərin istər fizioloji, istərsə də fiziki inkişafına ciddi dəstək verən bütün lazımi avadanlıqlarla təmin olunmuş bu məkanda individual yanaşma ilə gerçəkləşdirilən dərs prosesinin aparıldığı otaqlarla yanaşı, xüsusi terapiyalar üçün idman zalı, autizmli şəxslərin özünəqulluq bacarıqlarını inkişaf etdirə biləcəkləri nümunəvi yaşam otaqları, musiqi kabineti yaradılıb.

Autizmli şəxslərlə işin hər bir mərhələsi individual xarakter daşıyır. Daha sonra onlar tədricən cəmiyyətə inteqrasiya olunurlar. Əslində, son məqsəd də elə budur. Uşaqların özlərini tədricən sərbəst şəkildə idarə etmələri və yaşaya bilmələri çox önəmlidir.

Mərkəzdə 40-a qədər mütəxəssis çalışır, hamısı da yüksək ixtisaslı, öz işinin ustasıdır. Yeri gəlmişkən, inklüziv məktəblərdə çalışan mütəxəssislərə yalnız autizmli uşaqlara qarşı deyil, bütün xüsusi qayğıya ehtiyacı olanlara da doğru, sosial və elmi yanaşmalar üçün təlim keçirilib.

Mərkəzdə atelye də fəaliyyət göstərir. Autizmli şəxslərin valideynlərinin, xüsusən də anaların əksəriyyəti diaqnoz qoyulandan etibarən çox yaxşı təhsil aldıqları halda iş həyatını bitirmək, özlərini yalnız övladlarına həsr etmək məcburiyyətində qalırlar. Bu isə onların psixoloji vəziyyətinə mənfi təsir edir və tədricən cəmiyyətə yararlı olmadıqları fikrinə qapılırlar. Bunun üçün mərkəz tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq əsasında bu cür analara dəstək verilir. Analar atelyedə çalışaraq həm öz bacarıqlarını inkişaf etdirir, həm də mərkəzə, dolayısı ilə öz övladlarına fayda vermiş olurlar.

Mərkəzin geniş oyun və idman meydançası da var. Valideynlər autizmli övladlarını digər uşaqlar kimi parka gəzintiyə apardıqda fərqli münasibətlə qarşılaşdıqlarını düşünürlər. Ona görə autizmli uşağın əlavə bir travma almaması üçün onu belə yerlərə aparmamağa çalışırlar. Mərkəzdə bunlar da nəzərə alınıb. Burada yaradılmış şərait autizmli uşaqların rahatlıqla əylənməsinə imkan verir. Mərkəzin həyətində velosiped zolağı da var. Yaxın vaxtlarda isə əkin-biçinlə məşğul olmaq, ev heyvanlarının saxlanması üçün xüsusi yerlər istifadəyə veriləcək.

Mərkəzin direktoru Aytən Eynalova ilə burada fəaliyyət göstərən "Kashalata cafe"də söhbəti davam etdiririk. O, böyük minnətdarlıqla söyləyir ki, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısını hər zaman hiss edirlər. Deyir ki, Mehriban xanım Əliyeva qısa zaman kəsiyində 3 dəfə qızları ilə birlikdə mərkəzi ziyarət edib. Hər ziyarətdə də uşaqlarla çox gözəl və fərqli ünsiyyət qurublar. Hətta sonuncu dəfə mərkəzdə yerləşən "Kashalata kafe"də uşaqlarla birgə şirniyyat da hazırlayıblar. Mərkəzdə "Mavi ürəklər" adlı xor və ritm qrupu da fəaliyyət göstərir. Mehriban Əliyeva onların çıxışlarını dinləyib və bəyənib.

Bura bəlkə də dünyada yeganə məkandır ki, personalı autizmli şəxslərdir. Onlar mütəxəssislərin bilavasitə nəzarəti altında həm menyudakı şirniyyatların hazırlanmasında, həm də xidmət sahəsində fəaliyyət göstərirlər. Pandemiya səbəbindən kafe hələlik hamıya açıq deyil. Ancaq yaxın gələcəkdə hər kəs kafeyə baş çəkə biləcək.

Kafedə 23 yaşlı Şamxal Xələfli ilə tanış olduq. O, ölkəmizdə autizm diaqnozu qoyulmuş ilk uşaq olub. Şamxal bizi öz əlləri ilə süzdüyü çaya və şirniyyata qonaq etdi. Bu əsnada anası Zəhra xanımla da dərdləşdik. Övladının bu mərkəzə 4 ildir ki, gəldiyini, o vaxta qədər isə necə əziyyətlər çəkdiyini anlatdı. Respublikamızda belə bir məkanın olmadığından qonşu ölkələrə getmək məcburiyyətində qaldıqlarını, amma orada da maddi çətinliklər ucbatından 5 gündən artıq qala bilmədiklərini dedi. Mərkəz yaradılandan isə ailənin bu sosial qayğısı da başa çatıb.

Mərkəz ailələrlə sıx ünsiyyət yaradıb. Onlara dəstək vermək, doğru yol göstərmək, istər özlərinin ümumi psixoloji vəziyyəti, istərsə də övladları barədə gələcək planlarının qurulmasında ata-analara məsləhətçi olur. Mütəmadi olaraq valideynlərə mütəxəssislərin nəzarəti altında qrup terapiyaları da təşkil edilir. Valideynlər üçün ayrıca təlimlər keçirilir ki, uşaqlar evə getdikdə burada qurulan metodikanı evdə də davam etdirsinlər. Valideynlər həftədə bir dəfə mütləq şəkildə dərslərdə iştirak edirlər. Valideynlərdən ibarət Məşvərət Şurası dövlət qurumları ilə görüşlər həyata keçirir.

Autizm Mərkəzinin fəaliyyəti, onun yeni binasının inşası Azərbaycanda həyata keçirilən sosial siyasətin ən gözəl nümunələrindən biridir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyəsi, təhsili, asudə vaxtlarının səmərəli təşkili hər zaman Heydər Əliyev Fondunun prioritet istiqamətlərindən olub. Autizm Mərkəzi də bunun gözəl nümunələrindəndir.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***









# Azərbaycan Rus İcmasının Respublika Şurasının iclası keçirilib





AZƏRTAC xəbər verir ki, Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin iclasda giriş sözü söyləyib.

M. Zabelin 2020-ci ilin yanvarından 2022-ci ilin yanvarınadək olan dövrdə təşkilatın fəaliyyəti haqqında hesabat məruzəsini təqdim edib.

Azərbaycan Rus İcmasının sədri Mixail Zabelin tədbir iştirakçılarına icmanın fəaliyyəti haqqında ətraflı məlumat verib. O qeyd edib ki, Rus icması xeyriyyə tədbirlərində fəal iştirak edir. Məsələn, keçən il icma "Məktəbə hazırlaşmağa kömək et" aksiyasında iştirak edib, ölkənin müxtəlif regionlarında şagirdlərə içərisində məktəb ləvazimatları olan çantalar verilib.

Həmçinin Moskva şəhərinin hökumətinin Xarici İqtisadi və Beynəlxalq Əlaqələr Departamentinin dəstəyi ilə icmanın üzvləri olan müharibə veteranlarına tibbi cihazlar təqdim olunub. İkinci Dünya müharibəsinin iştirakçılarına və imkansızlara Rus İcması xətti ilə maddi yardım göstərilir.

M.Zabelin qeyd etdi ki, Azərbaycan xalqı əsrlərboyu yüksək dərəcəsinə görə multikulturalizm və tolerantlıq xüsusiyyətləri ilə fərqlənib. O deyib: "Məhz bu səbəbdən respublikada ictimai-siyasi sabitlik qalır (saxlanır)... Azərbaycan Rus İcmasının nüfuzu və şöhrəti sayəsində Moskva hökuməti ilə, Xarici İqtisadi və Beynəlxalq Əlaqələr Departamenti və başqa strukturlarla səmərəli işgüzar münasibətlər qurulmasına imkan yaranıb".

İcmanın sədri Prezidentin Administrasiyası, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Mədəniyyət Nazirliyi və Milli Məclisin deputatları tərəfindən Rus İcmasının dəstəklənməsini ayrıca vurğulayıb, rus dilinin inkişafına və rus mədəniyyətinin qorunub saxlanmasına yönəlmiş proqramların reallaşdırılmasında icmanın dəstəklənməsinə görə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə təşəkkürünü bildirib.

Mixail Zabelin daha sonra əlavə edib ki, Azərbaycanda yaşayan ruslar Azərbaycan və Rusiya prezidentlərinin iki ölkənin hərtərəfli əlaqələrinin inkişafına, beynəlxalq terrorizmə qarşı mübarizədə onların sıx əməkdaşlığına, iki xalqın dostluğunun möhkəmləndirilməsinə yönəldilmiş siyasətini dəstəkləyirlər. İcmanın sədri sonda deyib: "Mehriban qonşuluq, yüksək mənəviyyat, qarşılıqlı hörmət - bizim əməkdaşlığımızın əsasıdır. Azərbaycan və Rusiya xalqları arasında dostluğun müsbət potensialının qorunub saxlanması və artırılması - bizim strateji istiqamətimiz belədir".

Sonra iclasda Milli Məclisin deputatı Şahin Seyidzadə, Azərbaycan Rus İcmasının sədr müavini Anastasiya Lavrina, Vətən müharibəsinin iştirakçısı Denis Quzlayev, Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Assosiasiyasının sədri Lyubov Yakunina və başqaları çıxış ediblər. Onlar icmanın fəaliyyəti, layihələri və proqramları barədə danışıb, Azərbaycanda yaşayan ruslara göstərilən dəstəyi vurğulayıblar.

Sonda Azərbaycan Rus İcmasının hesabat-seçki konfransının qətnaməsi qəbul edilib. Mixail Zabelin yenidən icmanın sədri vəzifəsinə seçilib.

# Xocavənd istiqamətində mövqelərimiz atəşə tutulub

Azərbaycan Ordusunun Xocavənd rayonunun Tağaverd kəndi istiqamətində yerləşən mövqeləri fevralın 19-u saat 15:40-dan etibarən Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən heç bir səbəb olmadan fasilələrlə atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən cavab tədbirləri ilə qarşı tərəf susdurulub.

# Hərbi Dəniz Qüvvələrində kompleks yoxlamanın nəticələrinə dair xidməti müşavirə

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Hərbi Dəniz Qüvvələrində (HDQ) olub, qəfil yoxlama keçirib.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gəmi heyətləri "Həyəcan" siqnalı ilə qaldırılaraq döyüşə hazırolma vəziyyətinə gətirilib, döyüş zamanı komandirlərin çevik qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki vərdişləri, həmçinin şəxsi heyətin döyüş və taktiki-xüsusi hazırlığı yoxlanılıb.

General-polkovnik Kərim Vəliyevə hərbi gəmilərin və gəmi heyətlərinin yerləşməsi, döyüş hazırlığı və xidmətin təşkili, həmçinin digər məsələlərlə bağlı ətraflı məlumat verilib.

Baş Qərargah rəisi HDQ-nin Hidroqrafiya İdarəsi, Təlim və Tədris Mərkəzində də olub, burada xidmətin təşkili və hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Sonra Müdafiə Nazirliyinin müvafiq baş idarə, idarə və HDQ-nin komandanlığının iştirakı ilə kompleks yoxlamanın yekun nəticələrinə dair xidməti müşavirə keçirilib.

Görülmüş işlərin təhlilini aparan general-polkovnik Kərim Vəliyev döyüş gəmilərinin və gəmi heyətlərinin hazırlığını müsbət qiymətləndirib, bu nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində əldə edildiyini xüsusi vurğulayıb. Qeyd olunub ki, Vətən müharibəsində HDQ-nin şəxsi heyəti Ali Baş Komandan tərəfindən qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib, torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında yüksək peşəkarlıq nümayiş etdirib.

Baş Qərargah rəisi cari ilin yay aylarında Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda keçiriləcək təlimlərə hazırlıq, o cümlədən dəniz piyadalarının seçilməsinə, onların bilik və bacarıqlarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməsi və digər məsələlərlə bağlı müvafiq göstərişlər verib.

Sonda general-polkovnik Kərim Vəliyev HDQ-nin döyüş, mənəvi-psixoloji hazırlıq səviyyəsinin daha da artırılması, hərbi intizamın möhkəmləndirilməsi, eləcə də maddi-texniki təminat məsələləri ilə əlaqədar müdafiə nazirinin tapşırıqlarını komandanlığa çatdırıb.

# Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Ağdamda ermənilərin törətdiyi vəhşiliklərlə tanış olublar











Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə keçirilən "Müharibə cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi kontekstində" adlı XI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.

AZƏRTAC xəbər verir ki, qış məktəbinin iştirakçıları Ağdamda ermənilərin törətdikləri vəhşiliklərlə tanış olub, işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə və Şahbulaq qalasına baxış keçiriblər. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qonaqlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə də ətraflı məlumat veriblər. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi-mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Qış məktəbinin Türkiyədən olan iştirakçısı Merve Özneman Ağdamda gördüklərindən çox təsirləndiyini bildirib: "Bura öz yurdum kimidir. Amma üzücü vəziyyətlə qarşılaşdıq. Ermənilər Ağdamı tamamilə dağıdıblar. Məscidi ziyarət etdik, çox bərbad vəziyyətə salınıb. Öyrəndik ki, ermənilər işğal dövründə burada heyvan saxlayıblar. Təəssüf ki, biz türklərə bu şəkildə zərər verməyə çalışıblar. Amma məqsədlərinə çata bilmədilər. Ağdam şəhərinin ruhsuz olduğunu gördüm. Torpağın üzərində sadəcə yığılmış daşlar var. Olduqca üzücü vəziyyətdir. Vaxtilə burada xoşbəxt ailələr olub, küçələrdə uşaqlar oynayıb. İnsanların öz yurdundan çıxarılması faciəvi vəziyyətdir. Ümid edirəm, hər şey gözəl olacaq. Təbii ki, buranı gözəlləşdirəcəyik".

Ukraynadan olan iştirakçı Polina Orlova isə deyib: "Bu gün biz Ağdamdayıq. Hər tərəf dağıdılıb. Burada bir dənə də salamat bina yoxdur. Ağdam məscidi XIX əsrdə tikilib. Gözəl tarixi abidədir. Bu cür gözəl tikilinin dağıdılmasına təəssüf edirəm. Bu şəhərdə nə insan var, nə də bir dənə salamat tikili. Bura sadəcə "ruhlar şəhəri" demək doğru olar".

Qış məktəbinin iştirakçıları Ağdamdan Şuşa şəhərinə yola düşüblər.

# Ərəb mətbuatında Azərbaycanın bərpaolunan enerji potensialı barədə məqalə yayımlanıb

Ərəb ölkələrinin kütləvi informasiya vasitələrində Azərbaycanın bərpaolunan enerji mənbələri üzrə potensialı barədə məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, İordaniyanın "Nayruz" agentliyi, Əlcəzairin "Cəzirinfo", Livanın "TR agency", Fələstinin "Əl-Bayader", Sudanın "Mirsadenergy" portallarında yayımlanan məqalədə ölkəmizin bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdən biri olduğu diqqətə çatdırılıb. Yazının müəllifi şərqşünas Həşim Məmmədov qeyd edib ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 26940 MVt, o cümlədən külək enerjisi üzrə 3000 MVt, günəş enerjisi üzrə 23040 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.



Məqalədə vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadədir. Bu istiqamətdə atılmış əsas addımlardan biri 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsidir. Ölkə rəhbərliyi tərəfindən qəbul edilmiş qanunvericilik aktlarında milli enerji təhlükəsizliyinin genişləndirilməsində alternativ və bərpaolunan enerji istehsalının artırılmasının böyük rolu olduğu dəfələrlə vurğulanıb.

Yazıda Qarabağ və ətraf regionlarda bərpaolunan enerji mənbələrinin potensialının qiymətləndirilməsi üzrə işlərin icrasına başlanıldığı, işğaldan azad edilmiş ərazilər üzrə 6 rayonda (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər) Günəş-elektrik stansiyalarının (GES) tikintisi üçün ümumi potensialı 4000 MVt-dan yüksək qiymətləndirilən 8 perspektiv ərazi müəyyən edildiyi diqqətə çatdırılıb. Sözügedən sahədə ərəb ölkələri ilə əməkdaşlıqdan bəhs edən müəllif məlumat verib ki, 2020-ci il yanvarın 9-da Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı icra müqavilələri imzalanıb. Həmin il dekabrın 30-da isə Energetika Nazirliyi, "Azərenerji" ASC və "ACWA Power" şirkətinin iştirakı ilə icrası nəzərdə tutulan 240 MVt külək-elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. İcra müqaviləsinə uyğun olaraq, "Masdar" şirkəti ilə isə günəş-elektrik stansiyalarının tikintisi ilə bağlı müqavilə layihələrinin müzakirəsi davam etdirilir və ən yaxın vaxtlarda bu müqavilələrin imzalanması nəzərdə tutulub.

21 Fevral Beynəlxalq Ana Dili Günüdür

# Xalqımızın qürur mənbəyi

UNESCO-nun Baş konfransında qəbul edilən qərara əsasən 2000-ci ildən bütün dünyada fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib.




Məqsəd dünyada mövcud olan dilləri qorumaq, hər kəsə öz doğma dilinin varlığını hiss etdirmək, onunla qürur duymaq, qorumaq, inkişaf etdirmək, dil-üslub xüsusiyyətlərinə əməl etməkdir. Bu tarixi gün respublikamızda da yüksək səviyyədə qeyd edilir, təlim-tədris müəssisələrində Azərbaycan dilinin əhəmiyyətindən, xalqın varlığı üçün zərurətindən bəhs edilir, orta və ali təhsil ocaqlarında bu günə həsr olunan xüsusi dərslər, tədbirlər, yığıncaqlar keçirilir.

Dünyanın müxtəlif ölkələrində yaşayan xalqlar üçün ana dili millətin tarixi mədəniyyətinin və digər özünəməxsus xüsusiyyətlərinin kompleks halında birləşdiyi unikal hadisə kimi səciyyələndirilir.

Bu gün dünyada yaşayan minlərlə millət və etnik qrup sayı iki yüzə çatmayan dövlətlərin bayrağı altında yaşayır və işləyir. Bu dövlətlərin rəsmi dövlət dilləri 70-i keçmir. Onda hər hansı bir millətin öz dilinin öz ölkəsində dövlət dili olmasının əhəmiyyətini dərk etmək o qədər də çətin olmur. Bu mənada, dilin dövlət dili statusu qazanması həqiqətən qürur doğuran tarixi hadisədir.

Dünyanın ən nüfuzlu dövlət xadimlərinin və dilçi alimlərinin qənaətinə görə, dil hər bir millətin maddi və mədəni irsini qoruyan, habelə inkişaf etdirən ən mühüm, ən güclü vasitədir. Hər bir xalqın kökü ana dilindən başlanır, odur ki, insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Dünya şöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyev demişdir: "Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək, olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır".

Dil istənilən xalq üçün maddi və qeyri-maddi irsin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi istiqamətində ən güclü vasitələrdən biridir. Müxtəlif ölkələrdə ana dilinin təbliği üçün həyata keçirilən bütün tədbirlər təkcə linqvistik müxtəlifliyi və çoxdilli tədrisi həvəsləndirmək baxımından deyil, eyni zamanda, qarşılıqlı anlaşmaya, tolerantlığa və dialoqa əsaslanan mühitin formalaşması üçün də vacibdir. Dil cəmiyyətə, sosial inteqrasiyaya, təhsil və tərəqqiyə təsir gücünə görə bəşəriyyət üçün həyati əhəmiyyət kəsb edən dəyərlərdəndir.

Tariximizdən o da məlumdur ki, Xalq yazıçısı Mirzə İbrahimov 1956-cı ildə Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsində olarkən parlamentin 1937-ci il Azərbaycan Konstitusiyası Qanununa əlavələr etməklə Azərbaycan dilini dövlət dili kimi qəbul etməsi keçmiş SSRİ rəhbərliyinin neqativ reaksiyasına səbəb olmuş və bu qəti addıma görə M.İbrahimov vəzifəsindən kənarlaşdırılmışdır.

Ölkəmizdə dil siyasətinin formalaşdırılması, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli birliyin və həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ana dilimizin saflaşdırılması və zənginləşdirilməsi istiqamətində çox mühüm addımlar atmış və Azərbaycan dilinin inkişafı və qorunması məqsədilə əhəmiyyətli sənədlər imzalamışdır.

Zaman-zaman inkişaf edib zənginləşən dilimizin statusunun özünə qaytarılması birmənalı olaraq Ümummilli Lider Heydər Əliyevə məxsusdur. Heydər Əliyev hələ Sovet İttifaqı dövründə, mərkəzin ciddi müqavimətinə baxmayaraq, respublikamızda Azərbaycan dilinin dövlət dili statusunun 1978-ci il Konstitusiyasında əks olunmasına nail ola bilmişdi.

Konstitusiyanın qəbulundan keçən illər ərzində dil siyasətinin ayrı-ayrı konkret cəhətlərinə dönə-dönə qayıdılması, ana dilimizin statusunun təminatı və tətbiqinin təkmilləşdirilməsi, bu sahədə müxtəlif qanunların qəbulu, fərman və sərəncamların verilməsi dövlətimizin ana dilimizə nə qədər ciddi yanaşdığını sübut edir. Belə hüquqi sənədlərdən biri də Ulu Öndərin 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanıdır. Bu tarixi sənəd beynəlxalq aləmdə Azərbaycan dilinin mövcudluğuna yeni nəfəs və yüksəliş verdi. Bundan sonra nəinki respublikamızda, hətta xarici ölkələrdə yaşayan, işləyən, habelə müxtəlif ali məktəblərdə təhsil alan gənclər tərəfindən hər il 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi böyük təntənə ilə qeyd edilir. Onu da vurğulamaq yerinə düşər ki, Ümummilli Liderin rəhbərliyi ilə hazırlanmış və 2002-ci il sentyabrın 30-da qüvvəyə minmiş "Dövlət dili haqqında" qanun Azərbaycan dilinin düzgün şəkildə tətbiqi və inkişafı istiqamətində tədbir görülməsində ən əhəmiyyətli sənədlərdən biridir.

Ulu Öndərə məxsus bir fikir bu gün də bizim hər birimiz üçün istiqamətverici məna daşıyır: "...Musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir".

Ölkəmiz öz tarixi müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etmişdir. Azərbaycan dilinin dövlət dili kimi əbədiliyinə hüquqi zəmin yaradılmış, dilimizin fəaliyyət coğrafiyası daha da genişlənmiş, onun müxtəlif üslubları elmi araşdırmalarla dünya ictimaiyyətinə çatdırılmış, bütünlükdə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır.

Azərbaycan dilinin inkişafı missiyasını uğurla davam etdirən Prezident İlham Əliyev müasir dövrdə dilçiliyimizə böyük diqqətlə yanaşır. 2012-ci il 23 may tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələbinə uyğun istifadəsi və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamı Azərbaycan dilinə olan qayğının bariz nümunəsidir. 2013-2020-ci illəri əhatə edən bu proqram çərçivəsində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Ölkə rəhbərinin 13 noyabr 2017-ci il tarixli sərəncamı isə dövlət dilimizin inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə xidmət edir.

Dövlət dilinin həyatın hər bir sahəsində qeyd-şərtsiz işləkliyinin genişləndirilməsini nəzərdə tutan bu sənədlər ölkəmizdə dövlət dilinin tətbiqinin normativ-hüquqi əsaslarını və icra mexanizmini tam müəyyən etmişdir.

Qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə texnoloji yeniliklərin insanlar tərəfindən sürətlə mənimsənilməsi, habelə maneəsiz informasiya mübadiləsi imkanlarının artması ana dilimizin potensial imkanlarından lazımınca istifadəsində müəyyən çətinliklər yaratmaqdadır. Mövcud şərait milli ideya - azərbaycançılıq məfkurəsi işığında milli varlığımızın ifadəsi olan Azərbaycan dilinin saflığının qorunması, istər danışıq, istərsə də ədəbi-bədii yazılarda ana dilindən düzgün istifadə daim diqqət mərkəzində saxlanılmalıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




# İlk avtomobil naviqasiya sistemi

**Ünvana asanlıqla çatmaqda yardımçı olan vasitələrdən biri də naviqatorlardır. Onların köməyi ilə düzgün marşrutu seçərək vaxt itkisi olmadan və stres keçirmədən istənilən ünvana problemsiz çatmaq mümkündür.**

XIX-XX əsrlərdə yol nişanlarının azlığı, yol sisteminin ibtidailiyi nəticəsində azmaq tez-tez rast gəlinən hadisələrdən idi. Həmin vaxtlar sürücülər əsasən xəritələrdən istifadə edirdilər. Lakin kartoqrafiyanın xüsusi qurğu ilə təqdim edilməsinə ehtiyac duyulurdu.

Dünyanın ilk avtomobil naviqasiya sistemi 1930-cu ildə İtaliyada istehsal edilib. "Iter Avto" adlanan cihazda rulon xəritə yerləşdirilmişdi. Sürətölçənə qoşulmuş kabellə cihazın ekranında əks olunan hərəkət sürəti mütənasib idi. Bununla da yol xəritəsində doğru nöqtə ilə hərəkət baş tuturdu. Lakin naviqatorda əsas problem istiqamət dəyişdirilən zaman fəaliyyətinin dayanması idi. Bu vaxt yenidən xəritəni daxil etmək və cari yerin tapılması üçün axtarış etmək lazım gəlirdi.




Əslində "Iter Avto" naviqatorunun mövcudluğundan əvvəl - 1927-ci ildə Britaniyada qol saatı formalı mexaniki idarə edilən cihaz hazırlanmışdı. Kiçik ölçülü yuvarlanan yol xəritəli saatın kənarlarında düymələr var idi. Məhdud sayda gedilən ərazilərin yol xəritələri bu cihaz üçün hazırlanmışdı. Bölgəyə uyğun rulon xəritə qol cihazının içinə qoyulurdu. Sürücülər avtomobillə hərəkət edən zaman həmin düymələri fırladaraq xəritəni olduqları əraziyə uyğunlaşdırırdılar. Lakin bu, olduqca çətin idi.

İlk avtomatik naviqasiya cihazının isə 1981-ci ildə Honda şirkətinin təşəbbüsü ilə yaradıldığı qeyd edilir. Yaponiyada təqdim edilən naviqator xüsusi xəritələrlə tərtib olunmuşdu. Sınaq zamanı cihazı hazırlayan Taqami şirkətin direktoru Kumeni Suzuka şəhərindən Tokiodakı evinə çatdırmalı idi. Xəritədə Kumenin izahlarına əsasən ünvan müəyyənləşdirilərək yola çıxılmışdı. 13 saatlıq səyahətdən sonra Taqami maşını ünvanda saxlayan zaman Kume gözlərinə inana bilməmişdi. Çünki onun evi dayandıqları nöqtənin qarşısında idi. Bununla da naviqasiya sistemi özünü doğrultmuşdu.

1992-ci ildə GPS sistemi "General Motors" tərəfindən təqdim edildikdən sonra isə elektron xəritələr tərtib edilməyə başlandı. Əvvəlcə yalnız Kaliforniya və Las-Veqasın xəritəsi çəkilmişdi. Hazırda isə yaşamın bir parçasına çevrilən smartfonlardakı naviqatorlar vasitəsilə belə, istənilən məkana anındaca göstərilən marşrutla rahat getmək mümkündür.

# Hərəkət edən pilləkənlər



**Qalxıb enməni asanlaşdıran eskalatorların mövcudluğu bir çox vaxtda pillələrlə qarşılaşdıqda əsl istəyə çevrilir. Lakin bu vasitə meydana çıxan zaman yalnız əyləncə məqsədi daşıyırdı. İlk hərəkət edən pilləkənlər ideyasını patentləşdirən şəxs 1892-ci ildə Cesse Reno olub. Bundan 4 il sonra o, təşəbbüsünü reallaşdıraraq 25 dərəcə maili formada olan nümunəni təqdim edib. Özünün də adlandırdığı kimi "maili lift" konveyer kəməri vasitəsilə hərəkətə gətirilirdi. Bu, insanlarda o qədər maraq yaratmışdı ki, hətta deyilənlərə görə, qurğunun 2 həftəlik nümayişində 75 mindən çox insan daşınmışdı.**

Eskalatorun yeni dizaynı 1897-ci ildə Çarlz Siberger tərəfindən edilmişdi. O, eskalator adını latınca elevator (lift) və scala (pillə) sözlərinin birləşməsindən yaratmışdı. Siberger 1899-cu ildə Nyu Yorkda eskalatorun kütləvi istehsalı üçün "Otis Elevator Co." şirkəti ilə əməkdaşlıq edib. Bir il sonra "Siberger-Otis" taxta eskalatoru Parisdə keçirilən dünya sərgisində birinci yer mükafatına layiq görülüb. Siberger müasir eskalatorun müəllifi olsa da, patent hüquqlarını daha sonra "Otis Elevator"a satıb.

Təəccüblüdür ki, dünyanın ilk eskalatorunun uzunluğu 2 metr olduğu halda, hazırda ən uzun nümunə 53,68 metrdir və Rusiyada "Okruzhnaya" metrostansiyasında quraşdırılıb. Ən qısa qurğunun uzunluğu isə 90 santimetrdir. Adətən belə versiyalardan saray və muzeylərdə istifadə edilir. Eskalatorlar sürətləri ilə də bir-birindən fərqlənirlər. Saniyədə 0,9 metr sürətlə hərəkət edən, öz növünün ən sürətlisi hesab edilən eskalatorlara Praqa və Rusiyanın metrostansiyalarında rast gəlmək olar.

# Təsadüfi kəşf - kibrit

**Kibritin mövcudluğundan əvvəl də ciblərdə kiçik qutulara rast gəlinirdi. Bu qutuların içərisində isə polad parçası, kiçik daş və süngər olurdu. Poladla daşın qığılcığımı süngəri alovlandırırdı. Yanan süngər də həmin zamanın alışqan funksiyasını daşıyırdı. İlk kükürdlü çubuqlardan Çində eramızdan əvvəl 577-ci ildə istifadə edilib. Qədim romalılara da bu çubuqlar məlum idi. Lakin həmin çubuqların sürtülərək yandırıla biləcəyi XIX əsrə qədər məlum olmayıb.**




Bu üsulların əvəzinə əsl kibritdən istifadə 1826-cı ildə ingiltərəli kimyaçı Con Volkerin icadı ilə edilib. O, bunu təsadüf nəticəsində tapıb. Volker tüfənglər üçün fitillər hazırlayırdı. Bir dəfə çubuqla kimyəvi maddələri qarışdıran zaman çubuğun ucunda qurumuş qat əmələ gəlmişdi. Bu hissəni çubuqdan qoparmaq üçün yerə sürtən zaman alovlanmışdı. O bu kəşfini görəndə müxtəlif təcrübələr apararaq kibrit hazırlamağa başladı. Lakin ixtirasını patentləşdirməmiş, eləcə də heç bir gəlir əldə etməmişdi.

Bu ixtiranı oğurlayan Samuel Cons adlı sahibkar isə ideyanı patentləşdirib, kibritləri istehsal edərək varlanıb. Lakin hazır yanan çöplərdən olduqca kəskin iy gəlirdi. Kibritə daha çox tələb əsasən siqaret çəkənlər tərəfindən idi. Hətta qutuların üzərində "Siqaret yandıran kibrit sağlamlığa zərərlidir" yazısı da qeyd olunurdu.

1830-cu ildə fransız C.Sauria kibritin kimyəvi qarışığına "ağ fosfor" maddəsini əlavə edərək asan alışan və qoxusuz bir kibrit hazırlayıb. İngiltərə fabriklərində belə kibritlərin istehsalı üçün qadın və uşaq əməyindən istifadə edilirdi. Həmin vaxt ağ fosfor isə işçi uşaqlarda sümük xəstəliklərinin yaranmasına səbəb olurdu. Bundan əlavə, işçilər gündə 14 saat işləməyə məcbur edilirdilər. Aldıqları məvacibin isə olduqca aşağı olmasına baxmayaraq, üstəlik hər hansı səhvə yol verdikdə maaşlarından da cərimələnirdilər. Ağ fosforun zəhərli olması, həmçinin bir qızın işdən səbəbsiz çıxarılması gərginliyi daha da artırmışdı. Baş verənlərə etiraz olaraq kibrit fabrikini hədəf alan "Londonda ağ köləlik" başlıqlı məqalə də dərc edilmişdi. İşçilərin tətil elan etməsi ilə şərtlər yumşaldılmış, ağ fosforun istifadəsinə bir çox ölkədə qadağa qoyulmuşdu.

Fosforun qırmızı növündən istifadə edərək kibrit hazırlayan şəxs 1855-ci ildə isveçli E.Lundstrom olub. Qırmızı fosfor ağa nisbətən təhlükəsiz və daha gec alışan maddədir. Buna baxmayaraq, qiyməti baha olduğundan əksər fabriklər ağ fosfordan istifadəyə üstünlük verirdi. Günümüzdə hazırlanan kibritlərə ən yaxın nümunə də məhz qırmızı fosfordan olanlardır.

Hazırda kibrit istehsalında müxtəlif material və üsullardan istifadə edilir. Kibrit çöplərində əsas 3 material - taxta, karton və mum olur. Həmçinin onlar alovlanma üsuluna görə də xüsusi və hər hansı səthə sürtdükdə alışan növlərə bölünür.

Məişət kibritlərdən əlavə küləkdə, yağışda yanan, daha çox alovlu, alovu rəngli, uzun və qalın olan formalar da istehsalatda mövcuddur. Özəl kolleksiyalarda isə məhdud dekorativ kibritləri görmək mümkündür. O da qeyd edilməlidir ki, kibritlərdən təkcə alışqan kimi yox, eyni zamanda bir sıra hesablama və məntiq oyunlarında da istifadə olunur.

# Taksilər necə peyda oldu?

**Dövrümüzün ən çox tələb olunan xidmət növlərindən biri də taksilərdir. Texnologiyanın inkişafı taksi xidmətinin daha rahat və ucuz olmasına gətirib çıxarıb. Ölkəmizdə də bu mənzərə ilə qarşılaşmaq mümkündür. Bu cür inkişaf yolu bəs nədən başlayıb?**

Taksilərin ibtidai prototipi sayıla bilən kirayə at arabaları həm London, həm də Parisdə XVII əsrin əvvəllərində fəaliyyətə başlayıb. İlk sənədləşdirilmiş kirayə at arabalarına 1605-ci ildə Londonda rast gəlinib. 1636-cı ildə kirayə arabaları sürən sürücülərə lisenziya verilməyə başlanılıb, bir il sonra isə Parisdə eyni icazə tətbiq edilib.

Londonda 1635-ci ildə parlament tərəfindən kirayəlik at arabalarını qanuniləşdirmək üçün xüsusi akt qəbul edilib. Taksi xidmətinə isə Parisdə 1637-ci ildə Nikolas Sauvage tərəfindən başlanılıb. Onun avtomobilləri "fiakr" adlandırılırdı. Bu söz fransız dilində kirayəlik atlı vasitəsini ifadə etmək üçün istifadə olunur. Beləliklə, xidmət bir çox ölkəyə yayılaraq inkişaf edib.

XIX əsr taksilər üçün əsl yenilik dövrü idi. 1823-cü ildə Londonda yüngül ikitəkərli kabrioletlər peyda olmuşdu."Kabin" adlandırılan bu avtomobillər tez bir vaxtda insanlar arasında populyarlıq qazanmışdı. Lakin inkişaf elə də sürətli getmirdi. Kasıb və orta təbəqənin, demək olar ki, xidmətdən istifadə etməməsi, varlıların öz şəxsi nəqliyyatlarının olması kabinlərin inkişafına manə olurdu.




Lakin kabinlər taksi xidmətinin tarixi üçün böyük bir çevriliş idi.

Təkərli nəqliyyat vasitəsinin qət etdiyi məsafənin sayğacı 1875-ci ildə alman musiqi müəllimi Vilhelm Fridrix Nedler tərəfindən hazırlanıb. O öz cihazını "taksonom" adlandırmışdı. Taksi sözünün etimologiyası da bu sözdən gəlir. "Taksonom" sözü alman dilində "vergi" mənasını ifadə edir. Nedlerin bu cihazı sürücü və sərnişinlərin işini rahatlaşdırmışdı. Bununla belə, şəhər polis idarəsi sayğacların at arabalarına quraşdırılması üçün əsasnamələr vermişdi. 1890-cı ildə cihazın patentinə sahib şirkət cihazın adını "taksometr" olaraq dəyişdirdi və bu günümüzədək cihaz belə adlanır.

Taksilərin çoxluğu şirkətlərin açılmasına təkan verirdi. Taksi üçün ilk sarı rəngi XX əsrdə "Yellow Cab" şirkətinin sahibi Harri Allen seçib. Şirkət yalnız taksi fəaliyyəti ilə məşğul olmaq üçün avtomobillər istehsal edirdi. Avtomobillər üçün sarı rəngin seçilməsində səbəb sarı rəngin cəlbediciliyi, uzaq məsafədən asanlıqla fərqlənməsi idi. 1950-ci illərdən taksilər üçün xüsusi fərqləndirici əlamət olan "şahmat löhvəsi" də əlavə edilmişdi.

Taksi xidmətinin əsaslı inkişafı telefon zəngi vasitəsilə sifarişlərin qeydə alınması nəticəsində müşahidə edilib. İnternetin mövcudluğundan sonra isə 1990-cı illərin sonlarında "Ridesharing" proqramı yaradıldı. Bu xidmətdən istifadə yalnız vebsayta daxil olmaqla mümkün idi.

XXI əsrdə texnoloji inqilabla insanların smartfonlarına bağlılığı və demək olar ki, bütün işlərin telefonla idarə edilməsi onlayn taksi xidmətlərinin yaranmasına yol açdı. 2009-cu ildə Garrett Camp və Travis Kalanic "Ubercab" şirkətini qurdular. Beta versiyalı buraxılışdan sonra "Uber"in mobil tətbiqi 2011-ci ildə San-Fransiskoda ictimaiyyətə təqdim edildi. Şikətin adı da elə həmin vaxtda "Ubercab"dan "Uber"ə dəyişdirildi. Əvvəlcə yalnız San-Fransisko əhalisi üçün fəaliyyət göstərən şirkət 4-5 il ərzində bütün dünyada istifadə olunmağa başladı.

Dövrümüzdə taksi xidməti, demək olar ki, mobil tətbiqlər əsasında işləyir. Taksi xidməti dünyada olduğu kimi, ölkəmizdə də intensiv istifadə olunan xidmətdir. Taksi bazarının sürətlə böyüməsi isə rəqabəti artırır.

Sonda onu da qeyd edək ki, 2010-cu ildə onlayn taksi xidmətlərinin gündə 15 milyon səfəri baş tutmuşdu.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***




# Avropa İttifaqı özünün peyk internet sistemini yaradır

**Avropa İttifaqı Yerin orbitində peyk internet sistemini yaratmağı planlaşdırır. Bu sistem genişzolaqlı interneti təmin edəcək, xarici şirkətlərdən asılılığı azaldacaq və aparıcı şəbəkə servisləri ilə məlumatları kənar müdaxilələrdən qoruyacaq.**

Məlumata görə, layihənin dəyəri 6.88 milyard avrodur. Maliyyələşdirmə həm dövlətlər, həm də özəl mənbələr tərəfindən həyata keçiriləcək. Avropa Komissiyası 2022-ci ildən 2027-ci ilə kimi bu layihəyə öz büdcəsindən 2.4 milyard avro ayıracaq. Vəsaitin qalan hissəsi isə, qeyd edildiyi kimi, Avropa İttifaqına daxil olan ölkələrdən, Avropa Kosmik Agentliyindən və özəl şirkətlərdən yönləndiriləcək. Layihənin gələn il işə salınacağı gözlənilir.

Peyk internet sistemi Avropa İttifaqı ölkələrinin telekommunikasiya infrastrukturlarının sabitliyini təmin edəcək və kibertəhlükəsizlik səviyyəsini yüksəldəcək. Həmçinin Avropa və Afrika qitələri sakinlərini yüksəksürətli internet bağlantısı ilə təmin edəcək.



Hazırda bu sahədə söz sahibi "SpaceX" şirkətidir. Şirkət Yer kürəsinin orbitində iki min ədəd internet peyki "uçurur". "SpaceX" öz raketləri vasitəsilə peyklərin Yer kürəsinin orbitinə göndərilməsi imkanına malik olduğu üçün hələ ki digər provayderlər arasında öz üstünlüyünü qoruyub saxlayır.

# "James Webb"in kosmosdan ilk fotosu



**"James Webb" kosmik teleskopu çəkdiyi ilk fotoları Yer kürəsinə göndərib. Teleskopun əsas kosmik missiyasına başlamasından öncə qarşısına iki tapşırıq qoyulmuşdu. Birincisi, o, yaxın infraqırmızı diapazon kamerasının çalışdığını və əsas güzgüsünün 18 hissəsinin hər birinin eyni çəkiliş obyektindən olan işığı əldə etdiyini təsdiqləməli idi.**

Bu təcrübə üçün 285.5 işıq ili uzaqlığında, Böyük Ayı bürcündə yerləşən "HD84406" adlı ulduz seçilmişdi. Nəticədə teleskop şərtlərə əməl edərək həmin ulduzun fotosunu çəkmiş və fotoları NIRCam-a ötürmüşdü.

İkincisi, NIRCam vasitəsilə obyektin vahid təsviri əldə edilib. Lakin fotoda eyni ulduz əks olunub. Bunun səbəbi ondadır ki, ulduz teleskopun əsas güzgüsünün müxtəlif hissələri tərəfindən çəkilib. İndi NASA mütəxəssisləri əsas güzgünün hər bir hissəsini elə nizamlamalıdırlar ki, teleskop təkrarlanan obyektlərin əks olunduqları fotoların əvəzinə kadrda bir obyektin görüntüsünü keyfiyyətli şəkildə təqdim etsin.

# Yeni planetə ad verildi



**Alimlər Günəş sisteminə ən yaxın olan "Proksima Sentavr" adlı ulduz sistemində yeni planet kəşf ediblər. Yeni planet "Proksima d" adlandırılıb.**

O, "Proksima Sentavr" ulduzu ətrafında dövr edən üçüncü planetdir və ulduz sistemində aşkar edilmiş planetlər arasında ən aşağı kütləyə malikdir. Mütəxəssislərin bildirdiyinə görə, yeni planet öz ulduzundan 4 milyon kilometr məsafədə dövr edir. Ulduz ətrafında tam dövrünü isə 5 günə tamamlayır. Bununla belə, onun orbiti planet səthində suyun maye şəklində mövcud olmasına şərait yaradan yaşayış zonasının daxili sərhədlərindən kənarda yerləşir.

"Proksima d"nin kütləsi Yer kürəsinin dörddə biri qədərdir, Marsdan isə ağırdır. Yer kürəsindən "Proksima d"yə qədər olan məsafə 4 işıq ili təşkil edir.

Mütəxəssislər yeni planeti Proksima Sentavr ulduzunun hərəkətindəki kiçik dəyişikliklərin hesabına kəşf ediblər. Həmin dəyişikliklər qravitasiya cazibəsi ilə əlaqəlidir. O öz ulduzu ətrafında dövr edən zaman qravitasiya cazibəsi yaranır. Qeyd etmək lazımdır ki, "Proksima Sentavr" ətrafında "Proksima d"dən əlavə iki ekzoplanet də dövr edir. Onlardan biri Yer kürəsinə bənzəyir.

Digər planet də ekzoplanet sinfinə namizəddir və ulduz ətrafında tam dövrü 5 ilə tamamlayır.

# Marsa 45 günə çatmaq mümkün olacaqmı?

**Mars planetinin kolonizasiyası ilə bağlı əsas problemlərdən biri insanların ora hansı üsulla daha tez çatdırılması ilə bağlıdır. Mütəxəssislər bu problemin də həlli yolu ilə məşğul olub və qeyri-adi ideya təklif ediblər. Belə ki, mütəxəssislər kosmik gəmilərin Marsa 45 gün ərzində çatması üçün Yer səthində quraşdırılmış lazer qurğusundan istifadəni təklif ediblər. Qeyd etmək lazımdır ki, hazırda Marsa çatmaq üçün minimum 115 gün vaxt lazımdır.**

Kanada Universitetinin alimləri bunun üçün Yer səthinə 10 metrlik lazer qəfəsini yerləşdirməyi təklif ediblər. Həmin qəfəs kosmik gəmini enerji ilə qidalandırmalıdır. İdeyaya əsasən, lazer kosmik gəmidəki hidrogen plazmasını qızdıracaq və qaz formalı hidrogen əldə ediləcək. Bu üsul kosmosa ağır yanacaq çənlərinin daşınmasına ehtiyac duymadan planetlərarası hərəkət qüvvəsini təmin edə bilər.

Lazer qəfəsi sayəsində tonlarla faydalı yükü təyinat nöqtəsinə sürətlə çatdırmaq mümkün olacaq. NASA bu məsələ ilə bağlı müsabiqə elan edəndən sonra alimlər belə layihələr ilə məşğul olmağa başlayıblar. Müsabiqə çərçivəsində mühəndislər tonlarla faydalı yükü Marsa 40-50 gün ərzində çatdıra biləcək üsullar üzərində işləyərək belə qənaətə gəliblər ki, faydalı yüklərlə astronavtları Marsa kimyəvi yanacaq əsaslı raketlərdən daha tez çatdırmaq mümkündür. Mars planetinin orbitinə çatandan sonra isə lazer-istilik mühərrikləri olan kosmik gəmi tormozlanma prosesi üçün planetin atmosferindən istifadə edəcək.

Kosmik tormozlanma çox qəliz və təhlükəli prosesdir. O, gəminin sürətinin azaldılması üçün nəzərdə tutulub.



Ənənəvi kosmik gəmilər tormozlanma prosesi üçün kimyəvi yanacaq növlərindən istifadə edirlər. Amma problem ondadır ki, yanacaq gəminin böyük hissəsini zəbt edir. Yeni tormozlanma üsulu isə Yerdə çoxlu miqdarda yanacağın qənaətinə imkan verəcək.

# "Starship" uçuşa hazırlaşır

**"SpaceX" şirkəti "Starship" kosmik gəmisinin təqdimatını keçirib və tədbirdə yeni məlumatlar verilib. "Starship" uzaq məsafəli kosmik uçuşlar üçün nəzərdə tutulub və ilk orbital test uçuşu ABŞ-ın müvafiq orqanları ilə razılıq əldə edildikdən sonra bu ilin mart-aprel aylarında baş tutacaq.**



119 metr hündürlüyü olan "Starship" sistemi iki hissədən ibarətdir. Birinci hissəsini "Super Heavy" adlı sürətləndirici ağır raket, ikinci hissəsini isə kosmik gəmi təşkil edir. "Super Heavy" 33 ədəd, "Starship" isə 9 ədəd yeni nəsil "Raptor" mühərriki ilə təchiz olunub. Onların konstruksiyalarında əvvəllər mövcud olmuş detalların sayını azaltmaqla şirkət hər həftə 5-6 mühərrik istehsal edə bilib. Dəfələrlə istifadə oluna biləcək bu gəmi uçuşların qiymətlərini aşağı salmağa imkan verəcək.

"Starship" hər 6-8 saatdan bir kosmosa səyahəti reallaşdırmağı planlaşdırır. Bu isə sutka ərzində 3 uçuş deməkdir.

Təqdimat zamanı şirkətin sahibi İlon Mask onu da bildirib ki, 2-3 ildən sonra hər kosmik uçuş missiyasının dəyəri 10 milyon dollardan aşağı olacaq.

# DeLorean geri döndü… Elektromobil kimi



**Təxminən 40 il bundan əvvəl məşhur "Gələcəyə dönüş" ("Back to the Future") filminin ilk hissəsi yayımlanmışdı. Həmin illərdə filmdəki "DeLorean DMC-12" avtomobili əfsanəyə çevrilmişdi.**

"DeLorean Motor Company"şirkəti uzun illərin susqunluğundan sonra filmin pərəstişkarlarını sevindirəcək xəbər yayıb. Xəbərə əsasən bu il əfsanəvi avtomobilin elektromühərriklə çalışan versiyası təqdim olunacaq.

Yenidən formalaşmış və fəaliyyətə başlamış şirkət 1981-1982-ci illərin istehsalı olan "DeLorean DMC-12" avtomobillərinin bərpası ilə məşğuldur. Stefen Uinn adlı mühəndis brendin ticarət nişanını və avtomobilin orijinal hissələrini əldə edərək kopyalanması üzərində çalışıb. O, hələ 2016-cı ildə elan edib ki, ABŞ-ın yeni qanunları çərçivəsində yeni DeLorean modellərinin istehsalı ilə məşğul olacaq. Bu qanunlara əsasən avtomobil istehsalçıları bütün müasir tələblərə uymadan tarixi nüsxələri yalnız məhdud sayda istehsal edə bilərdi.

İndi isə qanunvericilik izin verdiyindən DeLorean brendi öz elektromobilinin ilk tanıtım videosunu təqdim edib. Elektromobilin dizaynı ilə DeLoreanın dizayneri italiyalı Giorgetto Giugiaro məşğul olur.

# "Facebook Messenger"də yenilik

**Meta şirkəti özünün "Facebook Messenger" tətbiqini yeniləyib və ona əlavə funksiyalar daxil edib. Bu funksiyalar siyahısına istifadəçilər arasında hesabların bölünməsi, mesajların avtomatik silinməsi və səsli mesajların daha rahat şəkildə idarəsi daxildir. Yenilik tətbiqin Android və iOS versiyalarında artıq aktivdir.**

İstifadəçilər arasında hesabların bölünməsi funksiyası hazırda yalnız ABŞ-da istifadəyə verilib. Onu qrup yazışmalarında istifadə etmək olar. Bu funksiya vasitəsilə istifadəçilər hətta restoranda verilən ümumi hesabı belə öz aralarında bölüşdürə və konkret şəxslərin nə qədər ödəniş edəcəklərini təyin edə bilərlər. Sözügedən funksiya istifadəçilərə ödəniş rekvizitlərinin "Messenger"ə inteqrasiyası imkanını verir ki, nəticədə ödənişlərin köçürülməsi sürətlə reallaşdırılır.

Bütün "Messenger" istifadəçiləri avtomatik silinən mesajlar funksiyasını da əldə ediblər. Funksiyanın aktivləşdirilməsi üçün, sadəcə, hansısa yazışmaya daxil




olub, səhifəni yuxarı sürüşdürmək lazımdır. Bu rejim çərçivəsində göndərilən istənilən mesaj baxıldıqdan dərhal sonra avtomatik olaraq silinir. Adi mesajlaşma rejiminə geri qayıtmaq üçün isə yazışma səhifəsini təkrar yuxarı sürüşdürmək tələb olunur.

Bundan əlavə, səsli mesajlar funksiyasına yeni imkanlar əlavə edilib. Bundan sonra səsli mesajları yazan zaman istifadəçi öz istəyinə uyğun olaraq fasilə verə və ya davam edə biləcək. Həmçinin səsli mesajı göndərməzdən öncə ona qulaq asmaq imkanı da qazanılacaq. Səsli mesajların davamlılıq limiti 30 dəqiqəyə qədər artırılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Qubadlının ilk hərbçi şəhidi

"Qubadlının ilk hərbçi şəhidi Mehman Ağayarovun şəhadətindən 30 il keçir. O, unudulmaz komandir, Milli Qəhrəman Əliyar Əliyevin batalyonunda vuruşub. Keçən əsrin 80-90-cı illərində erməni quldurlarının torpaqlarımıza təcavüzləri nəticəsində Mehman da ailəsi ilə birlikdə Qərbi Azərbaycanın Qafan rayonundan Qubadlıya pənah gətirib. Burada Əliyar Əliyevlə tanış olaraq düşmənə qarşı mübarizəyə qatılıb. İgidimiz düz 30 il bundan əvvəl 1992-ci il fevralın 19-da Məlikəhmədli kəndində gedən döyüşlər zamanı şəhadətə yüksəlib".



AZƏRTAC xəbər verir ki, bu fikirlər Sumqayıtda yerləşən şəhidin adını daşıyan Qubadlı rayonu Kavdadıq kənd tam orta məktəbdə onun qəhrəmanlığına, həyat yoluna həsr edilən tədbirdə səsləndirilib.

Tədbirdə iştirak edən Qubadlı rayonunun ictimaiyyət nümayəndələri, Mehmanın döyüş yoldaşları və ailə üzvləri onun xatirəsini ehtiramla anıblar və göstərdiyi igidliklərdən bəhs ediblər.

Qubadlı Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haqverdiyev Mehman kimi igidlərimizin hünərindən danışaraq bildirib ki, indi rəşadətli ordumuz torpaqlarımızı düşmən tapdağından azad edərək bütün şəhidlərimizin ruhunu şad edib. Dövlətimiz isə Mehman kimi qəhrəmanlarımızın unudulmaması üçün əlindən gələni edir. Şəhid ailələri xüsusi qayğı ilə əhatələniblər.

"İntiqam hissi ilə yaşayan Mehmanın düşməndən qisas almaq ən böyük arzusu idi. İndi Qubadlının azad olmuş torpaqları şəhidimizin ruhuna su səpir",- bu sözləri isə Yeni Azərbaycan Partiyası Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov söyləyib.

Mehman Ağayarov adına Kavdadıq kənd tam orta məktəbinin direktoru Alimə Bayramova da Vətənimizin hər qarışında şəhidlərimizin, qazilərimizin xatirəsi əziz tutulduğunu bildirib. Düşmən üzərindəki Qələbəmizin əbədi olacağına əminliyini ifadə edib.

Tədbir iştirakçıları, şəhidin döyüş yoldaşları və ailə üzvləri öz ürək sözlərini bölüşüblər.

Tədbirdə Mehman Ağayarov haqqında hazırlanan "Qubadlının ilk hərbçi şəhidi" filmi də nümayiş olunub.

# Çukurova Universitetinin tələbələri dünya ictimaiyyətinə "Xocalıya ədalət!" çağırışı ediblər

Türkiyənin Adana şəhərində fəaliyyət göstərən Çukurova Universitetində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunan anım mərasimi keçirilib.







AZƏRTAC xəbər verir ki, universitetin professor, müəllim heyətinin, eləcə də yerli və xarici tələbələrin iştirakı ilə keçirilən mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Rəsmi hissədə Çukurova Universitetinin rektoru doktor Məryəm Tuncel, Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elxan Zeynalov və təhsil müşaviri Nəcibə Nəsibovanın çıxışları dinlənilib.

Xocalı soyqırımının XX əsrdə insanlıq əleyhinə törədilən ən ağır cinayət olduğunu deyən rektor Məryəm Tuncel bildirib ki, böyük Qarabağ Zəfəri bizim üçün az da olsa təsəlli ola bilər, lakin bu bəşəri cinayəti unutmamalı və unutdurmamalıyıq.

Çıxışında Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinə toxunan diplomat Elxan Zeynalov Prezident İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında imzaladığı sərəncamın qarşıya qoyduğu vəzifələrdən, terrorçu dövlət olan Ermənistanın ağır cinayətlərinin ifşası prosesindən, Vətən müharibəsində qazanılan Qələbədən sonrakı proseslərdən danışıb.

Sonra çıxış edən Nəcibə Nəsibova Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində görülən işlərdən, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə dövlətinin və xalqının İkinci Qarabağ müharibəsində sərgilədiyi qətiyyətli mövqedən danışıb.

Qısa bədii proqramdan sonra çıxış edən professor Əmrullah Məmmədov erməni terror təşkilatlarının yaranması, inkişaf istiqamətləri, türk diplomatlarına qarşı törədilən terror aktları, XX əsrdə erməni vandallarının Azərbaycana qarşı həyata keçirdikləri sistemli bəşəri cinayətlərdən bəhs edib.

Daha sonra Xocalı soyqırımının dəhşətlərini əks etdirən film nümayiş olunub.

Siyasi elmlər üzrə fəlsəfə doktoru Mərziyə Məmmədlinin çıxışı təcavüzkar Ermənistanın Azərbaycana qarşı qaldırdığı əsassız ərazi iddiası ilə başlanıb, iki xalq arasında ağır münaqişə və müharibələrə səbəb olan prosesi əhatə edib. O diqqətə çatdırıb ki, 44 günlük Vətən müharibəsi nəticəsində qazanılan rəşadətli Qələbə süni şəkildə yaradılan problemlərə son qoyub.

Çıxışlarda ötən əsrin ən ağır cinayətlərindən sayılan Xocalı soyqırımını törədənlər kəskin şəkildə qınanıb. Diqqətə çatdırılıb ki, Xocalı soyqırımının bütün məsuliyyəti təcavüzkar Ermənistan dövlətinin üzərinə düşür.

Azərbaycanın Türkiyədəki səfirliyi və Çukurova Universiteti tərəfindən birgə təşkil olunan konfransdan sonra iştirakçılar AZƏRTAC-ın arxivində saxlanılan və Xocalı soyqırımının dəhşətlərini özündə əks etdirən fotolardan ibarət sərgi ilə tanış olublar.

Sonda Çukurova Universitetində təhsil alan yerli və xarici tələbələr "Xocalıya ədalət!" çağırışı ediblər.

# Qandurulducu preparatlardan həkim təyinatı əsasında istifadə edilməlidir

Kortəbii şəkildə qəbul edilən dərman preparatları orqanizmdə müəyyən fəsadlara səbəb olur. Son zamanlar yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmaqdan qorunmaq üçün istifadə edilən dərmanların sayı artıb. Hətta bəzən profilaktika məqsədilə qəbul edilən preparatlar arasında qanduruldan dərmanlar da var.



AZƏRTAC xəbər verir ki, həkim-terapevt Nərgiz Kərimovanın dediyinə görə, qandurulducu vasitələrdən necə gəldi istifadə edilməsi orqanizm üçün zərərlidir: "Qandurulducular arasında ən çox yayılanlar aspirin kardio, kardiomaqnil kimi dərmanlardır. Həmin dərmanların hansı xəstəlikdə istifadə edilməsi, xeyirli və zərərli olmağını yalnız həkim təyin edə bilər. Həkim təyinatı olmadan qandurulduculardan istifadə etmək düzgün deyil. Onlardan geniş istifadə olunması mədə qanaxmaları və mədə xoralarının yaranmasına səbəb ola bilər".

Həkim-terapevt onu da qeyd edib ki, belə preparatların özbaşına qəbul edilməsi böyrək çatışmazlığı və bir çox xroniki xəstəliklərə də səbəb ola bilər: "Qandurulduculardan istifadə etmək üçün hər bir xəstənin qan müayinələri olmalıdır. Laborator müayinələr aparmadan qandurulducu preparatlardan istifadə edilməsinin orqanizmə xeyrindən çox ziyanı ola bilər. COVID analizi müsbət çıxan hər bir xəstənin laborator analizi verməsi məsləhətdir".

Sağlamlığın qeydinə qalmaq dərmanlardan kortəbii istifadə etmək demək deyil. Xəstəliklərlə mübarizə aparmaq üçün preparatlardan həkim məsləhəti ilə istifadə etmək lazımdır.

# Salyanda yaşadığı ünvanı tərk edən koronavirus xəstəsi aşkarlanıb

Salyan Rayon Polis Şöbəsinin (PŞ) əməkdaşlarının keçirdiyi müvafiq yoxlamalar zamanı yaşayış yerini tərk edən aktiv koronavirus xəstəsi aşkarlanıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Şirvan regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Salyan rayon sakini H.Tarverdiyevə COVID-19 testinin pozitiv nəticəsinə görə ev şəraitində müalicə təyin olunub və ona tətbiq edilən qaydalara riayət etməsi, yaşayış yerini tərk etməməsi tapşırılıb.

Lakin polis əməkdaşlarının keçirdikləri müvafiq tədbirlər həmin şəxsin karantin qaydalarını kobud şəkildə pozaraq yaşayış yerini tərk etdiyi müəyyən olunub və o, tibbi prosedurlar gözlənilməklə yaşadığı ünvana geri qaytarılıb.

Həmin şəxsin törətdiyi əmələ hüquqi qiymət verilməsi üçün rayon PŞ-də araşdırmalar aparılır.








# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## İdman xəbərləri

# "Böyük dəbilqə" turnirində Azərbaycan cüdoçularının növbəti uğurları



Azərbaycan cüdoçusu Məmmədəli Mehdiyev İsrailin paytaxtı Təl-Əvivdə keçirilən "Böyük dəbilqə" turnirində qızıl medal qazanıb.

AZƏRTAC xəbər verir ki, 90 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı finalda Serbiya təmsilçisi Nemanya Maydovla üz-üzə gəlib. Rəqibinə qalib gələn Mehdiyev "Böyük dəbilqə"nin qalibi olub.

100 kiloqramda yarışan Zelim Kotsoyev bürünc medal görüşündə Onise Saneblidze (Gürcüstan) ilə üz-üzə gələcək.

Qeyd edək ki, "Böyük dəbilqə" turnirinin ilk iki günündə Azərbaycan təmsilçilərindən 73 kq-da Hidayət Heydərov qızıl, 66 kq-da Yaşar Nəcəfov gümüş medala sahib çıxıb. 60 kiloqramda Kəramət Hüseynov 5-ci, Balabəy Ağayev 7-ci yeri tutub. Yarışda Azərbaycanı ümumilikdə 9 cüdoçu təmsil edir.

* * *

Təl-Əvivdə keçirilən "Böyük dəbilqə" turnirində cüdoçumuz Zelim Kotsoyev isə bürünc medal qazanıb.



100 kiloqram çəki dərəcəsində çıxış edən təmsilçimiz üçüncü yer uğrunda görüşdə Gürcüstan təmsilçisi Onise Saneblidzeni məğlub edib.

Bununla da, Azərbaycan komandasının qazandığı medalların sayı dördə çatıb.

Qeyd edək ki, bundan əvvəl cüdoçularımız Hidayət Heydərov (73 kq) və Məmmədəli Mehdiyev (90 kq) qızıl, Yaşar Nəcəfov (66 kq) gümüş medal qazanıblar.

# Karate üzrə beynəlxalq dərəcəli referimiz hakimlik dərəcəsini yüksəldib

Karate üzrə beynəlxalq dərəcəli hakim Rənad Əliyev növbəti hakimlik imtahanından uğurla keçib.

Azərbaycan Karate Federasiyasının Mətbuat xidmətindən AZ?RTAC-a verilən məlumata görə, o, Dubayda Karate 1 Premyer Liqa seriya yarışından əvvəl Dünya Karate Federasiyasının (WKF) hakimlər komitəsi tərəfindən keçirilən imtahanda kata üzrə B dərəcəli referi statusuna sahib olub.




Azərbaycan komandası Karate 1 Premyer Liqa seriyası yarışında 9 idmançı ilə təmsil olunur. Karateçilərimizdən Tural Ağalarzadə (67 kq) bütün rəqiblərinə qalib gələrək finala yüksəlib. İdmançımız final qarşılaşmasına bu gün çıxacaq.

Qeyd edə ki, nüfuzlu turnirə 55 ölkədən 342 karateçi qatılıb.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5510
Sifariş 446
Qiyməti 40 qəpik